NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR



# YENİ FİKİR

HEYDƏR ƏLİYEV

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

23 yanvar 2026-cı il, cümə

№ 1 (70)

# Akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinə həsr olunmuş tədbir keçirilib



















Görkəmli alim və ictimai xadim, Azərbaycan Respublikası Elmlər Akademiyasının təşkilatçılarından biri, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kimya elmləri doktoru, akademik Yusif Məmmədəliyevin 120 illik yubileyi münasibəti ilə keçirilən tədbirin "Naxçıvan səfəri" çərçivəsində böyük tərkibli nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Əməkdar incəsənət xadimi, AMEA-nın müxbir üzvü, professor, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Sevda Məmmədəliyeva və digər tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyub, Ulu Öndərin xatirəsini anıblar. Tədbir iştirakçıları abidə önündə xatirə fotosu çəkdiriblər.

Tədbir çərçivəsində Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində Akademik Yusif Məmmədəliyev adına Tədris-Tədqiqat Mərkəzi istifadəyə verilib.

Mərkəzdə "Akademik Yusif Məmmədəliyev – 120" adlı sərgiyə baxış olub. Akademik və ensiklopedik nəşrlərin üstünlük təşkil etdiyi sərgidə alimin həyat və elmi fəaliyyətini özündə əks etdirən və məqalələrindən ibarət 4 dildə - Azərbaycan, rus, ingilis və macar dillərində kitablar, jurnallar, eyni zamanda qəzet materialları yer alır.

Mərkəzdə təşkil olunan "Akademik Yusif Məmmədəliyev-120" adlı guşədə görkəmli alimin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, müxtəlif fəaliyyət illərində aldığı patentlər, şəhadətnamələri, rəylər, məktublar nümayiş etdirilib. Eyni zamanda mərkəzin laboratoriyalarında universitet əməkdaşları tərəfindən aparılmış tədqiqat nəticələrinin yer aldığı yüksək impakt faktorlu nəşrlər və patentlərdən ibarət sərgi, tələbələrin əldə etdiyi uğurlar, sertifikatlar, eləcə də "Akademik Yusif Məmmədəliyev adına təqaüd" diplomu, Akademik Yusif Məmmədəliyevə həsr olunmuş gənc alimlər arasında "Ən yaxşı məqalə" müsabiqəsinin qaliblərinin diplomları nümayiş olunur.

Tədbir iştirakçıları mərkəzdə fəaliyyət göstərən laboratoriyalarla tanış olub və həyata keçirilən təcrübələri izləyiblər. Kimya ixtisası üzrə təhsil alan tələbələrin hazırladığı kimyəvi maddələrin reaksiyasından düzəldilmiş "Yusif Məmmədəliyev – 120" yazısı maraqla qarşılanıb.

Universitetin Konservatoriya binasında davam etdirilən tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayaraq bildirib ki, görkəmli kimyaçı alim, dünyaşöhrətli akademik Yusif Məmmədəliyevin miras qoyduğu elmi ənənələr bugünkü tədqiqatçılar üçün də mühüm mayakdır. Bu mayak yüzlərlə elm adamının yoluna işıq saçıb. Ümummilli Lider Heydər Əliyevin yüksək dəyər verdiyi Yusif Məmmədəliyev irsi bu gün Naxçıvan Dövlət Universitetində də ətraflı tədqiq olunur, gənc nəslə aşılanır. Ali təhsil ocağında görkəmli akademikin adına təqaüd təsis olunub, Yusif Məmmədəliyev adına Tədris-Tədqiqat Mərkəzi istifadəyə verilib.

Elbrus İsayev görkəmli akademikin 120 illik yubileyi münasibətilə ölkəmizdə keçirilən konfransın iştirakçılarının Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə iştirakından məmnunluğunu ifadə edib, hər kəsə təşəkkür edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tədbirin yalnız bir alimin xatirəsinə ehtiram deyil, həm də Azərbaycan elminin keçdiyi böyük inkişaf yoluna nəzər salmaq, Yusif Məmmədəliyevin elm tariximizə etdiyi töhfələri yeni nəslə daha dərindən çatdırmaq məqsədi daşıdığını qeyd edib. Səlahiyyətli nümayəndə bildirib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə elmi-tədqiqat infrastrukturunun modernləşdirilməsi, innovasiya ekosisteminin genişləndirilməsi, alimlərin və gənc tədqiqatçıların dəstəklənməsi istiqamətində ardıcıl və sistemli addımlar həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 iyul 2025-ci il tarixində dahi kimyaçı, akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinin qeyd olunması haqqında imzaladığı Sərəncam da məhz elmə və təhsilə verilən bu yüksək qiymətin, milli elmi irsin qorunmasına və elmi mühitin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin bariz ifadəsidir.

Vurğulanıb ki, ölkəmizin digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikasında da elm və təhsilin inkişafı müasir elmi-təhsil mühitinin qurulması əsas prioritetlərdən biri kimi müəyyən edilib, Xüsusilə, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqrami"nda elmin və təhsilin modernləşdirilməsi, tədqiqat mühitinin gücləndirilməsi, innovativ yanaşmaların tətbiqi, gənc mütəxəssis hazırlığının keyfiyyətinin artırılması strateji hədəflər kimi göstərilib. Həyata keçiriləcək layihələr ölkəmizin gələcək nəsil alimlərinin formalaşmasına, innovasiya mərkəzi kimi mövqeyinin möhkəmlənməsinə geniş perspektivlər açacaq.

"Yusif Məmmədəliyevin yaratdığı elmi məktəbin bu gün də canlı olduğunu, onun ideyalarının müasir çağırışlar fonunda aktuallığını qoruduğunun şahidiyik. Dövlətimiz belə şəxsiyyətlərin irsinə yüksək dəyər verir və bu elmi mirasın gələcək nəsillərə layiqincə çatdırılması üçün ardıcıl addımlar atır", - fikirləri ilə çıxışını tamamlayan Ceyhun Cəlilov Akademik Yusif Məmmədəliyevin əziz xatirəsini bir daha ehtiramla yad edib, tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirib, uğurlar arzulayıb.

Universitetin heykəltəraş müəllimi Elxan Zeynalov tərəfindən hazırlanmış barelyef və Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı, İncəsənət fakültəsinin dekanı Cavid İsmayılovun çəkdiyi "Akademik Yusif Məmmədəliyev" portreti akademikin qızı Sevda Məmmədəliyevaya təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin ifasında "Akademik Yusif Məmmədəliyevin ən çox dinlədiyi və sevdiyi mahnılar" adlı konsert proqramı təqdim edilib.

Əməkdar incəsənət xadimi, professor Sevda Məmmədəliyeva dövlətimizin elm adamlarının xidmətlərini hər zaman yüksək qiymətləndirdiyini bildirib, Ümummilli Lider Heydər Əliyevin akademik Yusif Məmmədəliyevin yubiley tədbirlərində iştirakını, ev muzeyinin yaradılması ilə bağlı təşəbbüsünü minnətdarlıqla xatırlayıb, Prezident cənab İlham Əliyevin Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyinin qeyd edilməsi haqqında Sərəncamının bu diqqət və qayğının davamı kimi yüksək dəyərə malik olduğunu qeyd edib, tədbirin təşkilində əməyi olanlara təşəkkür edib.

Yubiley tədbiri çərçivəsində görkəmli alimin doğulub böyüdüyü Ordubad şəhərinə də səfər edilib. Qonaqlar akademik Yusif Məmmədəliyevin Ordubad şəhərindəki abidəsinin bərpadan sonra açılışında iştirak edib, önünə tər güllər düzüblər.

Sonra Yusif Məmmədəliyevin Ordubad şəhərindəki ev-muzeyi ziyarət edilib. Qonaqlara dünya şöhrətli kimyaçı alimin həyat və fəaliyyətini əks etdirən fotolar, şəxsi əşyalar, elmi yaradıcılıq nümunələri və digər dəyərli eksponatlar barədə məlumat verilib.

Əməkdar incəsənət xadimi, professor Sevda Məmmədəliyeva atası ilə bağlı xatirələrini bölüşüb.

# Naxçıvan Regional Bank Forumu keçirilib

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin, Azərbaycan Respublikası Mərkəzi Bankının, Azərbaycan Banklar Assosiasiyasının və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik ili"nə və Zəfərin 5 illik yubileyinə həsr olunmuş Naxçıvan Regional Bank Forumu keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli forumda iştirak edib.

Forum iştirakçıları əvvəlcə Naxçıvan Dövlət Universitetində təşkil edilən rəsm və yaradıcılıq sərgisinə baxıblar.

Forumun açılış tədbirində Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Universitetin xor kollektivi Zəfər mahnısını səsləndirib, "Konstitusiya və Suverenlik ili"nə və Zəfərin 5 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli iştirakçıları salamlayaraq əlamətdar tədbirin həm iqtisadi baxımdan, həm də mənəvi dəyərinə görə mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Bildirib ki, ümumi iqtisadi sabitliyin və inkişaf kursunun tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikası son illərdə böyük iqtisadi yüksəliş dövrünü yaşayır. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə qəbul olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" regionun iqtisadi potensialının daha səmərəli istifadəsini, yeni istehsal sahələrinin və investisiya mühitinin formalaşmasını təmin edir.

Samir Seyidəhmədli diqqətə çatdırıb ki, inkişaf kursuna uyğun olaraq, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi tərəfindən dövlət idarəçiliyində müasir texnoloji yanaşmalar tətbiq olunur. Belə ki, idarəetmədə məlumatların toplanması, təhlili və qərarvermə proseslərində səmərəliliyin artırılması məqsədilə 80-dən artıq dövlət qurumunu birləşdirən "smartnet.az" portalı yaradılıb.

Səlahiyyətli nümayəndənin müavini "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Mərkəzi Bank və digər qurumların iştirakı ilə maliyyə sektorunda atılan bir sıra mühüm addımlardan bəhs edərək görülən işlərin real nəticələrinin bütün sahələrdə özünü göstərdiyini qeyd edib. Bildirib ki, cari ilin yanvar-sentyabr ayları ərzində muxtar respublikada fəaliyyət göstərən bank filialları tərəfindən 389 milyon 47 min manat kredit verilib. Bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 32,2 faiz çoxdur. Bu, təkcə statistik göstərici deyil, region iqtisadiyyatına olan inamın, sahibkarlığın inkişafına və investisiya fəallığının artmasına yönələn məqsədyönlü dövlət siyasətinin konkret nəticəsidir. Cari ildə verilmiş kreditlərin 133 milyon 387 min manatı real sektorun inkişafına yönəldilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,7 faiz artım deməkdir. Bu artım istehsal sahələrinin genişlənməsinə, yeni iş yerlərinin açılmasına və yerli məhsul istehsalının güclənməsinə birbaşa təsir göstərir.

Samir Seyidəhmədli muxtar respublika iqtisadiyyatının əsası sayılan sahələr üzrə də ciddi artımların müşahidə olunduğunu xüsusi vurğulayaraq qeyd edib ki, sənaye sahəsində 49,8 faiz, nəqliyyat və rabitə sahəsində 3,8 dəfə, kənd təsərrüfatında isə 1,8 faiz artım müşahidə edilib. 2025-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada fəaliyyət göstərən banklara məxsus ödəniş alətləri vasitəsilə aparılan nağdsız əməliyyatların həcmi 908 milyon manat təşkil edib. Bu göstərici 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə çoxdur. Eyni zamanda, POS-terminalların sayında 72 faiz, ödəniş terminallarının sayında isə 40,3 faiz artım qeydə alınıb.






Bəzi istiqamətlərdə əlavə diqqət tələb edən məsələlərdən də söz açan səlahiyyətli nümayəndənin müavini vurğulayıb ki, Naxçıvan ölkə başçısı tərəfindən azad iqtisadi zona elan edilib. Bu da o deməkdir ki, muxtar respublika rezidentləri 10 il müddətində iqtisadi güzəştlər, əsasən də vergi və sosial sığorta güzəştlərindən yararlanacaqlar. Bu da iqtisadi fəallığı daha da artıracaq. Bank sektoru da bu islahatlara öz töhfəsini verməli, maliyyə alətlərinin əlçatanlığını təmin etməlidir.

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini Toğrul Əliyev "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" xüsusi əhəmiyyətinə toxunaraq bildirib ki, proqramın icrası çərçivəsində Naxçıvanda bank sektorunun infrastrukturunun genişləndirilməsi davam edib. Bu da Naxçıvanda maliyyə infrastrukturunun gücləndiyini və sahibkarlığın maliyyə dayanıqlılığının artdığını təsdiqləyir. Maliyyə xidmətlərinə əlçatanlığın genişləndirilməsi, güzəştli kreditlərin verilməsi, innovativ texnologiyaların tətbiqi istiqamətində həyata keçirilən kompleks tədbirlər, o cümlədən maliyyə institutlarının xidmət şəbəkələrinin genişləndirilməsi əhalinin və sahibkarların maliyyə xidmətlərinə çıxışını daha da asanlaşdırır. Bu islahatlar fonunda sabitliklə innovasiyanın, ədalətlə rəqabətin və uğurla iqtisadi azadlığın vəhdəti təmin edilir.

Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev forumda



çıxış edərək bildirib ki, son illər ölkəmizin iqtisadi gücünün artması bankların regionlarda, xüsusən də Naxçıvan ərazisində sahibkarlığın maliyyələşməsinə yönəlmiş fəaliyyətlərinin reallaşmasına yeni imkanlar açır. Vergi islahatları, suverenliyin möhkəmlənməsi və bank sektorunun inkişafı Naxçıvanın iqtisadi perspektivlərini artırır. Hazırda Naxçıvanda 7 bankın 14 filialı, 5 BOKT və 1 Kredit İttifaqı fəaliyyət göstərir. Nəqliyyat dəhlizlərinin açılması Naxçıvan üçün yeni iqtisadi perspektivlər açır. Muxtar respublika logistika, ticarət, aqrar, emal, turizm və bərpa olunan enerji sahələrində yeni mərhələyə qədəm qoyur. Bank sektoru da yeni tələblər əsasında Naxçıvanın maliyyə xidmətlərinin genişləndirilməsi, sahibkarlığın maliyyələşdirilməsi, iqtisadi fəallığın artırılması, eləcə də təklif və təşəbbüslərlə çıxış edir. 2026-cı ilin büdcə proqnozlarında Naxçıvan Muxtar Respublikasının gəlirlərinin artması və defisitinin azalması bu istiqamətdə atılan addımların artıq müsbət nəticə verdiyini göstərir.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev banklarla ali təhsil ocağı arasında səmərəli əməkdaşlığın olduğunu diqqətə çatdıraraq kadr hazırlığı və əməkdaşlığın genişləndirilməsi məqsədilə universitetdə süni intellektə əsaslanan bank simulyasiya mərkəzinin açılmasını, müvafiq ixtisaslar üçün modul dərslərin keçirilməsinin nəzərdə tutulmasını təklif edib. Eləcə də ali təhsil ocağında 35-ə yaxın ölkədən 2 min əcnəbi tələbənin təhsil aldığı nəzərə alınaraq kampus ərazisində valyutadəyişmə məntəqəsinin qurulmasının, əcnəbi tələbələrə müvafiq kartların verilməsi prosesinin sadələşdirilməsi və sürətləndirilməsi, həmçinin banklarla birgə ortaq nəşrlərin hazırlanmasının zəruriliyini diqqətə çatdırıb.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin direktoru Elçin Əliyev forumu bank sektorunun regionda rolu, gələcək inkişaf istiqamətləri və maliyyə maarifləndirilməsinin dərinləşdirilməsi baxımından önəmli bir dialoq platforması kimi dəyərləndirərək diqqətə çatdırıb ki, bu gün Naxçıvanda fəaliyyət göstərən banklar müxtəlif istiqamətlərdə - sahibkarlığın dəstəklənməsi, rəqəmsal bank xidmətlərinin genişləndirilməsi və kadr potensialının artırılması, sosial layihələrin icrası sahələrində mühüm işlər görürlər. Son 4 il ərzində 4 bankın Naxçıvan filialının, 6 bank şöbəsinin, 7 sığorta şirkətinin Naxçıvan filialının və rayon nümayəndəliklərinin, son 1 il ərzində isə 1 bank olmayan kredit təşkilatının Naxçıvan şəhəri və rayonlarda olmaqla 3 filialının, fəaliyyətə başlaması Dövlət Proqramında Mərkəzi Bankın qarşısına qoyulmuş tapşırıqların uğurlu icrasının bariz nümunəsidir.

Rəsmi hissənin sonunda xatirə fotosu çəkdirilib.

Forum çərçivəsində "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulmuş tapşırıqların icrasının müzakirəsinə həsr olunmuş dəyirmi masa keçirilib, muxtar respublikada mövcud iqtisadi reallıqlar, gələcək gözləntilər, regionda iqtisadi canlanmanın təşviqində bankların rolu, həmçinin bank sektoruna dair infoqrafik məlumatlar təqdim olunubdur.

Həmçinin universitetin tələbə və müəllimləri üçün keçirilən müzakirələrdə rəqəmsal bankçılıq, müasir bank xidmətləri və bank sektorunda karyera perspektivləri mövzuları müzakirə olunub.

# Naxçıvan Dövlət Universiteti ilə Milli Süni İntellekt Mərkəzi arasında əməkdaşlığa dair memorandum imzalanıb









Naxçıvan Dövlət Universitetində Milli Süni İntellekt Mərkəzinin rəhbər heyəti ilə görüş keçirilib. Görüşdə süni intellekt sahəsində təhsil, tədqiqat və innovasiya istiqamətləri üzrə qarşılıqlı əməkdaşlıq imkanları ətrafında geniş fikir mübadiləsi aparılıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bu cür görüşlərin strateji əhəmiyyət daşıdığını vurğulayaraq bildirib ki, gələcəkdə bu ali təhsil ocağında kibertəhlükəsizlik və süni intellekt mərkəzlərinin yaradılması, habelə rəqəmsallaşmanın genişləndirilməsi əsas prioritetlərdəndir.

Görüşdə süni intellektlə bağlı seçmə fənlərin tədrisinə marağın böyük olduğu və ilkin mərhələdə bu istiqamətdə həm bakalavr, həm də magistratura üzrə tədris proqramları və sillabusların hazırlandığı və tətbiqinin nəzərdə tutulduğu açıqlanıb.

Nəzərə çatdırılıb ki, bu ali təhsil müəssisəsində tibb sahəsində süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı işlərin aparılması gözlənilir.

Rektor çıxışında tələbələrin süni intellekt sahəsinə daha sürətli adaptasiya olunduğunu qeyd edərək bu sahə üzrə peşəkar mütəxəssislərin yetişdirilməsinin vacibliyini önə çəkib.

Elbrus İsayev bildirib ki, Naxçıvan Dövlət Universitetində dünyanın 22 ölkəsindən xarici tələbələr təhsil alır. Bu səbəbdən də gələcəkdə beynəlxalq standartlara uyğun, sistemli proqramların qurulması əsas məqsəd kimi müəyyən edilib.

Naxçıvan Dövlət Universiteti ilə Süni İntellekt Akademiyası arasındakı əməkdaşlıq, birgə strukturun formalaşdırılması, növbəti beynəlxalq süni intellekt konfransının keçirilməsi və bu istiqamətdə dəstəyin göstərilməsi prioritet hesab edilir.

Milli Süni İntellekt Mərkəzinin direktoru Tuncay Bağırov mərkəzin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Bildirib ki, mərkəz dörd əsas istiqamət üzrə fəaliyyət göstərir və Naxçıvan Dövlət Universiteti ilə Milli Süni İntellekt Mərkəzi arasında körpü rolunu oynamaqda maraqlıdır. O, infrastrukturun gücləndirilməsi, mütəxəssislərin hazırlanması, birgə tədqiqatların aparılması və əlaqələrin genişləndirilməsinin vacibliyini önə çəkib.

Tuncay Bağırov “Smart Office” modelinin üstünlüklərindən danışaraq süni intellekt sahəsində mütəxəssislərin cəlb ediləcəyini, proqram və layihələrə dəstək göstəriləcəyini də bildirib.

NDU tələbələrinin Milli Süni İntellekt Mərkəzinin bazasına qoşulacağı, fərqlənən və uğurlu tələbələrə tam dəstək veriləcəyi vurğulanıb.

Xüsusilə, tibb sahəsində süni intellekt tətbiqlərinin perspektivli olduğu, universitetin innovasiya mərkəzinə çevrilməsi üçün kifayət qədər potensiala malik və bu istiqamətdə tam dəstəyə hazır olduqları qeyd edilib.

Tədbir zamanı universitetdə mövcud ikili diplom proqramları, IELTS və SAT mərkəzləri, eləcə də beynəlxalq kitab bazası kimi imkanların muxtar respublikanın sosial-iqtisadi inkişafına töhfə verdiyi vurğulanıb.

Görüşün sonunda Naxçıvan Dövlət Universiteti ilə Milli Süni İntellekt Mərkəzi arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Daha sonra qonaqlar Naxçıvan Dövlət Universitetində İnnovasiya Mərkəzi və burada həyata keçirilən işlərlə tanış olub, mövcud avadanlıqlara baxış keçiriblər.

*Aidə İbrahimova*
*Naxçıvan Dövlət Universitetinin əməkdaşı*

# Naxçıvan Dövlət Universiteti dünya reytinqində irəliləyib



Naxçıvan Dövlət Universiteti “UI GreenMetric 2025” reytinqində yüksəliş edib və yaşıl inkişaf strategiyası beynəlxalq səviyyədə tanınıb.

Dünyanın ali təhsil müəssisələrini ekoloji dayanıqlılıq, “yaşıl enerji” istifadəsi, kampus idarəçiliyi və innovativ ekoloji həllərə görə qiymətləndirən “UI GreenMetric World University Rankings 2025”in nəticələri açıqlanıb.

Bu il Naxçıvan Dövlət Universiteti üçün xüsusi əhəmiyyət daşıyan uğurlu irəliləyiş qeydə alınıb. Universitet 6435 bal toplayaraq ölkəmizdəki 19 ali təhsil müəssisəsi arasında 6-cı, dünyanın 1745 ali təhsil müəssisəsinin sıralamasında isə 628-ci yerdə qərarlaşıb. Əldə olunan bu nəticə Naxçıvan Dövlət Universitetinin son illər həyata keçirdiyi ekoloji idarəetmə strategiyasının, yaşıl kampus təşəbbüslərinin və dayanıqlı inkişaf istiqamətində ardıcıl addımlarının beynəlxalq səviyyədə tanınması deməkdir.

Regionun elm və innovasiya mərkəzlərindən olan Naxçıvan Dövlət Universiteti 1967-ci ildən bu günə Azərbaycanın ən dinamik inkişaf edən ali təhsil müəssisələrindən biri kimi tanınır. 10 fakültə, onlarla kafedra, müasir elmi-tədqiqat laboratoriyaları, elektron kitabxana, beynəlxalq standartlara uyğun tələbə kampusu, startap inkubasiya zonaları və rəqəmsal infrastruktur universitetin təhsil və elm mühitini formalaşdıran əsas üstünlüklərdəndir.

Naxçıvan Dövlət Universitetinin genişlənməkdə olan beynəlxalq əlaqələri, 100-dən çox universitetlə qurulan səmərəli əməkdaşlıq, ikili diplom layihələri və iştirak etdiyi beynəlxalq konfranslar ali təhsil ocağının qlobal tədris sisteminə inteqrasiyasını gücləndirir. Əcnəbi tələbələr üçün yaradılan çoxmillətli kampus atmosferi isə universitetin beynəlxalq səviyyəsini artırır.

“Yaşıl kampus” strategiyası: enerji, ekoloji mədəniyyət və davamlılıq bu gün Naxçıvan Dövlət Universitetinin əsas hədəflərindəndir. Belə ki, hazırda ali təhsil ocağı “UI Green Metric” reytinqində irəliləyib. Bunun əsas səbəblərindən biri genişmiqyaslı yaşıl təşəbbüslərinin sistemli şəkildə həyata keçirilməsidir. Universitet ərazisində günəş enerjisi panellərindən istifadə, su və enerji sərfiyyatının optimallaşdırılması, tullantıların çeşidlənməsi, ekoloji təmiz nəqliyyat tətbiqi və xüsusilə də yaşıllıq zolaqlarının genişləndirilməsi kimi layihələrin icrası təqdirəlayiqdir. Tələbə təşkilatları tərəfindən mütəmadi təşkil olunan ekoloji maarifləndirmə tədbirləri, ağacəkmə aksiyaları, ekoturlar və ekoloji tədqiqat layihələri yaşıl mədəniyyətin universitetdə geniş yayılmasına xidmət edir.

Universitetdə innovasiya və tədqiqat mühiti getdikcə daha da güclənir. Belə ki, elm sahəsində tərəqqiyə nail olmaq niyyəti və gələcəyə yönəlmiş baxış, biotexnologiya, aqrar elmlər, informasiya texnologiyaları və enerji sahələrində fəaliyyət göstərən müasir laboratoriyalar tələbə və gənc tədqiqatçılar üçün geniş imkanlar yaradır. Startapların dəstəkləndiyi mühit bu təhsil müəssisəsini regionda rəqəmsal və texnoloji inkişafın mərkəzlərindən birinə çevirir.

Naxçıvan Dövlət Universitetinin “UI GreenMetric 2025” reytinqində əldə etdiyi uğurlar onun tədris, elm, ekoloji idarəetmə və innovasiyaların tətbiqi sahələrində irəli sürdüyü strateji yanaşmanın real göstəricisidir. “Yaşıl kampus” konsepsiyasına sadiqlik, rəqəmsal inkişaf, beynəlxalq əməkdaşlıq və müasir infrastruktur Naxçıvan Dövlət Universitetinin həm ölkə daxilində, həm də regionda nümunəvi ali təhsil ocağı kimi tanınmasına şərait yaradıb.

Naxçıvan Dövlət Universitetinin əldə etdiyi bütün bu uğurlar, gələcəkdə həyata keçiriləcək yaşıl layihələr, elmi təşəbbüslər və beynəlxalq əməkdaşlıqlar üçün yeni perspektivlər açır. Qarşıdakı illərdə universitetin qazandığı nailiyyətlərin artırılması və dayanıqlı inkişaf sahəsindəki lider mövqeyinin daha da möhkəmləndirilməsi əsas məqsədlərdəndir.

Beləliklə, Naxçıvan Dövlət Universitetinin “UI GreenMetric 2025” reytinqində irəliləməsi yalnız statistik göstərici deyil, həm də təhsil, elm və məsuliyyətin vəhdətinə əsaslanan uzunmüddətli inkişaf strategiyasının uğurla həyata keçirilməsinin nəticəsidir. Yaşıl düşüncə tərzini institusional mədəniyyətə çevirən bu universitet gələcək nəsillər üçün daha sağlam, dayanıqlı, xüsusilə də innovativ təhsil mühitinin formalaşmasına töhfə vermiş olur. Naxçıvan Dövlət Universiteti bu yanaşma ilə regional çərçivəni aşaraq qlobal miqyasda yaşıl universitet modelinin uğurlu nümu-nələrindən biri qismindəki mövqeyini möhkəmləndirməkdə davam edir.

# NDU-da Ana dilinin qorunması ilə bağlı tematik görüş keçirilib





Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Kembric məktəbində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan dilinin qorunması, inkişafı və ədəbi normalara uyğun istifadəsi ilə bağlı verdiyi tapşırıqların icrasını təmin etmək məqsədilə “Azərbaycan ədəbi dilinin saflığının qorunması” mövzusunda tematik görüş keçirilib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rəhbərliyi, professor-müəllim heyəti, elmi işçilər, tədqiqatçılar, tələbələr, eləcə də NDU nəzdində İngilis dili təmayüllü Gimnaziyanın şagirdləri də iştirak ediblər.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq vurğulayıb ki, Azərbaycan dilinin dövlət dili kimi qorunması və saflığının təmin edilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Rektorun sözlərinə görə, dövlət başçısının ana dilinin saflığının qorunmasına dair prinsipial mövqeyi ali təhsil müəssisələrinin üzərinə xüsusi məsuliyyət qoyur və bu məsələyə Naxçıvan Dövlət Universitetinin tədris prosesi, elmi araşdırmalar və ictimai mühitində ardıcıl şəkildə yanaşılır.

Elbrus İsayev onu da vurğulayıb ki, ana dilinə hörmət yalnız normativ tələblərin icrası ilə məhdudlaşmır, bu eyni zamanda milli düşüncə tərzinin və vətəndaş məsuliyyətinin formalaşmasının mühüm göstəricisidir.

Rektorun sözlərinə görə, Naxçıvan Dövlət Universiteti ana dilinin qorunmasını institusional dəyər kimi qəbul edərək bu istiqamətdə maarifləndirici və davamlı elmi-ictimai mühit formalaşdırır.

Tematik görüşün əsas məruzəçisi filologiya elmləri doktoru, professor Mahirə Hüseynova Azərbaycan ədəbi dilinin tarixi inkişaf yolu, dövlət dili kimi mövqeyinin möhkəmləndirilməsi və müasir dövrdə dilin qarşılaşdığı problemlər barədə ətraflı məlumat verib.

Professor qeyd edib ki, Prezident İlham Əliyevin Ana dilinin saflığının qorunmasına dair ardıcıl çağırışları dilçilik elmi və təhsil sistemi üçün mühüm istiqamətverici rol oynayır.

Mahirə Hüseynova ana dilinin qorunmasının yalnız elmi müstəvidə deyil, gündəlik ünsiyyət, ictimai davranış və xüsusilə də, təhsil prosesində prinsipial mövqe tələb etdiyini diqqətə çatdırıb.

Onun sözlərinə görə, qloballaşma şəraitində Azərbaycan ədəbi dilinin elmi əsaslarla tədrisi və düzgün tətbiqi milli kimliyin və milli yaddaşın qorunmasının əsas təminatlarından biridir.

Professorun qənaətincə, dövlət başçısının ana dilini milli yaddaşın və milli təhlükəsizliyin əsas elementi kimi dəyərləndirməsi cəmiyyətin bütün təbəqələrində dilə məsuliyyətli münasibətin formalaşmasına xidmət edir.

Məruzədə o da vurğulanıb ki, beynəlxalq təhsil proqramlarının tətbiq olunduğu mühitlərdə Azərbaycan ədəbi dilinin qorunması Prezident İlham Əliyevin müəyyən etdiyi milli dil siyasətinin praktik təzahürüdür. Bu baxımdan, Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbi və İngilis dili təmayüllü Gimnaziya Ana dilinin qorunduğu və yüksək səviyyədə tətbiq edildiyi nümunəvi təhsil ocaqları kimi dəyərləndirilib.

Görüş çərçivəsində dilin ictimai-siyasi həyatda rolu, kütləvi informasiya vasitələrində dil mədəniyyətinin qorunması və tədris prosesində ədəbi dil normalarına riayət edilməsi kimi mövzularda geniş fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Ana dilinin qorunması və təbliği istiqamətində universitetlə mütəmadi elmi-ictimai əməkdaşlığa verdiyi töhfələrə görə Naxçıvan Dövlət Universitetinin fəxri professoru Mahirə Hüseynovaya minnətdarlığını bildirib.

Rektor vurğulayıb ki, bu cür davamlı görüşlər və elmi müzakirələr ali təhsil mühitində ana dilinə məsuliyyətli münasibətin formalaşmasına, elmi yanaşmanın gücləndirilməsinə və milli dil siyasətinin uğurla həyata keçirilməsinə mühüm töhfə verir.

Sonda qeyd olunub ki, Naxçıvan Dövlət Universitetində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi milli dil siyasətinə uyğun olaraq Ana dilinin qorunması, ədəbi saflığının təmin edilməsi və gənc nəslə aşılanması istiqamətində elmi-ictimai tədbirlərin təşkili bundan sonra da ardıcıl şəkildə davam etdiriləcək.

***Aidə İbrahimova***
***Naxçıvan Dövlət Universitetinin əməkdaşı***

# Naxçıvan Dövlət Universitetinin rektoru “İmtahan Qərargahı”nda imtahanların gedişini onlayn izləyib









Naxçıvan Dövlət Universitetində 2025-2026-cı tədris ilinin payız semestrinin imtahan sessiyası çərçivəsində görüş keçirilib. Naxçıvan Dövlət Universitetində 2025-2026-cı tədris ilinin payız semestrinin imtahan sessiyası çərçivəsində universitetin rektoru Elbrus İsayev imtahanların təşkili və gedişinə nəzarət məqsədilə İmtahan Qərargahı və Apellyasiya Komissiyasının üzvləri ilə görüş keçirib. İmtahan prosesində tətbiq olunan yeniliklər və mövcud vəziyyət müzakirə olunub. Görüş zamanı rektor imtahan prosesində tətbiq olunan yeniliklər, qarşıya çıxan çətinliklər və mövcud çatışmazlıqlar barəsində məlumat alıb. Komissiya üzvləri imtahanların keçirilməsi ilə bağlı müşahidələrini və təkliflərini təqdim ediblər. Bildirilib ki, imtahanların ilk həftəsində qaydalara riayət etməyən 40-a yaxın tələbə imtahanlardan kənarlaşdırılıb. Şəffaf və obyektiv imtahanların keçirilməsinin vacibliyi vurğulanıb. Yekunda Elbrus İsayev imtahanların şəffaf və obyektiv keçirilməsinin vacibliyini vurğulayaraq komissiya üzvlərinə müvafiq tövsiyə və tapşırıqlarını verib. İmtahan prosesinə elektron və texniki nəzarət həyata keçirilir. Qeyd edək ki, imtahan sessiyasının obyektivliyinin təmin edilməsi məqsədilə universitetdə 11 nəfərlik İmtahan Qərargahı və Apellyasiya Komissiyası fəaliyyət göstərir. İmtahanın gedişinə müşahidə kameraları vasitəsilə nəzarət edilir. Komissiya üzvləri daxil olan müraciətləri tam elektron formada araşdıraraq operativ şəkildə cavablandırır.

# “Texnoparkların təhsildə və iqtisadi inkişafda rolu” mövzusunda III Beynəlxalq Simpozium keçirilib

Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı, Türkiyənin bir sıra qabaqcıl universitet və texnoparklarının tərəfdaşlığı ilə “Texnoparkların təhsildə və iqtisadi inkişafda rolu” mövzusunda III Beynəlxalq Simpoziumun açılışı olub.

Simpoziumun məqsədi texnoparkların müasir təhsil sistemində və iqtisadi inkişafda





rolunu elmi əsaslarla müzakirə etmək, beynəlxalq təcrübəni bölüşmək və yeni əməkdaşlıq imkanlarını dəyərləndirməkdir.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev açılış nitqində bildirib ki, Azərbaycan Respublikası Prezidentinin “Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə”nin təsdiq edilməsi barədə Fərmanı bu sahədə dövlət siyasətinin əsas çərçivəsini müəyyən edib. Rektor qeyd edib ki, texnoparklar dünya universitetlərində geniş tətbiq olunsa da, Azərbaycan ali təhsil sistemi üçün yeni və strateji əhəmiyyət daşıyan istiqamətdir. Bu baxımdan beynəlxalq təcrübənin öyrənilməsi prioritet hesab olunur. Elbrus İsayev vurğulayıb ki, Naxçıvan Dövlət Universiteti xüsusilə qardaş Türkiyənin aparıcı universitetlərinin texnopark təcrübəsini öyrənir, bu məqsədlə qarşılıqlı səfərlər həyata keçirilib və nüfuzlu texnologiyalar parklarının fəaliyyəti ilə yerində tanışlıq olub. Rektor bildirib ki, universitetdə dörd hektar ərazidə Texnologiyalar Parkının yaradılması istiqamətində işlərə başlanılıb, layihələndirmə mərhələsi başa çatıb. Rektor əlavə edib ki, universitet ərazisində fəaliyyət göstərən İnnovasiya Mərkəzi yeni innovatorların yetişməsi və texnoparkın fəaliyyətinə mühüm dəstək rolunu oynayacaq.



Simpoziumda çıxış edən Türkiyə Cümhuriyyətinin İstanbul Universiteti İqtisad fakültəsinin dekanı, professor Mahmut Cüneyt Yenigün universitetlərin dövlət, sənaye və iqtisadiyyat arasında əsas əlaqələndirici rol oynadığını bildirib. Professor texnoparkların elmi-tədqiqat nəticələrinin praktik tətbiqə və iqtisadi dəyərə çevrilməsində mühüm mexanizm olduğunu qeyd edib.

İstanbul Universiteti–Cərrahpaşanın professoru Tülin Öztürk tibb sahəsində texnoparkların roluna toxunaraq bu istiqamətdə aparılan elmi araşdırmaların innovativ məhsulların yaranmasına imkan verdiyini vurğulayıb.

Tədbirdə, həmçinin Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı Əşrəf Ələkbərov, Düzcə Universitetinin dosenti Özkan Şahin, Harran Universitetinin dosenti Hasan Bardakçı, Azərbaycan Turizm və Menecment Universitetinin dosenti Vüqar Nəzərov, TÜBİTAK Marmara Texnoparkının direktor müavini Deniz Yayla, Entertech İstanbul Texnoparkının direktoru Muhammed Kasapoğlu, Düzcə Texnoparkının direktoru, professor Resul Kara və Zonquldak Texnoparkının direktoru Ferdi Kesikoğlunun çıxışları dinlənilib.

Simpozium öz işini bölmə iclasları ilə davam etdirib. Beş salonda 15 panel üzrə 150-dən çox elmi məruzə təqdim olunub. Tədbirdə 10-u xarici ölkədən olmaqla, 30-a yaxın elm və təhsil müəssisəsinin nümayəndələri iştirak ediblər.

Panel müzakirələrində texnoparkların iqtisadi səmərəliliyi, universitet–sənaye əməkdaşlığının gücləndirilməsi, tətbiqi tədqiqatların kommersiyalaşdırılması, iqtisadiyyat, mühəndislik, informasiya texnologiyaları və tibb ixtisasları üzrə praktiki bacarıqların formalaşdırılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

İki gün davam edən simpoziumda məruzəçilərə sertifikatların təqdim olunub.

*Fəxriyyə Səyyadova*
*Naxçıvan Dövlət Universitetinin əməkdaşı*

# Naxçıvan Dövlət Universitetində “Elektronika və proqramlaşdırma” sərgisi keçirilib

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsində tələbələrin təşəbbüsü və iştirakı ilə “Elektronika və proqramlaşdırma” adlı sərgi təşkil olunub. Tədbirdə universitetin rektoru Elbrus İsayev iştirak edərək fakültə tələbələrinin istifadəsi üçün STEAM və İnnovasiya Mərkəzlərinin fəaliyyəti barədə məlumat verib. O, tələbələrə təqdim olunan texnoloji imkanların dəyərləndirilməsinin vacibliyini vurğulayıb.

Rektor çıxışında universitetin “yaşıl enerji” zonası elan olunduğunu bildirib və bununla yanaşı, yaxın gələcəkdə Texnologiyalar parkının yaradılması istiqamətində görülən işlərdən bəhs edib. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2026-cı ilin ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan olunmasını xatırladan rektor fakültə kollektivinə qarşıdakı dövrdə daha innovativ və fəal fəaliyyət göstərmələri ilə bağlı tövsiyələrini verib.

Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov sərgidə tələbələrin fərdi və komanda şəklində hazırladıqları layihələrin təqdim olunduğunu bildirib. Ekologiya, energetika və proqramlaşdırma sahələrini əhatə edən 35-dən artıq layihə sərgilənib. Tələbələrin sərbəst düşüncə və yaradıcı yanaşmalarını əks etdirən bu layihələr maraqla qarşılanıb.

Sərgi tələbələrin nəzəri biliklərini praktik bacarıqlara çevirmək baxımından əhəmiyyətli platforma olub.














# Naxçıvan Dövlət Universitetində Kamal Abdullanın 75 illik yubileyi qeyd olunub

Naxçıvan Dövlət Universitetində filologiya elmləri doktoru, akademik Kamal Mehdi oğlu Abdullayevin anadan olmasının 75 illiyinə həsr olunmuş yubiley konfransı keçirilib. Görkəmli alim, Azərbaycan Respublikasının Xalq yazıçısı, ədəbiyyatşünas və ictimai xadimin Azərbaycan elminə və təhsilinə verdiyi töhfələrin geniş işıqlandırıldığı tədbir elmi-ədəbi ictimaiyyət tərəfindən mühüm hadisə kimi dəyərləndirilib.







Konfransı giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev yubilyarı təbrik edərək onun elmi fəaliyyəti, dilçilik sahəsində apardığı tədqiqatlar və ədəbiyyatşünaslığa verdiyi əhəmiyyətli töhfələr haqqında danışıb. Qeyd olunub ki, Kamal Abdulla yalnız görkəmli yazıçı və dövlət xadimi kimi deyil, eyni zamanda ali təhsil sahəsində uzun illərdir yorulmadan çalışan təhsil təşkilatçısı kimi də tanınır. Rektor professor Kamal Abdullaya Naxçıvan Dövlət Universitetinin "Fəxri fərmanı"nı və rəsm əsəri təqdim edib.

Tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarovun moderatorluğu ilə davam edən tədbirdə yerli və xarici universitetlərin alimləri məruzələrlə çıxış ediblər.

AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Kamal Abdullanın dilçilik sahəsində qoyduğu elmi irsdən bəhs edərək onu yubiley münasibətilə təbrik edib.

Azərbaycan Dillər Universitetinin professoru, AMEA-nın həqiqi üzvü Muxtar İmanov "Kamal Abdullanın dilçilik və ədəbiyyat sahəsində tədqiqatları" mövzusunda məruzə ilə çıxış edərək alimin elmi irsinin milli filologiyanın inkişafındakı rolunu vurğulayıb.

Rumıniyanın Yaşi Universitetinin professoru Ludmila Bejenaru isə "Kamal Abdulla dünya ədəbiyyatında" mövzusunda çıxışında alimin beynəlxalq elmi-ədəbi mühitdə tanınmasından və onun elmi fəaliyyətinə həsr etdiyi müəllifi olduğu kitabdan danışıb.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar yazıçının şeirlərindən söz açaraq onların poetik dəyərini vurğulayıb, yubilyara özünün müəllifi olduğu poeması hədiyyə edib.

Digər məruzəçilər Akşin Bağırov "Kamal Abdullanın Azərbaycan təhsilindəki rolu", dosent İman Cəfərov "Kamal Abdullanın yazıçı, alim, ictimai xadim kimi fəaliyyət istiqamətləri", dosent Əli Həşimov isə "Kamal Abdulla yaradıcılığında Dədə Qorqud araşdırmaları" mövzularında çıxış ediblər.

Konfrans boyu Kamal Abdullanın elmi və bədii irsinin zənginliyi, Azərbaycan dilçiliyi, ədəbiyyatı və təhsil sistemindəki əhəmiyyətli rolu xüsusi vurğulanıb.

Tədbirin sonunda dosent Gülxarə Əhmədova "Kamal Abdulla dramaturgiyası və teatr dili" mövzusunda məruzə ilə çıxış edib. daha sonra universitetin "Teatr və mədəniyyətşünaslıq" kafedrasının müəllimi, rejissor Nurbəniz Niftəliyevanın Aktyor sənəti ixtisası üzrə 2-ci kurs tələbələri ilə hazırladığı yazıçı-dramaturq Kamal Abdullanın "Hərdən mənə mələk də deyirlər"eyni adlı tamaşası Tələbə Teatr Studiyasının səhnəsində nümayiş olunub.



Göstərilən diqqət və ehtirama görə minnətdarlığını bildirən akademik tədbiri özünün "Soldu nar çiçəkləri" şeiri ilə yekunlaşdırıb. Sonda iştirakçılar tərəfindən ictimai xadimə gül dəstələri və hədiyyələr təqdim edilib, xatirə şəkli çəkdirilib.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# NDU-da 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram tədbiri keçirilib

Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə Naxçıvan Sarayda 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram tədbiri təşkil olunub. Tədbirdə universitet rəhbərliyi, professor-müəllim heyəti, əməkdaşlar, tələbələr və qonaqlar iştirak ediblər.

Tədbir öncəsi foyedə universitet əməkdaşlarının fəaliyyətini əks etdirən, süni intellekt texnologiyaları əsasında hazırlanmış karikatura sərgisinə baxış keçirilib.

Bayram tədbiri Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarından keçmiş qəhrəman şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa ünvanladığı təbriklərdən biri video şəklində nümayiş etdirilib.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev universitet kollektivini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib. Rektor milli birlik və həmrəyliyin Azərbaycan dövlətçiliyinin əsas dayaqlarından biri olduğunu vurğulayıb. Bu dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsində ali təhsil müəssisələrinin mühüm rol oynadığını qeyd edib. Elbrus İsayev bildirib ki, 2025-ci il Naxçıvan Dövlət Universiteti üçün mühüm nailiyyətlərlə yadda qalıb. Universitet il ərzində elm, təhsil və mədəniyyət sahələrində əldə etdiyi uğurlarla həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə mövqelərini daha da möhkəmləndirib. Rektor bu uğurların müəllim və tələbə kollektivinin birgə fəaliyyəti nəticəsində əldə olunduğunu vurğulayaraq hər kəsə təşəkkür edib və yeni ildə universitet kollektivinə uğurlar arzulayıb.

Daha sonra Naxçıvan Dövlət Universitetinin 2025-ci il ərzində əldə etdiyi uğurları və inkişaf yolunu əks etdirən videoçarx nümayiş etdirilib.

Bayram proqramı çərçivəsində Türk dünyasında Yeni ilin simvolu sayılan Ayaz Ata və Qarlı qızın iştirakı tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Bu təqdimat bayram ovqatının formalaşmasına xüsusi töhfə verib.

Tədbirdə NDU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri Əziz Qasımov çıxış edərək kollektivə bayram təbriklərini çatdırıb, universitetdə sağlam iş mühitinin yaradılması və əməkdaşların sosial rifahının daim diqqətdə saxlanıldığını qeyd edib. Çıxışda rektor Elbrus İsayevin qərarı ilə qarşıdan gələn bayramlar münasibətilə universitetin bütün əməkdaşlarına 1 aylıq əməkhaqqı məbləğində pul mükafatının verildiyi bildirilib.

Bayram proqramı NDU-nun Memarlıq və mühəndislik fakültəsinin tələbələrinin təqdim etdiyi Yeni il flaşmobu ilə davam edib.

Daha sonra NDU-nun nəzdində Beynəlxalq Kembric Məktəbinin I və II sinif şagirdlərindən ibarət yeni yaradılmış "Singing Stars" adlı xor kollektivi çıxış edib.

Tədbirdə universitetin professor-müəllim heyətinin nümayəndələri çıxış edərək kollektivin bayramını təbrik edib, Naxçıvan Dövlət Universitetinin əldə etdiyi uğurların hər bir azərbaycanlı üçün qürur mənbəyi olduğunu vurğulayıblar.







Bayramın bədii hissəsi universitetin "Gənclik" instrumental ansamblının ifaları, tələbə-teatr studiyasının pantomim tamaşası, fakültə dekanlarının qarşılıqlı təbrikləri və Yeni il hədiyyələrinin təqdimatı ilə davam edib. "NDU KVN" komandasının çıxışı, İncəsənət fakültəsinin tələbələrindən ibarət "Band" qrupunun "Yeni il" mahnısı tədbirə xüsusi rəng qatıb.

Tədbirin "Zamana səyahət" hissəsində isə tələbələr 1980, 1990-cı illərin retro, 2100-cü illərin futuristik ruhunu canlandırıblar.

Proqram çərçivəsində NDU-nun nəzdində Naxçıvan Tibb Kollecinin tələbələrinin təqdimatında maraqlı xoreoqrafik kompozisiya nümayiş etdirilib. Daha sonra Naxçıvan Dövlət Universitetinin Yeni il tortunun kəsilməsi mərasimi keçirilib.

Bayram proqramı NDU-nun nəzdində Naxçıvan Dövlət Texniki Kollecin təqdimatında milli dəyərlərimizi yaşadan "Yallı" rəqsi ilə yekunlaşıb.

Tədbir səmimi bayram ovqatı, birlik və həmrəylik ruhu ilə yadda qalıb.

*Aidə İbrahimova*
*Naxçıvan Dövlət Universitetinin əməkdaşı*

# Elm və musiqi eyni səhnədə: NDU-nun dəvəti ilə Umut Yıldız Naxçıvanda

Naxçıvan Dövlət Universitetinin dəvəti və təşkilatçılığı ilə dünyaca məşhur türkiyəli astrofizik alim Umut Yıldız Naxçıvana ilk dəfə səfər edib. Umut Yıldız Naxçıvandakı Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin ifasında səsləndirilən “Kosmosun səsi” adlı konsert proqramı fonunda səhnədən planetlər və kainat haqqında elmi biliklərini bölüşüb.

Konsertdə dövlət və hökumət rəsmiləri, deputatlar, Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti, tələbələr, ictimaiyyət nümayəndələri, eləcə də bir sıra tanınmış şəxslər iştirak ediblər.

Elm və incəsənətin vəhdətini əks etdirən konsert Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin ifasında təqdim edilib. Konsertin bədii rəhbəri və dirijoru Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, universitetin müəllimi Səməd Əsgərov olub.

Konsert proqramının musiqi hissəsinin əsasını görkəmli ingilis bəstəkarı Qustav Holstun “Planetlər” silsiləsi təşkil edib. Proqram çərçivəsində “Mars – Müharibə gətirən”, “Venera – Sülh gətirən”, “Merkuri – Qanadlı elçi”, “Yupiter – Şadlıq gətirən”, “Saturn – Qocalıq gətirən”, “Uran – Sehrbaz” və “Neptun – Mistik” əsərləri səsləndirilib.

Astrofizik alim Umut Yıldızın təqdimatı ilə keçirilən konsertdə musiqi və kosmik mövzular bir araya gətirilib, dinləyicilərə simfonik musiqinin müşayiəti ilə kainata həsr olunmuş bədii-kompozisiya təqdim edilib. Tədbir iştirakçıları kosmosun az tanınan tərəfləri ilə bağlı elmi izahları dinləyib və real təcrübələrə əsaslanan maraqlı məlumatlar əldə ediblər.











“Kosmosun səsi” adlı konsert proqramı elmi biliklərin musiqi dili vasitəsilə geniş auditoriyaya çatdırılmasını, xüsusilə gənclərdə elmə və klassik musiqiyə marağın artırılması ilə yadda qalıb. Tədbir Naxçıvanın mədəni həyatında yaddaqalan hadisə kimi qiymətləndirilib.

Tədbirin sonunda Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev çıxış edərək xüsusi əhəmiyyət kəsb edən tədbiri elm və mədəniyyətin vəhdəti kimi qiymətləndirib. Muxtar respublika sakinləri üçün belə tədbirlərin intellektual və mədəni inkişaf baxımından önəmini vurğulayıb. Cabbar Musayev tədbirin təşkilində əməyi olanlara – rektor Elbrus İsayevə, NDU-nun Simfonik Orkestrinə və Umut Yıldıza xüsusi təşəkkür edib.

Daha sonra Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək Umut Yıldızın ilk dəfə Naxçıvana səfərini əlamətdar hadisə kimi qiymətləndirib. Rektor bu kimi görüşlərin tələbələrin dünyagörüşünün genişlənməsinə və araşdırmaya marağın formalaşmasına mühüm töhfə verdiyini vurğulayıb. Elbrus İsayev Universitetin Simfonik Orkestrinin çıxışını yüksək dəyərləndirib və Umut Yıldıza dəyərli bilik və təcrübələrini Naxçıvan ictimaiyyəti ilə bölüşdüyünə görə təşəkkür edib.

Qeyd edək ki, Umut Yıldız Ankara Universitetinin Astronomiya və Kosmos Elmləri ixtisası üzrə ali təhsil alıb, Hollandiyanın Groningen Universitetində magistratura, Leiden Universitetinin Leiden Observatoriyasında isə doktorantura təhsilini başa vurub. Alim uzun illər NASA-nın Reaktiv Sürət Laboratoriyasında çalışıb, hazırda Orta Doğu Texniki Universitetində fəaliyyət göstərir.

*Fəxriyyə Səyyadova*
*Naxçıvan Dövlət Universitetinin əməkdaşı*

# Görkəmli ədəbiyyatşünas alim Hüseyn Həşimliyə həsr olunan yubiley tədbiri keçirilib

Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə görkəmli ədəbiyyatşünas alim, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, professor Hüseyn Həşimlinin 60 illik yubileyinə həsr olunmuş “Ədəbiyyata könül vermiş əbədi adam” adlı anım tədbiri keçirilib.

Tədbirdən öncə professor Hüseyn Həşimlinin xatirəsi ehtiramla yad olunub, məzarı ziyarət edilərək gül dəstələri qoyulub.





Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında Hüseyn Həşimlinin universitetdə 30 ildən artıq davam edən elmi-pedaqoji fəaliyyətindən danışaraq qeyd edib ki, mərhum alim NDU-nun elmi mühitinin formalaşmasında, gənc kadrların yetişdirilməsində və universitetin akademik nüfuzunun möhkəmləndirilməsində böyük xidmətlər göstərib. Rektor vurğulayıb ki, zəngin elmi irsi, yüksək müəllimlik keyfiyyətləri, prinsipial mövqeyi və elmə bağlılığı ilə seçilən akademik həm də ictimai-siyasi xadim kimi dövlətə və cəmiyyətə ləyaqətlə xidmət edib. Onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bir neçə çağırış üzrə deputatı kimi fəaliyyəti elm adamlarına göstərilən yüksək ehtiramın təcəssümü kimi qiymətləndirilib. Rektor əlavə edib ki, Hüseyn Həşimlinin “Azərbaycan Respublikasının Əməkdar elm xadimi” fəxri adına, “Ümummilli lider Heydər Əliyevin 90 illiyi ilə əlaqədar Xatirə qızıl medalı”na layiq görülməsi onun xidmətlərinin dövlət səviyyəsində tanınmasının bariz nümunəsidir.

AMEA Naxçıvan Bölməsinin sədri, AMEA-nın həqiqi üzvü, akademik İsmayıl Hacıyev çıxışında alimlə bağlı xatirələrini bölüşərək bildirib ki, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü olan Hüseyn Həşimli akademiyada uzun illər ərzində elmi işlər üzrə direktor müavini kimi fəaliyyət göstərib, gənc alimlərin yetişdirilməsinə əvəzsiz töhfələr verib.

Tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarov mərhum alimin elmi tədqiqat fəaliyyəti barəsində çıxış edərək qeyd edib ki, 30 kitabın, 350-dən artıq elmi məqalənin müəllifi kimi Azərbaycan ədəbiyyatşünaslığının inkişafında mühüm töhfələri olan alimin çoxsaylı əsərləri beynəlxalq elmi jurnallarda dərc olunaraq ölkəmizin elminə beynəlxalq müstəvidə də nüfuz qazandırıb.

Digər çıxışçılar - “Jurnalistika və xarici ölkələr ədəbiyyatı” kafedrasının dosenti İman Cəfərov, AMEA İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri Ramiz Qasımov, kafedranın müəllimi və professorun tələbəsi Gülay Tahirli Hüseyn Həşimlinin elmi məktəb yaratmaq bacarığını, tələbələrinə verdiyi dəyəri, həmkarlarına sədaqətini və digər yüksək insani keyfiyyətlərini xüsusi vurğulayıblar. Qeyd edilib ki, professorun yaratdığı elmi irs bu gün də tədqiqatçıların istinad etdiyi dəyərli mənbələrdən biridir.

Mərhum alimin ailə üzvləri tədbir iştirakçılarına göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Tədbirin sonunda “Hüseyn Həşimli ömrü xatirələrdə” adlı videoçarx nümayiş etdirilib, daha sonra xatirə şəkli çəkdirilib.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# “Açıq mikrofon” layihəsi çərçivəsində tələbələrlə görüş

“Açıq mikrofon” layihəsi çərçivəsində universitetin rektoru Elbrus İsayev növbəti dəfə tələbələrlə bir araya gəlib.

Ali təhsil ocağının Tələbə Həmkarlar İttifaqları Komitəsinin təşəbbüsü ilə baş tutan tədbirə universitet rəhbərliyi, eləcə də müxtəlif struktur və bölmə müdirləri qatılıb.

Açıq mikrofon zamanı Elbrus İsayev tələbələrlə birbaşa ünsiyyətin universitet idarəçiliyində mühüm rol oynadığını bildirib, bu cür görüşlərin problemlərin vaxtında müəyyənləşdirilməsi və operativ həlli baxımından əhəmiyyətini vurğulayıb.

Rektor qeyd edib ki, tələbəyönümlü strategiyası ilə seçilən NDU-da həyata keçirilən layihələrin mərkəzində məhz tələbələrin maraqları dayanır. Elbrus İsayev onların elmi və tədris prosesinin inkişafında aktiv tərəfdaş olduğunu qeyd edərək açıq ünsiyyət mühitinin davamlı şəkildə qorunacağını diqqətə çatdırıb.







Görüşdə bildirilib ki, tələbələrlə ünsiyyət təkcə bu formatla məhdudlaşmır. Auditoriyalarda keçirilən görüşlər, müxtəlif tədbirlər və universitetin rəsmi internet səhifəsində fəaliyyət göstərən “Rektora müraciət” bölməsi vasitəsilə tələbələrin təklif və müraciətləri mütəmadi olaraq qəbul edilir.

Açıq mikrofon Tədbirlərin təşkili və tələbələrlə iş sektorunun müdiri Hüseyn İmanovun moderatorluğu ilə baş tutub. Təxminən üç saat davam edən müzakirə zamanı Elbrus İsayev tələbələrin kampus, təhsil, tədris, elm, mobillik, beynəlxalq əlaqələr və s. məsələlərlə bağlı suallarını cavablandırıb. Ali təhsil ocağının rektoru ümumilikdə 40-dan çox suala ətraflı cavab verib, problemlərin həlli istiqamətində fikir və tövsiyələrini bölüşüb.

# *NDU-nun təhsil və mədəni mühiti Sevda Məmmədəliyevanı heyran etdi*

Yusif Məmmədəliyevin qızı Sevda Məmmədəliyeva Naxçıvan Dövlət Universiteti ilə tanışlığından aldığı təəssüratları bölüşərək bildirib:

“Açığı, mən şokdayam. Düşünürdüm ki, bəlkə belə şərait yalnız paytaxt universitetlərində ola bilər. Amma səmimi deyirəm, Bakıda belə universitetlərin olduğuna inanmıram. Burada gördüyüm laboratoriyalar, yaradılan imkanlar, formalaşdırılan mühit doğrudan da heyrətamizdir.



Xüsusilə orkestr məni çox təsirləndirdi. Belə orkestrin Avropada belə birinci yerlərdən birini tuta biləcəyini düşünürəm. Bu, sadəcə musiqi kollektivi deyil, böyük mədəniyyət göstəricisidir.

Siz fəxr etməlisiniz ki, burada yaşayırsınız. Siz bu mühiti qoruyub saxlamısınız. Mən bunu hər birinizin davranışında, baxışlarında hiss edirəm. Hər bir canda, hər birinizin gözündə bu ruhu görmək mümkündür.”

# Elmə, düşüncəyə, axtarışa verilən dəyər

***Naxçıvan Dövlət Universitetində böyük kimyaçı alim, akademik Yusif Məmmədəliyevin 120 illiyi qeyd olunub.***

Bu tədbir elmi ictimaiyyət üçün adi bir yubiley toplantısı deyil, zamanın özü ilə qurulan mənəvi körpünün yenidən yad edilməsi, yaddaşın təzələnməsi oldu. Çünki Naxçıvan Dövlət Universiteti sovet dövründə məhz bu böyük alimimizin adını daşıyırdı. Universitetlə Yusif Məmmədəliyev arasında bu tarixi bağ təkcə ad məsələsi deyil. Elmə, düşüncəyə, axtarışa verilən dəyərin simvolu idi.

Akademikin qızı, professor Sevda Məmmədəliyevanın tədbirdə söylədikləri bu mənəvi bağın necə canlı qaldığını daha da görünən etdi. Onun Naxçıvan Dövlət Universiteti haqqında sevinc və qürurla danışması sadəcə ailə adına hörmət deyildi, həm də Naxçıvanın bu gün elm mərkəzinə çevrilməsinin obyektiv təsdiqi idi. O, universitetin müasir inkişaf templərini, elmi mühitin sağlamlığını və gənclərin elmə marağını xüsusi vurğuladı. Bu fikirlər, əslində, uzun illərin zəhmətinin bu gün necə real nəticə verdiyini göstərirdi.

Son onilliklərdə Naxçıvanın ən böyük qazancı elə məhz bu universitetdir. Çünki NDU təkcə bir təhsil ocağı deyil, o, Naxçıvanın dünyaya açılan intellektual pəncərəsidir. Burada yetişən hər bir tələbə, aparılan hər bir elmi araşdırma, əldə olunan hər bir beynəlxalq əməkdaşlıq bu diyarın elm tarixində yeni səhifələr açır. Universitet öz infrastrukturunu, professor-müəllim heyətini, akademik mühitini ildən-ilə gücləndirərək regionun intellektual siması dəyişir.

NDU-nun auditoriyalarında gənclərin gözündəki işıq, laboratoriyalarında davam edən tədqiqatlar, beynəlxalq proqramlarda iştirak edən tələbələrin uğurları bütün bunlar Naxçıvanın elmi potensialının nə qədər sürətlə yüksəldiyini göstərir. Sevda Məmmədəliyevanın qürurla dediyi fikirlər də elə bu uğurların gerçək təcəssümüdür.



Əgər Naxçıvan torpağı son illər elm ocağı ilə tanınırsa, demək ki, gediləsi yol işıqlıdır.

*Tahir Tahiroviç*
*Kinorejissor*

# *TEC-dən mütaliə təşəbbüsü – şagird və tələbələr üçün bilik platforması*

Müasir dövrdə gənclərin intellektual inkişafına, dünyagörüşünün formalaşmasına və bilik resurslarına çıxış imkanlarının genişləndirilməsinə yönəlmiş layihələrin önəmi danılmazdır. Bu baxımdan, Naxçıvan Dövlət Universitetinin Tələbə Elmi Cəmiyyəti (TEC) tərəfindən həyata keçirilən təşəbbüslər həm universitet, həm də məktəb mühitində təhsilalanların bilik səviyyəsinin artırılmasına mühüm töhfə verir.

NDU-nun Tələbə Elmi Cəmiyyəti və “Loqos” Nəşriyyatının birgə təşkilatçılığı ilə keçirilən kitab sərgisi gənclər üçün mühüm maarifləndirici platformaya çevrilib. Sərgi əvvəlcə Xarici dillər fakültəsində başlayıb, ardınca Beynəlxalq münasibətlər və Tibb fakültələrində, eləcə də NDU-nun nəzdində Gimnaziyada və NDU-nun nəzdində Beynəlxalq Kembric Məktəbində davam etdirilib. Layihə müxtəlif yaş qruplarını əhatə etməklə bilik resurslarına bərabər çıxış imkanı yaradıb.

Üç gün davam edən sərgidə “Loqos” Nəşriyyatının elmi, tətbiqi və bədii sahələr üzrə nəşrləri, həmçinin müxtəlif dillərdə ədəbiyyat nümunələri nümayiş olunub. Layihə çərçivəsində düzgün kitab seçimi, mütaliə metodları və nəşriyyat sahəsində müasir tendensiyalar mövzusunda maarifləndirici təqdimatlar keçirilib. Xüsusilə NDU-nun nəzdində Gimnaziya və Beynəlxalq Kembric Məktəbinin şagirdlərinin fəallığı sərginin məhsuldarlığını daha da artırıb. Valideynlər tərəfindən verilən müsbət rəy sərginin mütaliə mədəniyyətinin inkişafına real təsir etdiyini göstərib.

Bu münasibətlə sərginin konsepsiyası, təşkilati prosesi və nəticələri barədə NDU-nun Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə ilə həmsöhbət olduq.

**– NDU-da və universitetin nəzdindəki məktəblərdə təşkil olunan kitab sərgisi geniş maraq doğurdu. Bu təşəbbüsün əsas konseptual ideyasını necə xarakterizə edərdiniz?**



– Sərginin əsas ideyası mütaliə vərdişlərinin və çoxdilliliyin həm ali, həm də orta təhsil mühitində sistemli şəkildə təşviq olunması idi. Biz tədbiri, sadəcə, kitab sərgisi kimi deyil, mədəni, intellektual və maarifçi bir platforma kimi qurmuşduq. Sərginin eyni vaxtda həm Naxçıvan Dövlət Universitetində, həm də universitetin nəzdindəki ingilis dili təmayüllü məktəblərdə təşkili tələbə, şagird, müəllim və valideynləri vahid mütaliə mühitində birləşdirməyi hədəfləyirdi. Layihə NDU-nun Tələbə Elmi Cəmiyyəti ilə “Loqos” Nəşriyyatı arasındakı əməkdaşlığın uğurlu nəticəsi kimi reallaşdı.

**– Sərgidə beş dildə kitabların təqdim olunması xüsusi maraq doğurdu. Bu yanaşmanın məqsədi nə idi?**

– Xarici dillərdə (ingilis, rus, alman, fransız, ispan) nəşrlərin geniş təqdim olunması strateji qərar idi. “Loqos” Nəşriyyatı bu sahədə böyük nəşr spektrinə malikdir və sərginin məzmununun formalaşmasında həlledici rol oynadı. Dilin yalnız dərsliklə deyil, bədii və dedektiv əsərlərlə mənimsənməsi daha effektlidir. Bu cür ədəbiyyat dilin ritmini, söz ehtiyatını və mətn qavrayışını daha tez inkişaf etdirir.

**– Sərginin iştirakçıları və auditoriyanın reaksiyası gözləntiləri doğrultdumu?**

– Bəli, hətta gözləntiləri üstələdi. Xüsusilə NDU-nun nəzdində Beynəlxalq Kembric Məktəbinin şagirdlərinin yüksək fəallığı sərginin dinamizmini artırdı. Valideynlərin tədbirə birbaşa qoşulması, övladları ilə birgə kitab seçimi aparması mühüm göstərici idi. Universitet tələbə və müəllimlərinin iştirakı isə sərginin intellektual mühitini daha da zənginləşdirdi. Tədbir sonrası əldə olunan müsbət rəylər məqsədimizə nail olduğumuzu göstərdi.

**– Sərginin davamı nəzərdə tutulurmu? Sərginin gələcək mərhələlərini planlaşdırarkən əsas hədəflər və prioritetlər nələrdir?**

- Bəli, bu sərgi yalnız başlanğıcdır və davamlılıq üzərində qurulub. Növbəti mərhələdə kitab sərgilərinin janr baxımından genişləndirilməsi, tanınmış müəlliflərlə görüşlər, debat sessiyaları və açıq mühazirələrin təşkili, həmçinin oxu klublarının formalaşdırılması planlaşdırılır. Çoxdillilik istiqamətində fəaliyyətlərin gücləndirilməsi də prioritetlərimiz arasındadır. Məqsəd sərgiləri universitetin mədəni həyatının daimi elementi kimi formalaşdırmaqdır.

*Aidə İbrahimova*
*Naxçıvan Dövlət Universitetinin əməkdaşı*

# Kitab təqdimatları

## “Suverenliyin Zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar və siyasi paralellər” kitabının təqdimatı olub






Naxçıvan Dövlət Universitetində Hüquq və İnsan Haqları İnstitutu PHŞ-nin İdarə Heyətinin sədrinin müavini, hüquq üzrə fəlsəfə doktoru Vəfaddin İbayevin “Suverenliyin Zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar və siyasi paralellər” adlı kitabının təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə universitetin rektoru Elbrus İsayev açaraq kitabın elmi-nəzəri əhəmiyyətini və suverenlik mövzusunun hüquqi aspektlərdə sistemləşdirilməsinin aktuallığını vurğulayıb. Rektor qeyd edib ki, əsər müasir dövlətçilik proseslərini analitik müstəvidə təqdim edir, hüquq elminə yeni elmi yanaşmalar qazandırır və xüsusilə tələbələrin siyasi-hüquqi düşüncəsinin formalaşmasına mühüm töhfə verir. O həmçinin kitabda yer alan faktoloji materialların zənginliyini və mövzuların ardıcıllıqla izahını yüksək qiymətləndirərək onun tədris prosesində geniş istifadə imkanlarına toxunub.

Təqdimat zamanı bildirilib ki, kitabın əsas mövzusunu 44 Günlük Vətən Müharibəsi, həmin dövrdə baş verən proseslər və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müharibə zamanı media vasitəsilə verdiyi bəyanatların təhlili təşkil edir. Nəşrdə Prezidentin çıxışlarının siyasi, hüquqi və informasiya aspektləri üzrə qiymətləndirilməsi, eləcə də müharibənin reallıqlarına dair faktoloji məlumatlar öz əksini tapır.





Hüquq və İnsan Haqları İnstitutu PHŞ-nin İdarə Heyətinin sədri Məhəmməd Quluzadə çıxışında kitabın suverenlik anlayışının hüquqi əsaslarının araşdırılmasına verdiyi elmi dəyəri xüsusi vurğulayıb. O qeyd edib ki, müəllif dövlətçilik konsepsiyasını tarixilik, hüquq normaları və siyasi qərarlar çərçivəsində təhlil edərək müasir hüquqi yanaşmalarla səsləşən dolğun elmi nəticələr ortaya qoyub. Məhəmməd Quluzadənin sözlərinə görə, bu kimi elmi nəşrlər hüquq sahəsində analitik mühitin genişlənməsinə mühüm töhfə verir və institutun tədqiqat istiqamətlərinə uyğunluğu ilə seçilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Universitetin “Ümumi hüquq” kafedrasının müəllimi Əziz Qasımov çıxış edərək kitabın siyasi tarix, hüquq və beynəlxalq münasibətlər kontekstində sistemli yanaşma təşkil etdiyini bildirib və əsərin elmi baxımdan yüksək dəyər daşıdığını qeyd edib.

Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə isə kitabın tələbələr üçün əlçatan elmi resurs olduğunu, gənclərin siyasi və hüquqi maariflənməsində mühüm rol oynadığını vurğulayaraq müəllifə təşəkkürünü ifadə edib.

Sonda kitabın müəllifi Vəfaddin İbayev tədqiqatın məqsədi, yanaşma prinsipləri və bölmələrin hazırlanma prosesi barədə məlumat verərək tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirib.

## “Teleskopumun ucundakı kainat” kitabının təqdimatı








Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında dünyaca məşhur türkiyəli astrofizik alim Umut Yıldızın “Teleskopumun ucundakı kainat” adlı kitabının təqdimat mərasimi keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli açaraq ali təhsil müəssisəsində elmi düşüncənin təşviqi, elmin cəmiyyətə daha yaxın formada təqdim olunmasının əhəmiyyətindən bəhs edib.

O bildirib ki, kosmos və astrofizika kimi fundamental sahələrə həsr olunan kitablar gənc nəslin dünyagörüşünün genişlənməsində, elmi marağının formalaşmasında xüsusi rol oynayır.

Kitabın redaktoru Çağla Adıyaman çıxış edərək “Teleskopumun ucundakı dünya” kitabı haqqında məlumat verib. O vurğulayıb ki, kitab uşaqlarda elmə, xüsusilə də kosmosa marağın artırılması, kainat haqqında ilkin elmi biliklərin sadə və anlaşılan dildə çatdırılması məqsədi daşıyır. Müəllif bildirib ki, kitab vasitəsilə uşaqlar həm Yer planetinə, həm də onu əhatə edən kosmik aləmə fərqli baxış bucağından yanaşma imkanı əldə edirlər. Kitab həmçinin uşaqların sorğulama bacarıqlarını inkişaf etdirir.

Təqdimat mərasimində müəllif - astrofizik alim Umut Yıldız geniş məruzə ilə çıxış edərək kitabın yazılma məqsədi, həmçinin teleskop müşahidələri əsasında əldə edilən elmi nəticələr və kainatın quruluşu barədə maraqlı məqamları iştirakçıların diqqətinə çatdırıb. O, ulduzların yaranması, qalaktikaların inkişafı və kosmik proseslərin mahiyyəti ilə bağlı elmi faktları izah edərək, elmin cəmiyyətə açıq və əlçatan olmasının vacibliyini xüsusi vurğulayıb.

Sual-cavab bölümündə iştirakçıların astrofizika, kosmos tədqiqatları və kitabın mövzuları ilə bağlı ünvanladıqları suallar müəllif tərəfindən ətraflı və elmi əsaslarla cavablandırılıb. Bu interaktiv müzakirə auditoriyada böyük maraq doğurub.

Elm adamlarının, professor-müəllim heyətinin, tələbələrin və şagirdlərin iştirakı ilə baş tutan tədbir universitetin elmi-mədəni həyatında mühüm hadisə kimi dəyərləndirilib.

Təqdimat mərasimi kitabın imzalanması ilə yekunlaşıb. İştirakçılar müəllifdən imzalı nüsxələr əldə edib, xatirə şəkilləri çəkdiriblər.

# “Naxçıvan şəhərinin memarlıq abidələri və tarixi mühitinin qorunması” adlı dərs vəsaitinin II cildinin təqdimatı

NDU Elmi Kitabxanasında “Memarlıq” kafedrasının müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dosent Gülnarə Qənbərovanın “Naxçıvan şəhərinin memarlıq abidələri və tarixi mühitinin qorunması” adlı dərs vəsaitinin II cildinin təqdimat mərasimi keçirilib. Tədbiri giriş sözü ilə açan NDU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə dərs vəsaitinin Naxçıvanın tarixi memarlıq abidələrinin tanıdılmasında və bölgənin təbliğindəki böyük əhəmiyyətindən bəhs edib. “Naxçıvan şəhərinin memarlıq abidələri və tarixi mühitinin qorunması” adlı dərs vəsaiti Prezident İlham Əliyevin Azərbaycanda 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı sərəncamına ən gözəl töhfə kimi qiymətləndirilib.







Daha sonra NDU-nun Memarlıq və mühəndislik fakültəsinin dekanı, riyaziyyat elmləri doktoru, professor Cavanşir Zeynalov, “Elektronika və informasiya texnologiyaları” kafedrasının müdiri, texnika üzrə fəlsəfə doktoru Hüseyn Qasımov, “Nəqliyyat mühəndisliyi və texniki fənlər” kafedrasının müdiri Gülşən Məmmədova, “Memarlıq” kafedrasının müəllimi Turan Abbaszadə və digər çıxışçılar “Memarlıq” ixtisası üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuş, Naxçıvan şəhərinin memarlıq abidələri və tarixi mühitinin qorunmasından bəhs edən dərs vəsaitini yüksək qiymətləndiriblər.

Sonda çıxış edən müəllif Gülnarə Qənbərova elmi mühit üçün yaradılan şəraitə görə universitet rəhbərliyinə minnətdarlığını bildirib.





# “Hüquq nədir?” adlı kitabın təqdimat mərasimi keçirilib








Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında “Ümumi hüquq” kafedrasının müəllimi Əli Qədimovun müəllifi olduğu “Hüquq nədir?” adlı kitabın təqdimat mərasimi keçirilib.

Tədbiri giriş sözü ilə açan NDU-nun Elm və innovasiya məsələləri üzrə prorektoru, dosent Elsevər Əsədov universitet əməkdaşlarının son dövrlərdə hüquq elminə aid dəyərli kitablar ərsəyə gətirməsini yüksək qiymətləndirib. Qeyd olunub ki, “Hüquq nədir?” kitabı da müəllifin uzun illər davam edən tədris təcrübəsinə əsaslanır.

Daha sonra Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekan əvəzi, fəlsəfə üzrə fəlsəfə doktoru Abbas Əhmədov, “Ümumi hüquq” kafedrasının müdir əvəzi, baş müəllim Hikmət Əliyev, Naxçıvan MR Ali Məclisinin deputatı, “Ümumi hüquq” kafedrasının müəllimi Əziz Qasımov, “Ümumi hüquq” kafedrasının baş müəllimi Yunis Xəlilov, Tələbə Elmi Cəmiyyətinin sədri, Hüquqşünaslıq ixtisası üzrə III kurs tələbəsi Yusif Mirzəzadə və digər çıxışçılar “Hüquq nədir?” kitabının hüquqa giriş, eyni zamanda motivasiya xarakteri daşımasından bəhs ediblər. Qeyd edək ki, kitab hüquqşünas olmaq istəyən abituriyentlər, hüquq tələbələri, eləcə də hüququn fəlsəfəsini anlamaq istəyən hər kəs üçün nəzərdə tutulub.

Sonda çıxış edən müəllif Əli Qədimov elmi mühitin inkişafı üçün yaradılan şəraitə görə universitet rəhbərliyinə təşəkkür edərək tədbir iştirakçılarına “Hüquq nədir?” kitabını hədiyyə edib.

# “Müasir dövrdə ümumtəhsil məktəblərində yeniyetmələrin vətəndaşlıq işinin vəziyyəti” adlı monoqrafiyanın təqdimatı

NDU Elmi Kitabxanasında “Pedaqogika və psixologiya” kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Nəzakət Yusifova və “Avropa dilləri” kafedrasının müəllimi Zərifə Əmirovanın müəllifi olduqları “Müasir dövrdə ümumtəhsil məktəblərində yeniyetmələrin vətəndaşlıq işinin vəziyyəti” adlı monoqrafiyanın təqdimat mərasimi keçirilib. Tədbiri giriş sözü ilə açan kitabxananın direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova monoqrafiyanı gənc nəsildə vətəndaşlıq mövqeyinin, vətəndaşlıq hisslərinin formalaşdırılması baxımından yüksək qiymətləndirib.

Daha sonra Pedaqoji fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev, NDU-nun “Pedaqogika və psixologiya” kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Taleh Xəlilov çıxış edərək monoqrafiyanın yeniyetmələrin vətəndaşlıq tərbiyəsi işində əhəmiyyətli bir mənbə olduğunu qeyd ediblər.

Sonda müəlliflər elmi mühitə yaradılan şəraitə görə universitet rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.







# Əcnəbi müəllimlərlə müsahibə

## Qaradəniz Texniki Universitetinin professoru Gülten Kara: "Naxçıvan mənə qərib gəlmədi, əksinə doğma bir şəhər təsiri bağışladı"



Beynəlxalq təcrübə mübadiləsi və tələbə-müəllim mobilliyi ali təhsilin keyfiyyətinin artırılmasında mühüm rol oynayır. Bu cür əməkdaşlıqlar elmi biliklərin paylaşılmasına, innovativ tədris metodlarının tətbiqinə və akademik əlaqələrin möhkəmlənməsinə geniş imkanlar yaradır. Məhz bu çərçivədə Naxçıvan Dövlət Universitetinin beynəlxalq əməkdaşlıq əlaqələri davamlı şəkildə genişlənir.

Bu əməkdaşlığın bariz nümunələrindən biri kimi Qaradəniz Texniki Universitetinin "Xəritə mühəndisliyi" ixtisası üzrə professoru Gülten Karanın Naxçıvan Dövlət Universitetinə səfərini qeyd etmək olar. Akademik təcrübə mübadiləsi məqsədilə Naxçıvana gələn professor şəhər, universitet və tədris prosesi ilə bağlı təəssüratlarını bölüşüb.

– Naxçıvan şəhərinin ümumi sosial-mədəni mühiti və Naxçıvan Dövlət Universitetində formalaşmış akademik mühit barədə ilkin təəssüratlarınızı necə xarakterizə edərdiniz?

Naxçıvana gəldiyim ilk andan özümü yad bir mühitdə hiss etmədim. Sanki tanış və doğma bir məkana daxil olmuşdum. Şəhərin zəngin tarixi, mədəni mühiti və ümumi abhavası məndə xoş təəssürat yaratdı. Xüsusilə şəhərin təmizliyi və sakitliyi diqqətimi cəlb etdi. Universitetdə isə müəllim heyətinin səmimi və eyni zamanda peşəkar münasibəti sağlam akademik mühitin formalaşdığını göstərir.

– Tədris prosesində hansı müasir metod və yanaşmalardan istifadə edirsiniz?

Tədris fəaliyyətində tələbəyönümlü və interaktiv yanaşmalara üstünlük veririk. Mövzular əvvəlcə vizual təqdimatlar – slaydlar və rəqəmsal materiallar vasitəsilə sistemli şəkildə izah olunur. Ardınca interaktiv sual-cavab üsulu tətbiq edilərək tələbələrin dərs prosesində fəal iştirakı təmin edilir. Mövzu tam mənimsənilmədikdə isə əlavə izahlar və praktik nümunələr təqdim etməklə biliklərin möhkəmləndirilməsinə çalışırıq. Bu metodlar tələbələrin analitik düşüncə və praktik bacarıqlarının inkişafına mühüm töhfə verir.

– Müasir ali təhsil meyarları baxımından Naxçıvan Dövlət Universitetini necə qiymətləndirirsiniz?

Naxçıvan Dövlət Universitetində müasir ali təhsil üçün zəruri olan infrastruktur və tədris şəraiti mövcuddur. Auditoriyaların texniki təchizatı, maddi-texniki baza və ümumi akademik mühit yüksək səviyyədə təşkil olunub. Bu baxımdan universitetin tədris imkanlarının beynəlxalq standartlara uyğun olduğunu söyləmək mümkündür.

***

## "NDU-da tələbələrin motivasiyası və elmi mədəniyyəti məni heyran etdi" – Emre Özgenç

Son illərdə Naxçıvan Dövlət Universiteti (NDU) regionda təhsil və elmi fəaliyyətin əsas mərkəzlərindən birinə çevrilib. Universitetin beynəlxalq əlaqələri və müxtəlif sahələrdə həyata keçirilən layihələr tələbələr və müəllimlər üçün geniş imkanlar yaradır. Bu yazıda **Radiofarmasiya sahəsində doktorant olan Emre Özgençin** universitet və şəhər haqqında şəxsi təəssüratları, tələbələrin hazırlığı və müasir təhsil sistemi ilə bağlı müşahidələri təqdim olunur.

Emre Özgenç, Ege Universitetinin Əczaçılıq fakültəsindən gəlib və xərçəng xəstəliyi üzərində bir neçə layihəni aktiv şəkildə davam etdirir. Hazırladığı dərman diaqnostika sistemləri həm hüceyrələrə, həm də təcrübə heyvanlarına tətbiq olunur və onların təsirləri diqqətlə araşdırılır.

**– Emre bəy, Naxçıvan Dövlət Universitetinə gəlməzdən əvvəl və gəldikdən sonra universitetin akademik və təhsil mühiti haqqında hansı müşahidələriniz oldu?**



NDU-ya gəlməzdən əvvəl keçən yay universitetin tələbələri laboratoriyamıza təcrübəyə gəlmişdi. Bu ilkin tanışlıq mənim universitet haqqında müsbət təsəvvürlərimi formalaşdırmışdı. Naxçıvana gəldikdən sonra müşahidələrim bu ilkin təsəvvürləri daha da gücləndirdi. Tələbələrin akademik hazırlığı, adaptasiya səviyyəsi və istiqanlı davranışları nəzərəçarpacaq dərəcədə yüksəkdir. Universitetin fiziki mühiti, səliqəli və intizamlı təşkili diqqət çəkir; Türkiyə universitetləri ilə müqayisədə burada daha yüksək nizam-intizam müşahidə olunur.

**– Tələbələrin dərslərdə iştirak motivasiyası və elmi diskussiyalara qoşulma səviyyəsi barədə nə deyə bilərsiniz?**

Tələbələr dərslərə həmişə hazırlıqlı gəlir və dərs prosesində aktiv iştirak edirlər. Onların motivasiyası, sual yönəldilməsi və elmi diskussiyalarda iştirakı Türkiyə universitetlərindəki tələbələrdən geri qalmır. Bu, NDU-nun tədris keyfiyyətinin və akademik mədəniyyətinin göstəricisidir. Mən tələbələrimdən məmnunam.

**– Müasir təhsil texnologiyalarının tətbiqi və laboratoriya infrastrukturunu necə qiymətləndirirsiniz?**

NDU-da projektor, kompüter və sensorlu lövhələrin istifadəsi təhsil prosesinə əlavə dəyər qatır. Laboratoriya şəraiti, partalar və fiziki mühit müasir standartlara cavab verir. Türkiyədən fərqli olaraq burada partalar təkli formadadır, bu xoşdur. Türkiyədə biz pandemiya dövründə sosial məsafə ilə bağlı problemlər yaşadıq. Burada partalar təkli olduğuna görə məsafə problemini həll etmək daha asan olar. Bu amillər təhsil prosesinin effektivliyini artıran mühüm komponentlərdir.

**– Nəzəri bilik və praktik təcrübənin balansını necə təmin edirsiniz?**

Əczaçılıq fakültəsinin tələbələri laboratoriya praktikasına müntəzəm daxil olurlar. Türkiyə təcrübəsində tələbələr yarımgün laboratoriyada, yarımgün nəzəri dərslərdə olurlar. Praktika tələbələrə dərman hazırlama və laboratoriya işində zəruri bacarıqları qazandırır. Bu, məzun olduqdan sonra onların sənaye və tədqiqat sahəsində məhsuldar fəaliyyət göstərməsini təmin edən vacib bir təhsil komponentidir.

**– Naxçıvan şəhərinin akademik və sosial mühit baxımından sizin üçün hansı xüsusiyyətləri ilə fərqlənir?**

Naxçıvan şəhəri sakit, təmiz və təhlükəsiz bir mühit təqdim edir. Piyadalara hörmət, nəqliyyatın nizamlı təşkili, kafe və restoranlarda münasib qiymətlər sosial rahatlığı təmin edir. Şəhərin tarixi və turistik yerlərinin çoxluğu tələbələrin və akademiklərin elmi və mədəni fəaliyyətlərinə əlavə imkan yaradır. Bu amillər şəhərin həm akademik, həm də sosial-mədəni potensialını artırır. Ümumiyyətlə, Naxçıvan haqqında düşüncələrim çox müsbətdir.

***



## Professor İbrahim Giritlioğlu: "Qastronomiya turizmi şəhərin brendidir"

Türkiyənin tanınmış turizm mütəxəssisi, Qaziantep Universitetinin professoru İbrahim Giritlioğlu azərbaycanlı tələbələrin fəallığını və öyrənməyə marağını yüksək qiymətləndirir. O, müsahibəsində turizmin iqtisadi və mədəni əhəmiyyətindən, qastronomiya turizminin şəhərlərin brendinə çevrilməsindən və Azərbaycanda dərs deməyin yaratdığı müsbət təəssüratlardan danışır.

**– İlk olaraq oxucularımız üçün özünüzü qısa şəkildə təqdim etməyinizi xahiş edirik.**

– Salam. Mən professor, elmlər doktoru İbrahim Giritlioğluyam. 6 mart 1983-cü ildə Qaziantep şəhərində anadan olmuşam. Bakalavr, magistr və doktorantura təhsilimi tamamlamışam və həyatımın böyük hissəsi turizm sahəsi ilə bağlıdır. Lisans təhsilimi Balıkesir Universitetində "Turizm" ixtisası üzrə almışam. Magistratura və doktorantura dövründə də elmi araşdırmalarım əsasən turizm mövzularına həsr olunub.

Turizm sahəsində həm nəzəri, həm də praktiki təcrübəm var. 2006-cı ildən etibarən akademik fəaliyyətlə məşğulam. Əvvəlcə Balıkesir Universitetində dərs demişəm, 2013-cü ildən isə Qaziantep Universitetində müəllim, dosent və hazırda professor kimi çalışıram. Eyni zamanda, İngiltərə, Polşa, Rusiya, Sloveniya, İsveç, Macarıstan və digər ölkələrdə turizmlə bağlı elmi layihə və tədqiqatlarda iştirak etmişəm. Bu təcrübələr mənə müxtəlif mədəniyyətləri yaxından tanımaq imkanı yaradıb.

**– Hazırda əsas tədqiqat istiqamətləriniz hansılardır?**

– Hal-hazırda əsas diqqətimi turizm iqtisadiyyatı üzərində cəmləşdirmişəm. Turizmin ölkə iqtisadiyyatına verdiyi töhfələr, regionların sosial-iqtisadi inkişafına təsiri və insanların həyat tərzində yaratdığı dəyişikliklər maraq dairəmdədir.

Xüsusilə Qaziantep nümunəsində qastronomiya turizmi və şəhər turizmi, eləcə də bu sahələrin iqtisadi nəticələri üzərində araşdırmalar aparıram. Qastronomiya turizmi təkcə yemək mədəniyyəti deyil – bu, şəhərin brendinin formalaşması, iqtisadi gəlirin artması və mədəni irsin qorunması deməkdir.

**– Azərbaycanda tədris fəaliyyəti ilə bağlı təəssüratlarınızı necə qiymətləndirirsiniz?**

– Səmimi deyim ki, Azərbaycanlı tələbələr məni çox sevindirdi. Onlar ağıllı, səliqəli, öyrənməyə həvəsli və sual verməkdən çəkinməyən gənclərdir. Maraq dairələri genişdir, dərsdən sonra belə mövzular ətrafında müzakirələr aparmağı sevirlər.

Müxtəlif ölkə və universitetlərdə dərs demişəm, lakin burada tələbələrin mehribanlığı və fəallığı xüsusi diqqətimi çəkdi. Düşünürəm ki, onlar mənim tədris metodlarıma da uğurla uyğunlaşa bildilər.

**Qeyd edək ki,** professor İbrahim Giritlioğlu ilə söhbətimiz bir daha göstərir ki, turizm yalnız iqtisadi sahə deyil, eyni zamanda mədəniyyətin qorunması və regionların inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Onun Azərbaycan tələbələri haqqında səsləndirdiyi müsbət fikirlər isə gələcəkdə ölkəmizdə turizm sahəsində peşəkar və savadlı kadrların yetişəcəyinə ümid yaradır.

**Səhifəni hazırladı: Jurnalistika ixtisasının tələbələri**

# HEYDƏR ƏLİYEV DÜHASI MİLLİ-MƏDƏNİ İRSİMİZİN KEŞİYİNDƏ

*"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir".*



Bu ifadələr Azərbaycan xalqının Ümummilli Lideri, dünya miqyaslı siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevə məxsusdur. Sözügedən kəlam onun hakimiyyəti dövründə milli-mənəvi dəyərlərimizin daim qorunması və təbliğinə xüsusi diqqət yetirdiyini aydın şəkildə əks etdirir.

Bu bir danılmaz faktdır ki, Azərbaycan dilinin dövlət dili kimi rəsmiləşdirilməsi və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər çox yaxşı bilirdi ki, hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil hər bir xalqın varlığının ən əsas, bəlkə də, yeganə təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir.

Ulu Öndər Azərbaycan dilinin zənginliyinə yüksək qiymət verərək deyirdi: *"Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, Ana dilimiz həddindən artıq əzizdir. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçib. Bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər böyük söz ehtiyatına malikdir".*

Böyük şair S.Vurğunun "Azərbaycan" şeirindəki doğmalığı, sözlərlə ruhun vəhdətinin həmahəngliyini mənəvi dəyər olaraq öz ruhuna hopduran Ulu Öndər elə bu səbəbdəndir ki, dilimizi yaşadan, onları bədii təsvirə gətirən xüsusi istedad sahibləri, şair və yazıçılarla görüşü, onları dinləməsi, sosial durumları ilə yaxından maraqlanması, əlbəttə ki, o ruh adamlarına böyük stimul verirdi.

Dahi siyasət xadimi yaxşı bilirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını mədəniyyət təşkil edir. Sağlam cəmiyyət quruculuğunun yeganə təminatı mədəniyyətə, incəsənətə diqqəti artırmaq, milli-mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaqdır. Ulu Öndər hər zaman rəhbərlik fəaliyyətinin bütün dövrlərində bu sahənin inkişafını diqqət mərkəzində saxlayıb. Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyev qayğısından bəhrələnməsin. Musiqimiz də, heykəltəraşlıq və rəssamlığımız da, xalça sənətimiz, teatrımız da, kino sənətimiz də bugünkü inkişafında Ulu Öndərin çox dəyərli ideyalarından bəhrələnib.

Həmçinin müəyyən qədər unudulan, tarixin gizlinində xalqdan ayrı salınan dəyərlərin yenidən Ulu Öndər tərəfindən gündəmə gətirilməsi milli ruhun oyanmasına zəmin yaratdı. Bakıda və respublikanın digər şəhərlərində xalqın ədəbiyyat və mədəniyyət xadimlərinə ucaldılan çoxsaylı heykəllər tarixi zənginliyimizi qoruyub gələcək nəslə ötürülməsində müstəsna xidmətdir.

Elə 1981-ci ildə Böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin cənazəsinin Sibirdən Naxçıvana – anadan olduğu yerə gətirilərək dəfn edilməsi qərarı və bu qərarın həyata keçirilməsi Azərbaycan ədəbi mühitinə, o cümlədən bütün Azərbaycan tarixində atılan ən mühüm addım oldu. 10 iyun 1995-ci il Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı müşavirədəki çıxışında bildirir: "Hüseyn Cavid bizim üçün doğrudan da əzizdir. O, tariximizdə böyük bir şəxsiyyətdir və böyük bir irs qoyub. Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi də o qədər yaşayacaq və xalqımız ondan istifadə edəcək".

*"Təsviri sənət xalqın tarixinin bədii salnaməsi olmalıdır. Bizim çox zəngin tariximiz tələb edir ki, o dərindən, yaradıcılıqla dərk edilsin, təsviri sənətdə öz əksini tapsın".* Bu sözlər Heydər Əliyevin 1982-ci il oktyabrın 13-də, Azərbaycan rəssamlarının IX qurultayından sonra Rəssamlar İttifaqı İdarə heyətinin üzvləri, tanınmış təsviri sənət ustaları ilə görüşündə çıxış edərkən səsləndirilib. Hər zaman mütəmadi şəkildə təsviri sənət nümayəndələrinə öz diqqət və qayğısını əsirgəməyən Ulu Öndər bu sahədə sağlam yaradıcı mühitin formalaşması üçün sənətkarların hər biri ilə xüsusilə maraqlanar və onlara öz tövsiyələrini əsirgəməzdi.

Heydər Əliyev musiqini dərindən sevən bir şəxs idi, bu səbəbdən də musiqiçilərlə dostluq edir, onlara və musiqi mədəniyyətinə daim böyük hörmət və ehtiram göstərirdi. O, xalqımızın dərin köklərə malik olan milli musiqisinin və eyni zamanda professional musiqi sənətinin gözəl bilicisi idi. Milli və professional musiqimizin dünyada tanınması, bəstəkarların, ifaçıların və musiqişünasların fəaliyyətinin yüksək qiymətləndirilməsi, yaradıcılıq evlərinin tikilməsi, maddi təminatlarının yaxşılaşdırılması, fəxri adlar, orden və medallarla təltif olunması və daha neçə-neçə bu cür əvəzsiz xidmətlər məhz Heydər Əliyevin adı ilə bağlıdır.

*"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir"* deyən Müasir Azərbaycan tarixinin memarı Ümummilli Lider, dünya miqyaslı siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevin əziz xatirəsi ürəklərdə yaşamaqla yanaşı sənət əsərlərində də əbədiləşərək tarixin yaddaşında qalacaq. Onun ömür yolu hələ neçə-neçə sənət əsərlərinə qanad verəcək, neçə-neçə incəsənət nümunələrində Heydər Əliyevin şəxsiyyəti canlanacaq.

***Fəxriyyə Lilpar İsayeva***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, telejurnalist***

# MÜSTƏQİL AZƏRBAYCANIN MÜASİR TARİXİNDƏ ALİ BAŞ KOMANDAN FENOMENİ

Azərbaycan dövləti minilliklər boyu mürəkkəb və keşməkeşli tarixi inkişaf yolu keçmiş, zəngin dövlətçilik ənənələrinə malik bir ölkə kimi formalaşmışdır. Xalqımızın tarixi keçmişinə nəzər saldıqda aydın şəkildə görünür ki, Azərbaycan təkcə coğrafi məkan deyil, eyni zamanda mədəniyyətin, ədəbiyyatın, incəsənətin və milli mənəvi dəyərlərin daşıyıcısı olan bir sivilizasiya mərkəzidir. Bu tarixi yol boyunca dövlətimizin taleyi hər zaman müdrik sərkərdələrin, uzaqgörən liderlərin və qüdrətli dövlət xadimlərinin fəaliyyəti ilə sıx bağlı olmuşdur. Onların hər biri Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, milli kimliyin qorunmasında və gələcək nəsillərə ötürülməsində mühüm rol oynamışdır.

Tarixin müxtəlif mərhələlərində xalqın yaddaşında silinməz iz buraxan liderlər yetişmişdir. Bu şəxsiyyətlərin fəaliyyəti nəticəsində Azərbaycan dövləti zamanın sınaqlarından çıxmış, müstəqillik ideyası xalqın milli şüurunda daim yaşadılmışdır. Bu gün müstəqil bir ölkənin vətəndaşı olaraq azad və suveren şəkildə yaşamağımız məhz həmin tarixi liderliyin və davamlı dövlətçilik xəttinin məntiqi nəticəsidir.

2003-cü ildə Azərbaycan xalqı növbəti dəfə tarixi bir qərar qəbul edərək, ölkənin gələcək inkişaf yolunu Ulu Öndər Heydər Əliyevin siyasi varisi İlham Əliyevə etibar etdi. Bu seçim xalqın Heydər Əliyev siyasi kursuna olan etimadının, eyni zamanda bu kursun layiqli davamçısına bəslədiyi yüksək inamın ifadəsi idi. Prezident İlham Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan dövlət idarəçiliyində yeni, daha çevik və müasir bir mərhələ başlandı. Onun yüksək idarəçilik bacarığı, rasional qərarları və strateji düşüncə tərzi qısa müddət ərzində ölkənin inkişaf dinamikasını xeyli sürətləndirdi.

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə ictimai-siyasi sabitlik möhkəmləndirildi, sosial-iqtisadi inkişaf ardıcıl xarakter aldı. Neft strategiyasının uğurla davam etdirilməsi, qeyri-neft sektorunun inkişafı, regionların sosial-iqtisadi tərəqqisi dövlət siyasətinin əsas prioritetlərinə çevrildi. Paralel olaraq, Azərbaycan Ordusunun maddi-texniki bazası gücləndirildi, hərbi hazırlıq səviyyəsi yüksəldildi və peşəkar ordu modeli formalaşdırıldı. Bütün bu proseslər gələcək tarixi hadisələrin möhkəm təməlini yaratdı.



2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təxribatları nəticəsində başlanan İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının milli iradəsinin, dövlətin siyasi qətiyyətinin və ordunun döyüş qabiliyyətinin real sınağı oldu. Otuz ilə yaxın işğal altında qalan torpaqların azad edilməsi uğrunda başlanan Vətən müharibəsi qısa zaman ərzində ümumxalq mübarizəsinə çevrildi. Müharibənin başlanacağı dəqiq tarix əvvəlcədən məlum olmasa da, Azərbaycan dövləti və ordusu bu tarixi ana tam hazır idi.

44 gün davam edən Vətən müharibəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın tarixi Zəfəri ilə nəticələndi. Azərbaycan əsgəri və zabiti bu döyüşlərdə yüksək peşəkarlıq, fədakarlıq və qəhrəmanlıq nümunəsi göstərdi. Qələbənin əsas səbəblərindən biri də hərbçilərimizin mənəvi üstünlüyü, Vətənə və dövlətə sarsılmaz bağlılığı oldu. Müharibə dövründə Ali Baş Komandanın xalqa müraciətləri, siyasi iradəsi və qətiyyətli mövqeyi xalqla ordu arasında sarsılmaz birliyin formalaşmasına xidmət etdi.

Müharibə müddətində Prezident İlham Əliyevin beynəlxalq informasiya müstəvisində apardığı fəal diplomatik mübarizə də xüsusi əhəmiyyət daşıyırdı. Onun dünya mediasına verdiyi müsahibələr, beynəlxalq hüquqa əsaslanan arqumentləri Azərbaycanın haqlı mövqeyini qlobal ictimaiyyətə çatdırdı. Bu diplomatik fəaliyyət hərbi uğurlarla vəhdət təşkil edərək Zəfərin daha da möhkəmlənməsinə şərait yaratdı.

2020-ci il noyabrın 8-də Qarabağın mədəni, tarixi və strateji mərkəzi olan Şuşa şəhərinin azad edilməsi Vətən müharibəsinin kulminasiya nöqtəsi oldu. Şuşanın azadlığı yalnız hərbi deyil, həm də mənəvi və ideoloji baxımdan misilsiz əhəmiyyət daşıyırdı. Bu Qələbə Azərbaycan xalqının milli ruhunu daha da yüksəltdi və müharibənin taleyini qəti şəkildə həll etdi.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan müasir və güclü dövlət quruculuğu mərhələsinə qədəm qoymuşdur. Ölkənin bütün regionlarında aparılan quruculuq və abadlıq işləri, eləcə də işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri bu siyasətin ardıcıl xarakter daşıdığını göstərir. Dövlət və xalq birliyi daha da möhkəmlənmiş, "Dəmir yumruq" konsepsiyası milli həmrəyliyin ideoloji əsasına çevrilmişdir.

"Qarabağ Azərbaycandır!" ifadəsi Prezident İlham Əliyevin siyasi iradəsinin, milli maraqlara əsaslanan qəti mövqeyinin ifadəsidir. Bu fikir artıq təkcə siyasi bəyanat deyil, tarixi reallıq kimi qəbul olunur. Azərbaycan bu gün beynəlxalq arenada güclü, müstəqil və qalib dövlət kimi tanınır.

Nəticə etibarilə, Müstəqil Azərbaycan Dövləti Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi altında yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu mərhələ güclü liderlik, milli birlik və strateji uzaqgörənliyin vəhdətini təcəssüm etdirir. Azərbaycan xalqı öz lideri ilə fəxr edir və bu vəhdət ölkənin gələcək uğurlarının əsas təminatçısıdır.

***Xəzər Hüseynov***
***"Azərbaycan tarixi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor***

# Yaşı yüzə çatan bir təəssürat




100 il bundan əvvəl Bakıda türk xalqlarının mədəni həyatında tarixi hadisəyə çevrilən bir tədbir – Birinci Türkoloji Qurultay keçirildi. 1926-cı il fevral ayının 26-da başlayıb 6 martda sona çatan bu qurultayda Azərbaycan nümayəndələrindən başqa, keçmiş Sovet İttifaqı və dünyanın bir neçə ölkəsindən – Türkiyə, İran, Rusiya, Avstriya, Macarıstan və Almaniyadan dəvət olunmuş Ə.Hüseynzadə, F.Köprülüzadə, V.Bartold, A.Miller, A.Samoyloviç, A.Krimski, T.Menzel, N.Poppe, V.Radebold kimi məşhur türkoloqlar da iştirak edirdi. İştirakçıların tərkibi akademik, professor və dosentlərlə yanaşı, ədəbiyyatçı, müəllim, tələbə, pedaqoq, jurnalist, qəzet redaktorları, siyasətçi, elm, təhsil və partiya işçilərindən ibarət idi. Qurultay nümayəndələri və dəvət olunmuş qonaqların azərbaycanlı, türk, qazan və krım tatarları, qazax, özbək, başqırd, abxaz, yakut, türkmən, qırğız, noqay, hakas, qumuq, inquş, xoyrat, çeçen, adıgey, qaraçaylı, avar, çərkəz, bolqar, kürd, osetin, eston, rus, ukrayn, alman, yevrey kimi millətlərin nümayəndələrindən olan tərkibi bu tədbirin əzəmətini göstərən ən mühüm faktorlardan biri idi.

Qurultayda müzakirəyə çıxarılan əlifba, orfoqrafiya, terminologiya, türk tayfalarının etnoqrafiyası, türk dillərinin mənşəyi, öyrənilmə vəziyyəti və tədrisi metodikası, türk xalqlarının ədəbi dilinin inkişafı, ədəbiyyatı və mədəniyyəti kimi problemlər o dövrün türkologiya elmi üçün olduqca aktual və əhəmiyyətli idi. Bugünədək həmin problemlərin bir çoxuna dair ciddi araşdırmalar aparılsa da, onlardan bəzisi, məsələn, türk xalqlarının ortaq əlifbası, dili, tarixi, ədəbiyyatı və onların tədrisi metodikası məsələləri yenə də öz aktuallığını saxlamaqdadır.

Birinci Türkoloji Qurultay Azərbaycanda keçirildiyi üçün bu möhtəşəm tədbirə təkcə paytaxt Bakıda yox, respublikanın digər regionlarında, o cümlədən Naxçıvanda da ciddi hazırlıq işləri aparılmışdır.

Birinci Türkoloji Qurultaya Naxçıvandan üç nəfər getmişdir: Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi tərəfindən göndərilən Naxçıvanın maarif komissarı Hüseyn Musayev nümayəndə sifətilə, Naxçıvan XDS-nin sədri Həmid Sultanov və prokuror İbrahim Şəbüstəri dəvət olunmuş qonaq kimi. Qurultayın stenoqramında İ.Şəbüstərinin Cənubi Azərbaycandan ezam edilməsi qeyd olunsa da, yaşadığı yerin Naxçıvan şəhəri olması göstərilmişdir. Maarif komissarı H.Musayev qurultay haqqında təəssüratlarını "Şərq qapısı" qəzetinin 18 mart 1926-cı il tarixli 9-cu nömrəsində "Birinci Türkoloji Qurultayı xatiratı" sərlövhəsilə dərc etdirmişdir. Xatirədə iki ilə yaxın bir müddətdə qurultaya hazırlıq işlərinin aparılması xatırladılır, gələn qonaqların milli tərkibi və onların içərisində Avropada məşhur olan türkoloqların da olması adbaad qeyd edilir, müzakirəyə çıxarılan problemlər üzərində dayanılır, məruzələrin Azərbaycan, türk, tatar, özbək, başqırd, rus və digər dillərdə oxunduğu diqqətə çatdırılır və çıxarılan qərarlar haqqında oxuculara dolğun məlumat verilir.

Yüz il bundan əvvəl "Şərq qapısı" qəzetində dərc olunmuş həmin xatirənin tam mətnini müasir oxuculara təqdim etməyin faydalı olacağına ümid edirik:

**Birinci türkoloji qurultayı xatiratı**

İstər Azərbaycan, istər şimal türkləri bu mühüm və əlzəm qurultayın çağırılmasını tam iki sənədir ki, gözləyirdilər. Bu tarixi vaqiə Azərbaycan Cümhuriyyətinin təşəbbüsü ilə olduğundan Bakıda çağırıldı. Buraya gəlmiş özbək, təsəkli tatar, milli qiyafəli qazax, buryat, qırğız, yakut, qafqaz, qaraçaylı, çeçen, çuvaş və başqa türk millətinə mənsub qövmləri gördükdə otuz milyon Şuralar İttifında və on iki milyon Anatoluda yaşayan türklərin dil və ədəbiyyat yaratması daha əzəmətli görünürdü. Bunlardan başqa, nümayəndələr arasında Şura akademik və professorlar ilə Avropanın məşhur müstəşriq və türkoloqlarından Mentsel, Çurşin, Meyeruş Poppe, Köprülzadə, Hüseynzadələr də iştirak ediyorlardı. Məruzələr rus, tatar dilində olduğu kimi, Azərbaycan, Anatolu, başqırt, Krım və özbək türk ləhcələrində də oxunurdu. Qurultay qarşısında bir çox elmi və əhəmiyyətli məsələlər durmuşdu. Türkoloji qurultayı haqqında məsələlər olduqca elmi və mühüm olduğundan hər kəsdə artıq maraq oyadırdı. Qurultayın əhəmiyyətini düşünən türk ziyalıları Azərbaycan qəzalarından və başqa cümhuriyyətlərdən yüzlərlə könüllü olaraq qonaq sifəti ilə gəlmişlərdi. Böyük türk mədəniyyəti sarayının zalı (sabiq İsmailiyyə) qurultayın ibtidasından intəhasına qədər olduqca izdihamlı idi. Burada Azərbaycan ədəbiyyatının 50 sənəliyi münasibəti ilə açıq ədəbiyyat sərgisi, Azərbaycan maarifinin 5 sənədə əldə etdiyi müvəffəqiyyət şəbəkəsi, türk-tatar qövmlərinin ədəbiyyatı nümunələri sərgisi diqqəti cəlb ediyordu. Yeni türk (latın) əlifbasının başqa türk-tatar və əski əlifbalardan üstün olmasını elmi surətdə sübut etməkdən ötürü xüsusi əlifba sərgisi qurulmuşdur. Burada əski, yunan, uyğur, orxon, kufi, ərəb, Mirzə Fətəli Axundov, Əfəndiyev, Məhəmmədağa Şaxtaxtinski və başqalarının əlifbalarını görərdiniz. Bir tərəfdən yeni əlifba ilə çap edilmiş ədəbiyyat, digər tərəfdən isə şəhəri və qurultay binasını təzyin edən müxtəlif şüarlar qurultayın ən əhəmiyyətli məsələsi olan (yeni əlifba) nümayəndə və qonaqların artıq diqqətini cəlb etdiyi, yeni əlifbanın əski ərəb və islah olunmuş əlifbalardan əlverişli və texniki cəhətdən üstün olduğunu göstərdiyi üçün bu məsələ səsə qoyulduqda 131 nümayəndədən 101 lehinə, 7 əleyhinə, 9 bitərəf (14 qaib olmaq üzərəsi) verildi. Azərbaycan Yakutustan, Qırğızıstan, İnquşustan, Qaraçay, Çərkəz, Çeçen, Qabardin, Bolqar, Osetiya, Başqırdıstan, Türkmənistan və Özbəkistan Cümhuriyyət və əyalətlərində yeni əlifbanın tətbiq edilməsini və qayət böyük və müsbət nəticə verdiyini həqiqət olaraq qurultay qeyd etdi.

*Fərman Xəlilov*
*filologiya elmləri doktoru*

# Çağdaş dövrümüzdə xarici dillərin tədrisi və Azərbaycan dilinin saflığının qorunması




Qloballaşan dünyada müxtəlif mədəniyyətlərin öyrənilməsi, xalqlar arasında əlaqələrin möhkəmlənməsi mühüm əhəmiyyət kəsb etməklə yanaşı, yeni dövrün tələblərinə cavab vermək üçün böyük məsuliyyət tələb edir. Tarixən multikultural dəyərlərə malik olan Azərbaycan xalqı həmişə millətlər arasında qarşılıqlı hörmət prinsipini üstün tutaraq, həm də öz milli dəyərlərinin yaşadılması istiqamətində zəruri tədbirlər görmüşdür. Bu mənada hazırda yaşadığımız süni intellekt dövründə xarici dillərin öyrənilməsi fonunda Azərbaycan dilinin saflığının və zənginliyinin, eləcə də milli dəyərlərin qorunması, mədəniyyətlərarası əlaqələrin genişlənməsi biz ziyalıların, xüsusilə də xarici dili tədris edən müəllimlərin üzərinə yeni vəzifələr müəyyən edib. Hesab edirik ki, bu gün xarici dili tədris edən müəllim və pedaqoqlarımız qloballaşma fonunda milli dəyərlərin yaşadılmasına xüsusi önəm verməlidir. Təsadüfi deyil ki, xarici dil mütəxəssisləri bəzən millətin "mədəni elçisi, səfiri" adlandırılır. Bu missiyanı üzərinə götürən hər bir ziyalı, yaxud tələbə ilk öncə Azərbaycan dilini mükəmməl bilməli, Azərbaycan mədəniyyətinə dərindən bələd olmalı, yüksək intellektual səviyyəli davranışı və zəngin mədəniyyəti ilə dilin tədrisinə, təbliğinə xüsusi fikir verməlidir. Hər hansı bir dil öyrənmək sadəcə ünsiyyəti genişləndirmək üçün vacib rol oynamır, eyni zamanda yeni mədəniyyətin, ədəbiyyatın öyrənilməsinə yol açır.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi ilkin dövrlərdən, yəni 70-ci illərdən başlayaraq azərbaycanlı gənclərin keçmiş Sovet İttifaqının müxtəlif ali məktəblərində təhsil almaq üçün göndərdiyi dövrlərdə belə, həmişə onlara milli mənsubiyyətlərini qorumağın vacibliyini xüsusi vurğulayırdı. Eyni zamanda, xarici dillərin öyrənilməsini, paralel olaraq Azərbaycan dilinin unudulmamasını tövsiyə edirdi. Özünün zəngin dil biliklərinə baxmayaraq, ən mötəbər kürsülərdə Azərbaycan dilinin zənginliyini təbliğ edirdi.

Ölkə Prezidenti cənab İlham Əliyevin AMEA-nın 80 illik yubileyində Azərbaycan dili ilə bağlı səsləndirdiyi fikirlər də bütün elmi ictimaiyyət kimi biz, xarici dilləri tədris edən müəllimlərin də üzərinə yeni vəzifələr qoyub. Biz bir daha əmin olduq ki, Azərbaycan dilinin qorunması, müasir texnologiyalara inteqrasiyası dövlət strategiyasının əsas prioritetlərindəndir. Azərbaycan dili inkişaf edir, lakin qlobal proseslər qarşıya yeni hədəflər qoyur. Bu mənada dillə bağlı sistemli yanaşmaya ehtiyac var. Dilimizin qarşısında müasir dinamikadan doğan yeni çağırışlar dayanır. Bu çağırışlar içərisində dilin saflığının qorunması, terminologiyanın elmi əsaslarla yenilənməsi və sairi qeyd etmək olar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm – həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında – buna heç bir gərək yoxdur. Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm..."

Ulu Öndər Heydər Əliyev ideyalarına bağlı olan Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsində çalışan ingilis, rus, fars, ərəb, alman dillərini tədris edən mütəxəssislərdə dilin öyrənilməsi zamanı qarşıya qoyulan məqsədlərə nail olmaq üçün müasir təlim-tədris metodlarından istifadə etməklə yanaşı, həm də milliliyi təbliğ etməyə, Azərbaycan dilinin qorunmasına üstünlük verirlər. Belə ki, fakültəmizdə hər həftə keçirilən kafedra iclaslarında, həmçinin həyata keçirdiyimiz daxili monitorinqlər zamanı çağdaş dövrün tələbləri çərçivəsində xarici dillərin tədrisini vacib hesab edirik.

Məlumdur ki, yeni dövr, süni intellekt əsrinin gənclərinə yeni dil bacarıqlarının öyrədilməsi asan deyildir. Ona görə də interaktiv təlim metodları birinci vacib şərt hesab edilə bilər. İnformasiya axınının genişləndiyi indiki dövrdə elə işləməliyik ki, cilalanmış informasiya qısa – lakonik şəkildə gənclərə ötürülsün. Bununla yanaşı, həm yazı, həm dinləmə, həm də akademik səviyyədə fikirlərin ifadə olunması məqsədilə zəngin söz ehtiyatına malik olmaq üçün leksikologiyanı da dərindən mənimsəmək vacib şərtdir.

Yuxarıda qeyd etdiyimiz kimi, dil öyrənmək həm də mədəniyyətlərarası əlaqələrin inkişafına böyük təsir göstərir. Həm yeni təlim və tədris metodlarını öyrənmək, həm də xalqlar arasında dostluq əlaqələrinə töhfə vermək, yeni əsrə, milli və yeni təfəkkürlü gənclər yetişdirmək məqsədilə dünyanın tanınmış universitetlərindən yüksək intellektli alimlərin doğma Naxçıvan Dövlət Universitetində tədrisə cəlb edilməsi böyük əhəmiyyət daşıyır. Özümün otuz illik pedaqoji təcrübəmdən də məlumdur ki, istənilən halda öyrənmək və öyrətmək uzunmüddətli prosesdir, gərgin zəhmət və böyük əmək tələb edir. Nəticəni isə qısa müddətdə görmək, təbii ki, tam mümkün deyildir. 2024-2025-ci tədris ilində Xarici dillər fakültəsində ərəb, ingilis və fransız dillərinin tədrisinə İordaniyanın Əl əl-Beyt Universitetindən və Türkiyənin İstanbul Universiteti Cərrahpaşadan 2 nəfər (Mahmoud Aldeeky və Alaskar Özperçin) tanınmış professor cəlb edilmişdir. Bu müddət ərzində həmin xarici professorlarla qarşılıqlı fikir mübadiləsi aparılmış, yerli və beynəlxalq təcrübənin birgə öyrənilməsi və tətbiqi müzakirə edilmişdir. Bütün bunlarla yanaşı, birgə layihələrin hazırlanması, bu sahədə yeniliklərə imza atmaq məqsədilə ekspert qrupu yaradılmış və təcrübə mübadiləsinin təmin edilməsi üçün konkret işlər həyata keçirilmişdir.

Bu gün xarici professorlardan dərs alan tələbələrimiz gələcəkdə Azərbaycan xalqının böyük mütəxəssisi – mənəvi sərvəti olmaqla yanaşı, həm də yeni nəsil üçün müasir metodları təbliğ edən bir vasitəçidirlər. Bu mənada görülən işlər nəsillər arası körpü rolunu oynamaqdadır.

Biz inanırıq ki, gələcəkdə də xarici dillərin öyrənilməsi zamanı Azərbaycan dilinin də saflığı daha da qorunacaq. Milli təfəkkürlü dil mütəxəssislərinin yetişdirilməsi diqqətdə saxlanılacaq. Bu yolda bütün həmkarlarıma uğurlar arzulayıram.

*İlhamə Məmmədova*
*Xarici dillər fakültəsinin dekanı,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Naxçıvan MR-in Əməkdar müəllimi*



# Planetlərin danışdığı gecə

Hər kəs sadəcə öz elm yolunu, bəziləri isə elmsizlik yolunu seçib bir kənara çəkiləndə elm sahələri arasında uçurum dərinləşdi, bir tərəfdən alim olan adamlar digər tərəfdən cahil qaldılar. Riyaziyyatla məşğul olanlar tarixdən, dillə məşğul olanlar tibdən, bunların heç biri isə sənətdən uzaq düşməli deyildi. Bizdən min il əvvəl yaşayan Rumilər, Xəyyamlar, Nizamilər, Füzulilər dövrlərinin, demək olar, bütün elmlərindən halı idi, biz isə əlimizdə diplumunu tutmadığımız hər şeydən "bu mənim sahəm deyil", - deyib uzaqlaşırıq.

***Hardan yaranmağa başladığı bəlli olmayan bu buz dağı nə vaxtsa əriməli idi…***

Bir neçə gün öncə Naxçıvandakı Heydər Əliyev Sarayında türkiyəli astrofizik alim Umut Yıldız NDU Simfonik Orkestrinin "Kosmosun səsi" adlı konsert proqramının fonunda səhnəyə çıxdı. Umut Yıldız 10 il NASA-da işləyib, hal-hazırda Orta Doğu Texniki Universitetində akademik fəaliyyət göstərir, onlarla elmi məqalənin müəllifidir. "Teleskopumun ucundakı kainat" kitabından da bəlli olur ki, bu insan az qala bütün ömrünü teleskopun başında keçirib.

"Kosmosun səsi" adlı konsert proqramında NDU Simfonik Orkestrinin ifasında məşhur ingilis bəstəkarı Qustav Holstun "Planetlər" silsiləsini dinlədik. Bu əsərdə yeddi planet musiqi vasitəsilə xarakterizə olunur. Umut Yıldız bir planet haqqında elmi biliklərini bölüşürdü, ardınca Qustav Holstun "Planetlər" silsiləsindən uyğun bəstələr NDU Simfonik Orkestri tərəfindən ifa olunurdu. Elm və sənət eyni səhnədə birləşmişdi, beynimizlə ürəyimiz eyni anda cana gəlmişdi, ruhumuz sanki varlığını bir daha təsdiq edirdi.

İlk olaraq Marsı ruhumuzda hiss etdik. Mars savaş və gərginliyi, insanın aqressiv tərəfini təmsil edirdi. Həmin gün səhnədə sadəcə astrofizika və musiqi deyil, həm də ədəbiyyat var idi. Beləliklə, qədim yunan mifologiyasına qayıtdıq. Mars adını savaş allahı Aresin adından alıb. Mars Yer səmasında qırmızı rəngdə görünür, insanlar bunu qanla, odla əlaqələndiriblər. Ədəbiyyat elmlə, elm sənətlə birləşir, Umut Yıldız Marsın amansızlığından danışır, ardınca Holstun məşhur silsiləsindən "Mars" səslənir. Mars bir anlıq Yerə enir, amansız, mexaniki… Sanki dayanmadan irəliləyən müharibənin içindəyik. Holst bəstələri ilə insana hüzur verməkdən çox, insana planetləri hiss etdirmək istəmişdi. Marsın qəzəbini də, Veneranın sakitliyini, hüzurunu da notlara köçürən eyni insan idi…

Marsdan sonra Umut Yıldız Veneradan danışır, adını sevgi, gözəllik tanrısı Afroditadan alan Venera… Dünyanın ən isti planeti o an səhnədə həm də dünyanın ən mehriban planeti kimi görünürdü. Marsın qəzəbindən – müharibədən sonra səhnəyə Veneranın – sülhün çıxması heç də təsadüfi deyildi. Venera səhnəyə başəriyyətin ümidi kimi çıxmışdı. Səhnədə Marsın qan rəngli işıqları artıq daha yumşaq rənglərlə əvəzlənmişdi.

Ardınca Umut Yıldız Merkuridən danışdı. Dünyanın ən sürətli planeti ən yaralı yerimizi – dünyanın anbaan artan sürətini bizə xatırlatdı. Holstun bəstəsi yenə Umut Yıldızın danışdıqlarını tamamladı… Düşüncənin, dünyanın ruhumuzda hansı sürətlə axıb keçdiyini iliklərimizə qədər hiss etdik.

Umut Yıldız da, Qustav Holst da bizi qətiyyən ümidsizliyə qapılmağa qoymurdu. Merkurinin sürətini Yupiterin nəşəsi, həyat eşqi əvəzlədi. Saturna çatanda Holstun ağır-ağır irəliləyən ritmində taleyin ağırlığını – ömrün qarşıda bizi gözləyən qocalığının acısını hiss etdik. Gənclik addımları sanki geridə qalmışdı, 18-20 yaşlı gənclər belə əsalarının taq-taq səsini duyurdu…

Bəs qocalıq sondurmu? Hər şey elə burda da bitir? "Ah, Sevgili Uran, yaxşı ki, varsan", - dedik içimizdə. Sənin gözlənilməzliyinə, sehrinə, çevrilişinə nə çox ehtiyacımız varmış!

Və son olaraq Neptun! Çox zəif, uzaqlardan gələn səslər – bu, sirrin ritmi idi. Musiqi sanki yox olur, insan şüurunun hüdudlarından kənara çıxırdı. Neptun həyatın əsl üzüdür – bilinməzliklər qarşısında yenə sadəcə insan olduğumuzu xatırladıq.

O gecə Kosmosun səsini ruhumuzda hiss etdik. Umut Yıldız bizə planetlərin heç ağlımıza da gətirə bilməyəcəyimiz tərəflərindən danışdı. Axı biz sadəcə Yerin insanı deyilik, böyük bir kainatın parçasıyıq. Bunu anlamaq üçün niyə belə gecikmişdik?

O gün o zalda sadəcə fiziklər, kimyaçılar, astronomlar yox idi, hər sahədən, hər yaşdan adamlar var idi. Kainat bizə heç olmadığı qədər yaxınlaşmışdı.

Elm və Sənəti ilk dəfədir, eyni səhnədə gördük. Onları ayırmaq yox, elə həmişə qovuşdurmaq lazımdır. Elmsiz sənət də, sənətsiz elm də əksik qalır.

Umut Yıldızın elminə də, Qustav Holstun sənətinə də heyran olduq.

Qustav Holstun sənətini canlandıran, ifa edən canlı sənətkarlar – NDU Simfonik Orkestri qarşımızda dayanmışdı. Sözün əsl mənasında, möhtəşəm idilər. Bir neçə ay əvvəl İlber Ortaylı da Naxçıvan səfərində bu Simfonik Orkestrin necə böyük dəyər olduğunu vurğulamış, "Bizde böyle şeyler yok", – deyib bir köks də ötürmüşdü.

Naxçıvan Dövlət Universiteti ölkədə elm və sənəti özündə birləşdirən nadir universitetlərdəndir, musiqişünaslıqdan rəssamlığa, rəssamlıqdan müəllimliyə, müəllimlikdən mühəndisliyə, həkimliyə, memarlığa qədər müxtəlif ixtisasları özündə birləşdirir. NDU klassik sənət sahələri ilə müasir elmi-texnoloji təfəkkürün vəhdətində sadəcə elm ocağı deyil, həm də bir sənət məbədidir.

Konsert bitdi, Umut Yıldız da, Qustav Holst da, NDU Simfonik Orkestri də bizimlə sağollaşdı. Amma o ritmlər, o səslər hələ də ruhumuzda danışırdı.

Çıxışda uzaqdan rektorumuzu gördüm, o eşitmədi, amma içimdən ona böyük bir təşəkkür etdim. Uzun illər Elm və Sənətə dəstək olan insan bu gün onların eyni səhnədə qovuşmasına vəsilə olmuşdu.

Hötenin "Faust" əsərində belə bir ifadə var: "Sənət uzun, həyat qısa". Qısa həyatımıza uzun sənətdən parçalar sığdıran insanlar var olsunlar!

*Gülay Tahirli*
*"Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müəllimi*

# SON UÇUŞ
## (hekayə)

Mən stüardessayam.

Bilirsiniz, peşəmi necə də sevirəm? Əslində, təyyarəyə minərkən həmişə qəza anında sərnişinlərin nə etməli olduğunu onlara izah edəndə, içimdə bir boşluq hissi keçirdirdim. Düşünürdüm ki, əgər bir gün belə bir şey baş versə və mən sağ qalsam, özümü bağışlamaram.

25 dekabr 2024-cü ildə biz, Bakı vaxtı ilə saat 07:56-da havaya qalxmalı idik. Təyyarənin yola çıxmağına 15 dəqiqə qalırdı. Hava qaranlıq və soyuq idi. İnsanlar bir-bir yerlərini tuturdular. Hələ aralarında təyyarəyə ilk dəfə minənlər də var idi. Hər kəs yerlərini tutduqdan sonra vaxt tamam oldu. 07:56-da havaya qalxdıq. Yolumuz Qroznıya idi. Təyyarəmiz bu gün çox sakit və soyuqqanlı şəkildə uçurdu. İçimi bir narahatlıq hissi bürüdü. Axı mən təyyarənin dilini bilirdim. İllərlə bu işin içində idim.

Hər uçuşumuzda təyyarə ilə danışırdım. Ona deyirdim ki: "Dostum, xahiş edirəm səndən, heç bir nasazlığın olmasın. Bizi salamat gedəcəyimiz yerə qədər daşı."

Sanki təyyarə mənə cavab verirdi. Həmişə bu sözləri ona deyəndə, turbulansa düşür, yavaşca titrəyərək mənə cavab verirdi.

Amma bu dəfə isə dediklərimə cavab vermədi. Bu soyuqluq məni çox qorxudurdu.

Yavaşca ona pıçıldadım: "Dostum, cavab ver mənə… Bu qədər insanların arzularını, ümidlərini, gələcəyini puç etmə."

Dostumun motorlarından gələn xırıltıdan hiss etdim ki, o artıq yaxşı deyil və özünü yaxşı göstərməyə çalışır. Hələlik bunu uğurla gizlətməyə çalışırdı.

Qroznının dumanlı hava limanı uzaqdan görünürdü. Hava şəraiti çox pis idi. Hava limanı bağlanmışdı. Məcburən əvvəlcə Mahaçqalaya, sonra isə Aktauya yönəldik.

İnsanların üzündə təlaşı oxuyurdum. Bilirsiniz, bu artıq suda boğulmaq kimi bir hiss idi — necə ki insan suda boğulanda ümid edir ki, indi kimsə gəlib onu çıxaracaq… İnsanlar da ümid dolu baxışlarla mənə baxırdılar ki, onlara hər şeyin yaxşı olduğunu deyim.

Mən isə kapitanımız İqor Kşnyakinə və köməkçisi Aleksandr Kalyaninova güvənirdim. Onlar əllərindən gələn hər şeyi edirdilər ki, bircə sağ qalaq. Təyyarədə baş verən nasazlıqdan dolayı titrəmə baş verdi. Bu, məni sağ qalmağımız üçün qurduğum xəyallardan ayırdı.

Artıq dostum özünü pis hiss edirdi. Tez-tez və çılğın şəkildə turbulansa düşürdü. İçimdə ona nə qədər bağırsam da, əsəbləşsəm də, xeyri yox idi. Bəzən düşünürdüm ki, bəlkə də bağırdığım üçün belə edir. Sonra sakit tərzdə danışırdım. Bu qədər insanın sağ qalması üçün dostumu sakitləşdirməkdə əlimdən sadəcə bu kimi şeylər gəlirdi…

Saat 09:35-də artıq kritik vəziyyət idi. Qəza siqnalı verildi. İlahi, mən necə də həyəcanlanmışdım… Amma əgər bunu sərnişinlərə bildirsəydim, vəziyyət daha da gərginləşəcəkdi. Ona görə də özümü şux tutmuşdum.

09:49-da pilotlarımız Aktauya təcili eniş tələb etdilər. Təyyarəni birbaşa rejimdə idarə etməyə başladılar. Bu dəqiqələr, bu saatlar ərzində səmada neçə dəfə dövrə vurduq…

Hər zaman mənə sakit tərzdə cavab verən dostum sanki bu gün məni eşitmirdi. Elə bil ki, son dəqiqələrini yaşayırdı. Göyləri süzmək istəyirdi. Hiss edirdim ki, artıq son saatlarıdır. Deyəsən, bu gün onunla yollarımızı ayıracağıq. Bunu hiss etdikcə elə təəssüflənirdim ki, axı o mənim neçə illik dostum idi. Motorları necə də xırıldayırdı. Sanki mənə demək istəyirdi: "Mən heç də yaxşı deyiləm… Məni qanadlarımdan vurublar, sanki…"

Bu dəqiqələr ərzində onun necə əziyyət çəkdiyini bir mən bilirdim. Yavaşca, heç kimin eşitməyəcəyi, tez-tez vuran ürəyimdən səslənirdim: "Bir az da dayan… Hər şey yaxşı olacaq. Biz yerə sağ çatacağıq. Sənin qanadlarını təmir edəcəyik, motorlarındakı xırıltını aradan qaldıracağıq… Bircə döz."

Nə qədər eləsək də, yerə enmirdi. Sərnişinlər necə də qorxmuşdular…



11:25-də mən sərnişinlərə səsləndim:

"Hər kəs kəmərlərini bağlasın. Hər şey…" — sözlər boğazımda düyünlənirdi. Çünki onlar ümid dolu gözlərini məndən ayırmırdılar. Hələ o təyyarəyə ilk dəfə minən sərnişinlər… Pis olmamağım əlimdə deyildi. Bunu onlara bildirməməli idim axı… Ona görə anında özümü yığışdırdım və dedim:

"Hər şey yaxşı olacaq!"

11:27 idi. Dostum son dəfə var gücü ilə dövrə vurdu. Bəlkə, bir daha qalxa bilməyəcəkdi bu göylərə... Bəlkə də, bu son dəfə o sərinliyi, istiliyi, dumanı, buludları, ildırımı, yağışı dadmaq istədi.

11:28 olmağına cəmi 10 saniyə qalırdı. Hər saniyədə dostuma bağırırdım. Bu saniyələrdə onun bircə "Mən bacarmadım…" sözünü eşitdim.

Artıq 11:28 idi. Ruhum getdikcə bədənimdən çıxırdı. Amma mən hələ də peşman deyildim. Heç olmadım da…

Artıq ruhum bədənimdən ayrılmışdı. Mənimlə birgə neçə adamın ruhunun göyə qalxdığını gördüm. İş yoldaşlarım da onların arasında idi. Bütün ruhlar əl-ələ tutub göylərə qalxırdıq.

Qalxdıqca ikiyə bölünmüş dostumu gördüm. O necə də pərt olmuşdu…

Mənim adım Hökumə Əliyevadır. İndi mən çox yaxşıyam. Dostlarım da hamısı yaxşıdır. Biz sizi göylərin ən yüksək mərtəbələrindən izləyirik.

Mən çiçəkləri çox sevirdim axı…

İndi olduğum yerdə elə gözəl çiçəklər var ki…

*Yusif Əhməd*
*Jurnalistika ixtisası üzrə I kurs tələbəsi*

# SAVAŞIN SƏSSİZ QƏHRƏMANLARI
## (Təbriz Zeynalov – Kəşfiyyatçının görünməyən taleyi)

Müharibə… Savaş… Bu söz sükutun içində boy atır, amma gurultusu illərlə insanın qulağından çəkilmir. Müharibənin görünən tərəfi var – səngərlər, top səsləri, alovlanan torpaqlar, çalxalanan səma… Bir də görünməyən tərəfi var – tənha addımlar, səssiz gecələr, heç kimin eşitmədiyi nəfəs səsləri, ölümün bir addımlığında alınan qərarlar. Kəşfiyyatçılar bu görünməyən aləmin sakinləridir. Onlar döyüş meydanının sükutunda danışır, qaranlığın içində yol tapır, görünmədən görünəni edirlər. Azərbaycanın Vətən müharibəsində zəfərə gedən yolu da məhz belə səssiz qəhrəmanların çiyinlərində yüksəldi. Müharibə yalnız topların, mərmilərin səsi deyil; bəzən bir kəşfiyyatçının sakit addımlarında, qaranlıqda itirilən nəfəsində, ölümün gözünə dik baxan bir ömrün sükutunda gizlənir. Biz çox zaman səngərlərdə görünən qəhrəmanları tanıyırıq, amma görünməyənlər var – onların hekayələri səssizdir, addımları gizlidir, igidlikləri isə sözlə ifadə olunmayacaq qədər ucalardadır.

Bu gün sizə 44 günlük Vətən müharibəsinin səssiz qəhrəmanlarından birinin həyat yolundan söhbət açacağıq. Bu qəhrəman həyatını hərbi forma ilə yoğurmuş, uşaqlıqdan igidlik məktəbinə yazılmış, bir ömür boyu şərəfli bir yola imza atmış Təbriz Zeynalovdur. O, kəşfiyyatçıdır. Onun həyatı sadəcə bioqrafiya deyil; bu həyat vətən üçün yanan bir ürəyin, savaşın içində bərkiyən ruhun, qorxunun üstünə yeriyən mərdliyin hekayəsidir. O, kəşfiyyatçıdır. Lakin Təbriz kəşfiyyatçı deyəndə əksəriyyətin xatırladığı film qəhrəmanı deyil – canı ilə, qanı ilə, iradəsi ilə döyüş meydanının görünməyən yükünü daşımış əsl hərbçidir.

Təbriz Eyvaz oğlu Zeynalov 1 iyul 1990-cı ildə Naxçıvanın Şərur rayonunun Qarabağlar kəndində anadan olub. Qarabağlar – qədim tarixlə yeni talelərin qovuşduğu kənd… Qarabağlar – qədim abidələrin kölgəsində böyüyən uşaqların vətən sevgisini daha erkən yaşadığı bir məkandır. O da həmin uşaqlardan idi: sakit, ağır, düşüncəli… Lakin həmin sükutun altında bir əzm, bir iradə yatırdı. Bu kənddə doğulan hər bir uşaq bir az dözümlü, bir az inadkar, bir az da vətənpərvər böyüyür. Təbriz də belə böyüyənlərdən idi. Ailəsi onun içindəki intizamı, özünə qarşı tələbkarlığı, sakit, amma qətiyyətli xarakterini ilk gündən hiss edirdi. O, sözlə yox, davranışı ilə seçilən uşaqlardan idi. 1996-2005-ci illərdə Qarabağlar kəndinin 2 saylı məktəbində təhsil alarkən müəllimlərinin diqqətini çəkən də məhz bu ciddiyyət idi. Hər kəs bilirdi ki, Təbriz gələcəkdə sıradan bir peşə sahibi olmayacaq. Onun taleyində xüsusi bir yol var. O yolun ilk ciddi addımı 2005-ci ildə atıldı – Təbriz Heydər Əliyev adına Hərbi Liseyə qəbul oldu. O vaxtdan bəri onun həyatı sırf bir sözün ətrafında formalaşdı: "Vətən". Bu yolu o, təkbaşına seçməmişdi. Anası Sura xanımın da arzusu idi. İki övladını tək başına böyüdən bu zəhmətkeş, uzaqgörən, ağıllı qadın bilirdi ki, bu bir uşaq arzusu deyildi; düşünülmüş, məqsədli, vətənə bağlanmış bir seçimdi. Sura ana bilirdi ki, onun tərbiyə etdiyi Təbriz yalnız bu peşədə özünü tapa bilər. Təbriz Zeynalov Hərbi Liseydə təhsil aldığı illəri "insan xarakterinin bərkidiyi illər" adlandırır. Bu məktəb zəhməti, əzmi, iradəni sevir. Liseydə təhsil almaqla yanaşı sanki kişilik sınağından da keçirsən. Buradan yalnız mübariz insanlar keçə bilir. Təbriz həmin illərdə özünü göstərdi – gecənin yarısında təlimə qalxmaq, çətin fiziki sınaqlardan keçmək, komanda ruhu, nizam-intizam… Bütün bunlar onu daha da möhkəmləndirdi. Lisey onun xarakterini daş kimi sərtləşdirdi, ruhunu isə polad kimi bərkidib döyüş yollarına hazırladı.

Liseydən sonra Təbrizin məqsədi "Azərbaycanın hərb elitası" hesab etdiyi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmaq idi. 2008-ci ildə onun bu arzusu gerçəkləşdi. 2012-ci ildə Akademiyanı Qoşun kəşfiyyatı ixtisası üzrə bitirən Təbriz Zeynalov karyerasına Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində başladı. Bir il davam edən zabit hazırlığı onun həm biliyini, həm də döyüş təcrübəsini daha da möhkəmləndirdi.

2012-ci ildə Qoşun kəşfiyyatı ixtisası üzrə leytenant rütbəsi ilə məzun olan Zeynalov ilk hərbi fəaliyyətinə Ağcabədi rayonundakı hərbi hissədə başladı. 2013-cü ilin sonlarında Ağcabədi şəhərində fəaliyyətini başa vuran gənc hərbçi Beyləqan şəhərində yerləşən hərbi hissəyə göndərilir. Bu onun düşmənlə ön xətdə xidmət etdiyi ilk illər olur. Burada xidmət etdiyi dövrdə Bakıda yerləşən XTQ-dən həmin hərbi hissəyə bir göstəriş gəlir: "Kim XTQ-də könüllü xidmət etmək istəyir?" Hər zaman riskli, çətin tapşırıqları sevən Təbriz könüllü olaraq XTQ-də xidmət etməyə razılıq verir. Çünki bu onun uşaqlıq arzusu idi. Ona bu yolun necə əziyyətli, məşəqqətli, çətin olduğunu xatırlatsalar da, onu fikrindən döndərmək olmur. Beləliklə, gənc hərbçinin həyatında yeni bir mərhələ, yeni bir cığır açılır və bu onun həyatının dönüş nöqtəsi olur. Türkiyə və Bakıda təlimdə olduğu müddətdə bir kəşfiyyatçının sahib ola biləcəyi bütün xüsusiyyətlərə yiyələnən Təbriz artıq həm fiziki, həm düşüncə, həmçinin mənəvi cəhətdən tam bir hərbçi kimi özünü formalaşdırmağa müvəffəq oldu. Çünki kəşfiyyatçı – döyüşün ən öndə olanı, ən cəsuru, ən soyuqqanlısı deməkdir. O, vətən torpağını addım-addım tanıyan, düşmənin nəfəsini hiss edən, səssizlikdə döyüşün nəticəsini müəyyən edən adam idi. Film səhnələrinə bənzəyən əməliyyatların içində təkrar-təkrar yaşamışdı. Lakin heç vaxt danışmadı. Çünki kəşfiyyatçı danışmaz, danışdığı tək yer tarixdir. Kəşfiyyatçılar ən qaranlıq məkanlara gedər, ən çətin qərarları verər, ən yüksək riskləri daşıyarlar. Onlar çox zaman öz izlərini də gizlətməli olurlar – elə bil bu dünyada heç olmamış kimi.

Həmin illəri hər zaman xoş bir əhval-ruhiyyə ilə xatırlayan Təbriz Zeynalov bu çətin yolda onun və yoldaşlarının həyatına düzgün yol göstərən, onları yetişdirən təcrübəli müəllimlərinə xüsusi minnətdarlıq edir.

2014-cü ilin dekabr ayında XTQ kursunu bitirən Təbriz 2015-ci ilin yanvar ayından 2016-cı ilin avqust ayına qədər N saylı hərbi hissədə xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı vəzifəsində xidmət edir. İllər keçdikcə daha da püxtələşən Təbriz artıq sadəcə hərbçi deyildi. O ölkənin ən gizli əməliyyatlarında iştirak edən xüsusi təyinatlı kəşfiyyatçı idi. Onun üçün qaranlıq qorxu deyil, sığınacaq idi. Səssizlik təhlükə yox, rəng idi. Ölüm isə işin bir hissəsi. Təbriz üçün kəşfiyyat ölümün səssiz qapısından keçmək idi.

2016-cı ilin aprel ayı… Bu, Azərbaycan xalqı üçün qəhrəmanlıq salnaməsinin ilk səhifələrinin şərəflə yazılıb qürurla xatırlandığı bir tarixdir. Həmin gün təlimdə olan Təbriz də tabeliyində olan hərbçilərlə birlikdə döyüş bölgəsinə yollandı. Uzun illər təlim keçmiş, həm fiziki, həm də psixoloji olaraq bu gün üçün hazırlanmış heyət 3 günlük ağır təlimdən qayıtmalarına baxmayaraq böyük ruh yüksəkliyi ilə aprel döyüşlərində torpaqlarımızın azadlığı, ölkəmizin ərazi bütövlüyü uğrunda canını sipər etdi. Onun Talış kəndi və ətraf yüksəkliklərin azad edilməsində göstərdiyi rəşadət bu gün də xatırlanır və vətənə sədaqətin bariz nümunəsi kimi dəyərləndirilir.

Aprel ayının o gərgin, atəşli gecələrində Təbriz Zeynalov döyüş mövqeyinə doğru irəliləyərkən səngərdəki hər bir əsgərin taleyini öz məsuliyyəti kimi qəbul edirdi. Onun üçün bu əməliyyat sadəcə hərbi tapşırıq deyildi – bu, yurdun şərəfini qorumaq, işğal altında qalan torpaqların azadlığına gedən yolun açılması demək idi. Talış istiqamətində əməliyyatın ən çətin mərhələlərindən biri düşmənin möhkəmləndirilmiş postlarının yarılması idi. Qısa müddətdə vəziyyəti düzgün qiymətləndirən Təbriz Zeynalov döyüş yoldaşları ilə birlikdə böyük irəliləyişə başlayır. Güllə yağışının altında soyuqqanlılığını qoruması, yaralı silahdaşlarını döyüş zonasından çıxarması və mövqelərin ələ keçirilməsində göstərdiyi iradə əməliyyatın uğurlu keçməsində mühüm rol oynadı. Heç bir savaş itkisiz olmur. Bu döyüşlərdə də ağır itkilər verildi. Qəhrəman qazimiz bu gün də onlar haqqında danışarkən gözləri kədərlə dolur. Xüsusilə uzun illər dostluq etdiyi, illərlə təlimlər keçdiyi gizir Orxan Müstəcəbovun gözləri önündə şəhid olması onu çox sarsıdır. Müharibə bitdikdən sonra bir neçə gün bu ərazilərdə köməksiz qalan Təbriz və yoldaşlarından xəbər ala bilməyən yaxınları onların şəhid olması haqqında məlumat alırlar. Həmin günləri xatırlayanda gözlərinə dərin kədər çökən Sura ana: "Tanrı heç bir anaya bu nigarançılığı qismət eləməsin. Mən oğlumun şəhid olmasından qorxmurdum. Çünki Təbriz bu yolu seçəndə hər şeyi gözə almışdım. Amma məni qorxudan Təbrizdən heç bir xəbər almamağım idi…" – deyir.

Azad olunan torpaqlarda verilən ağır itkilərə baxmayaraq, Təbriz bu döyüşlər haqqında danışarkən həmin günləri bu cür dəyərləndirir: "Aprel döyüşləri bizdən çox şeyi aldı – qardaşlarımızı, döyüş yoldaşlarımızı itirdik. Lakin bu ilk savaşımız olsa da, biz Talış kəndini və Lələtəpə yüksəkliyini azad etdik. Həmçinin Aprel döyüşləri bizə düşmənlə necə rəftar etməyi, dağlıq və keçilməz ərazilərdə hansı döyüş taktikasından istifadə etməyi və ümumiyyətlə müharibənin necə bir şey olduğunu öyrətdi. Müharibə bitdikdən sonra biz öz aramızda məhz bu döyüşdə qazandığımız təcrübələrlə fərqli təlimlər keçməyə başladıq…"

2018-ci ildə "Qızıl Qaya", Şərur rayonunun Günnüt kəndi və strateji yüksəkliklərin işğaldan azad olunması əməliyyatında (Günnüt döyüşləri) iştirak edən Təbriz, Aprel döyüşlərində qazandığı və təlimlərdə təkmilləşdirdiyi təcrübələrini burada mükəmməl formada istifadə edərək böyük qəhrəmanlıq göstərdi. Döyüş bitdikdən sonra Ali Baş Komandan tərəfindən "İgidliyə görə" medalı ilə təltif edilir.

2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində iştirak etmək üçün xidmət etdiyi xüsusi təyinatlı hərbi hissənin tərkibində oktyabr ayının 10-da Bakıya göndərilmişdir. Oktyabrın 11-dən etibarən Xocavənd rayonunun Ayqestan kəndi və Hadrut qəsəbəsinin düşmən qüvvələrindən təmizlənməsinə başlanmışdır. Oktyabrın 19-da Hadrut qəsəbəsinin ətrafındakı yüksəkliklərdə gedən döyüşlərdə Şuşa yoluna qədər döyüşərək irəliləmişlər. Həmin gün saat 15:30 radələrində Tuğ kəndinin yaxınlığında düşmənin artilleriya mərmisinin yanlarına düşməsi nəticəsində sağ gözündən qəlpə yarası alan Təbriz döyüş meydanından təxliyə olunmuşdur. Hal-hazırda sağ gözündən aldığı qəlpə yarası nəticəsində görmə qabiliyyəti tamamilə itmişdir.

2020-ci il – qəhrəmanlıqla yazılan qara payız… Vətən müharibəsi başlayanda Təbriz artıq döyüş meydanının ən çətin tərəflərinə alışmış bir kəşfiyyatçı idi. Amma bu tarix onun üçün də ömürlük yaddaşa çevrildi. Xocavəndin meşələri, Hadrutun dar küçələri… Orada hər daşın altında bir təhlükə, hər ağac budağında bir pusqu vardı. Təbriz bu döyüşlərin ən ön cəbhəsində idi, lakin görünmürdü – çünki kəşfiyyatçının yolu görünməzdir.

2020-ci il – İkinci Qarabağ müharibəsinin başlanması… Bu savaşın ən ağır səhnələri… Bütün təlimlərə, əməliyyatlara gedən zaman anasından xüsusi xeyir-dua alan Təbriz yenə ənənəsinə sadiq qalaraq: "Ana, mən gedirəm. Mənə xeyir-dua ver. Bu savaş başqalarına bənzəməz. Bu dəfə Allahın köməyi ilə, müzəffər ordumuz bayrağımızı Şuşa qalasına sancacaq", – dedi və öz heyəti ilə cəbhəyə yollandı.

Bu döyüşlərdə bütün kəşfiyyatçıların, həmçinin Təbrizin və onun tabeliyində olan hərbçilərin üzərinə çox ağır vəzifə düşürdü. Onlar düşmənin içində, onların nəfəsini hiss edəcək qədər yaxın məsafədə xidmət edirdilər. Xocavənd, Hadrut və Şuşa istiqamətində gedən döyüşlərdə Təbriz Zeynalov və tabeliyində olan heyətin xüsusi rolu oldu. 11 oktyabrdan etibarən o, azadlıq uğrunda ən qanlı döyüşlərdə idi. Kəşfiyyatçılar üçün döyüş meydanı sırf fiziki mübarizə deyildi; onlar həm də informasiya gətirir, düşmənin planlarını pozur, hədəfləri aşkarlayır, əməliyyatların gedişini dəyişirlər. Təbriz bu proseslərin tam mərkəzində idi.



19 oktyabr – sükutun qırıldığı gün! Bu tarix Təbriz Zeynalovun taleyinin dəyişdiyi, döyüş yolunun son günü oldu. Tuğ kəndi yaxınlığında gedən döyüşlər zamanı düşmən artilleriya mərmisi partladı. İki döyüş yoldaşını həmin yerdə itirən Təbrizin gözünə düşən qəlpə onun görmə qabiliyyətini əlindən aldı. O an ölüm onu çağırsa da, Təbriz dayanmadı. Qəhrəman qazinin yarası həyatını dəyişdi, amma iradəsini yox. O, gözünü itirsə də, "görməyi" itirmədi – çünki Təbriz vətəni gözü ilə deyil, ürəyi ilə görürdü.

Müharibədən sonra Təbrizin həyatında yeni bir mərhələ başladı. Bu, səngərdən dövlətə xidmətə uzanan yol idi. Döyüşdən qayıdan qazilər çox zaman həyatda ikinci döyüşə başlayır – müharibədən sonrakı döyüşə. Təbriz Zeynalov da bu çətin yolda addımladı. Xidmətə qayıtdı, komandir müavini oldu və digər vəzifələrdə çalışdı. Səhhətindəki problemlərə baxmayaraq, xidmətə sadiqliyini davam etdirdi. 2022-ci ildən sonra isə dövlət qulluğunda – 3-cü dərəcəli dövlət qulluqçusu olaraq çalışmağa başladı. Daha sonra Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində aparıcı mütəxəssis kimi fəaliyyət göstərdi. Bu onun həyatının yeni mərhələsi idi. Artıq o, silahla deyil, sözlə, qərarla, ictimai xidmətlə vətənə xidmət edirdi.

2024-cü ilin sentyabrından vətənpərvər qazi yeni bir cəbhə xəttində fəaliyyət göstərir – deputat məsuliyyəti… Artıq Təbriz Zeynalov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Həmçinin Naxçıvan Qazilər İctimai Birliyinin sədri kimi də fəaliyyət göstərən qazi bu gün öz bölgəsinin səsini, vətəndaşların problemini, qazilərin və şəhid ailələrinin dərdini parlamentə daşıyan bir nümayəndədir. Onun tribunadakı sakit, təmkinli danışığı döyüş meydanındakı səssiz hərəkətlərini xatırladır. Həm döyüşdə, həm həyatda onun bir tərzi var – hay-küysüz, göstərmədən, sadəcə borcunu yerinə yetirmək.

Kəşfiyyatçı kimdir? – sükutun içində yaşayan, görünməz igid. Onlar qaranlıqda irəliləyər, amma öz içlərində böyük bir işıq daşıyarlar. Təbriz Zeynalovun həyat yolu da elə bu görünməz işığın tarixidir. O, heç vaxt "mən etdim" demir. O, qəhrəmanlığını dilə gətirmir. Onun danışığını əvəz edən yarası oldu, tərifini isə xalq verdi. Bu gün onun üzündə gördüyümüz təmkin, həyatla bağlılığı, mübarizə ruhu – bütün bunlar kəşfiyyatçıların xarakterinə xas olan gizli iradənin əksidir. Müharibə ona iz qoydu, lakin onu əymədi. Əksinə, daha ucaltdı. Təbriz Zeynalov kimi kəşfiyyatçılar savaşın səssiz, amma ən uca zirvədə dayanan qəhrəmanlarıdır.

Vətən müharibəsi çox igidlər yetişdirdi. Bəziləri şəhidlik zirvəsinə yüksəldi, bəziləri qazi olaraq həyatına davam etdi, bəziləri isə Təbriz Zeynalov kimi həm döyüşdə, həm də dinc dövrdə xidmətini davam etdirir. Bu insanlar qəhrəmanlıq haqqında danışmır, çünki qəhrəmanlıq onların nəfəsindədir, addımındadır, həyat yolundadır. Onlar bizim sabahımızın ümididir. Onlar səssizdir, çünki səsə ehtiyacları yoxdur. Onlar göstərmir, çünki göstərmək üçün deyil, yaşatmaq üçün döyüşüblər. Təbriz Zeynalov kimi kəşfiyyatçılar savaşın səssiz, amma ən uca zirvədə dayanan qəhrəmanlarıdır. Onlar bizim görünməyən gücümüz, vətənimizin döyünən ürəyidir.

***Samirə Turan***
***"Musiqi təlimi" kafedrasının müəllimi***

# Xalq Yazıçısı Yusif Səmədoğlunun ədəbi dünyası

Bu il görkəmli Azərbaycan yazıçısı, Xalq Yazıçısı Yusif Səmədoğlunun 90 illik yubileyi qeyd edilir. Onun yaradıcılığı XX əsr Azərbaycan nəsrinin ən nadir istedadlardan biri kimi qiymətləndirilir. Y. Səmədoğlu "dərin ictimai-mənəvi məzmunlu" əsərləri, hekayə və romanları, hətta filmlərin ssenariləri ilə ədəbi prosesdə silinməz iz qoymuş, ötən əsrin 60-70-ci illərində milli ədəbiyyatın yeni mərhələyə keçməsində xüsusi xidmətlər göstərmişdir. Bu irsin tacı hesab olunan "Qətl günü" romanı isə müəllifə Azərbaycanın hüdudlarından kənarda da şöhrət qazandırmışdır. "Qətl günü" Y.Səmədoğlunun 1987-ci ildə nəşr olunan tarixi-psixoloji romanıdır. Ədəbiyyatşünaslar bu romanı Azərbaycan nəsrinin yeni mərhələsini açan güclü əsərlərdən sayır. Əsər üç fərqli süjet xəttində üç ayrı dövrün ictimai-siyasi mühitini qarşımıza çıxarır. Burada XIX əsrdə Qacarlar dövləti işğalı ilə 1937-ci il repressiyası arasında paralellər aparılır. Romanda ölümsüz "Xeyir-Şər" mübarizəsi toxunduğu əsas mövzulardandır. "Qətl Günü" romanı Azərbaycan ədəbiyyatında Şərin bədii obrazını yaradılmış ən güclü əsərlərdən biridir. Müəllif magik realizm üslubundan yararlanaraq üç dövrün faciəli talelərini bir nağıl kimi tərənnüm edir. Taleyin kəskin dönəmlərində insan həyatının əbədi sualları, çətin ömür yolları romanın əsas xəttini təşkil edir. Yaradıcılıq tənqidçiləri də qeyd edirlər ki, Qəmər Xan dövləti ilə Sovet repressiyası fonunda baş verən hadisələr simvolik mənada bir-birinin əksinə qoyulur. Bu texnika "Qətl günü"nü həm faciəli, həm də mistik atmosferə bürüyür. Ölkə daxilindəki uğurlu qarşılanması ilə yanaşı, əsərin mövzusu son dərəcə universal idi: dünya və insan haqqında fəlsəfi narahatlığını, şəxsin mənəvi inkişafa can atan yolunu təsvir edirdi. Həqiqətən də, bu roman insana və dünyanın taleyinə dair fundamental məsələləri qabardaraq oxucuya "qüvvələr kimi idarə edir?" sualını irəli sürür. Mühüm araşdırmalara görə, Y.Səmədoğlunun bu əsəri dünya ədəbiyyatındakı qlobal problemləri ustalıqla içərisinə hopdurub. XX əsrin sonlarına aid belə bir roman 2014-cü ildə müəlliflər arasında keçirilmiş sorğu zamanı "XX əsrin ən yaxşı Azərbaycan romanı" seçilmişdir. 60-cılar ədəbi məktəbinin kökləri ilə formalaşan ənənələrin ardınca, Yusif Səmədoğlu bu əsərlə ədəbiyyatda yeni dövrün başlanğıcından xəbər verdi. Romanda xalqının tarixi, mədəniyyəti ilə barışa bilməyən insanların faciəsi əks olunduğundan, o həm milli-mənəvi dəyərlərin, həm də ümumbəşəri ideallarin bir növ qalxanı rolunu oynayır. Beləcə, "Qətl günü" Yusif Səmədoğlunun yaradıcılığında bir zirvə olmaqla yanaşı, Azərbaycan nəsrində köklü dönüşlərə yol açan əsər kimi yadda qaldı. Yaradıcılığının əsas istiqamətləri və üslubu Yusif Səmədoğlu yaradıcılığı 1960-cı illərin mənzərəsində formalaşmış, o dövrün zəngin ədəbi mühitindən özünəməxsus üslubda bəhrələnmişdir. "60-cılar" ədəbi məktəbində yetişən bu yazıçı poeziya və nəsrimizə yeni ruh, yeni nəfəs gətirmiş, yazarlar arasında məhz özünəməxsus, tanınan tərzdə seçilmişdir. Əsərlərində milli ruhu, vətən sevgisini əsas tutan Səmədoğlu dövrün problemlərini, cəmiyyətin taleyini qabardan povest və novellalar yazmış, zamanın nəbzini tutaraq mənəvi-ictimai toxunuşları ön plana çəkmişdir. Ədəbiyyat tarixçiləri vurğulayırlar ki,



## Yusif Səmədoğlu-90

Səmədoğlu XX əsr Azərbaycan ədəbiyyatında çox xüsusi yer tutur, onun həyata və gerçəkliyə fərqli münasibəti, dünyagörüşü onu ətrafdakılardan seçir. Yazıçının əsərlərində millilik, millimənəvi dəyərlərin qorunması, milli mədəniyyətin gənc nəsillərə çatdırılması mövzuları daim üstünlük təşkil edib. Bununla da o, əsərləri vasitəsilə xalqın düşüncə ənənələrinin bədii xatirəsini zənginləşdirir. Y.Səmədoğlu, doğrudan da, azad, müstəqil və mədəni həyat yolu keçmiş, öz bədii dünyasında da bu yolun işıq və kölgələrini canlandırmışdır. Onun ömür yolunda daima milli ideyalar, ədalət və vicdan sualları əsas yer alıb, nəticədə pyes, roman və povestlərinə xalqın ürəyindən açar tapan yazıçı kimi tanınıb. Bu əsərlərdən birində belə deyilir: "Dərd uzun bir kəndirdi ki, dünyanın belinə toqqa kimi dolanıb, hamı bu kəndirdən yapışıb bir-birinə sarı gəlir... Səmədoğlunun ana dili Azərbaycan türkcəsidir və ədəbi dildə istifadə etdiyi poetik ifadələr, milliliyə söykənən metaforalar onun əsərlərinə sanki simvolik naxışlar kimi düşüb. Hər bir qəhrəmanının fərdi həyatı eyni zamanda ictimai-siyasi tuşlamadır: bu, həqiqətə sədaqət, ədalətə inam və insan taleyinə həsrət duyğularının keşməkeşləridir. Özü də bu ifadələrdə "milli ideyanın təlqin və təbliği" güclü şəkildə sezilir. Yusif Səmədoğlu həmçinin hekayə janrında da bir məktəb yaradıb. Onun qələmə aldığı hekayələrdə də əsasən Azərbaycan həyatının mənəvi-ictimai məsələləri, milli keyfiyyətlər, bütöv bir nəsilin ruh salnaməsi görünür. Yazarın yaradıcılığının təkcə "Qətl günü" ilə bitmədiyini qeyd etmək lazımdır. Onun ədəbi dünyasında ilk görünən kitab "220 saylı otaq" (1960) olub, daha sonra "Qalaktika" (1973) və digər romanları işıq üzü görüb. Bu üç əsər ibtidai sevgidən tutmuş tarixi hadisələrə qədər uzanan mövzuları əhatə edən qalın romanlar sırasıdır. Səmədoğlu həmçinin onlarla hekayənin müəllifidir. Əsərlərinin hamısında vətənə, ədalətə, insanlığa sadiqlik bədii xətt kimi keçir. Onların əksəriyyəti Azərbaycançılıq ideyası əsasında qurulduğundan hər dövr üçün aktual səslənir. Yaradıcılığının unikal cəhətlərindən biri də müəllifin cəsarətli mövqeyi və yenilik axtarışı olub. O, azad sözə inanan ziyalı kimi, zaman-zaman sovet ideologiyasının sərt çərçivələrinə qarşı çıxıb, ərsəyə gətirdiyi əsərlərdə o dövrün eybəcərliklərini açıq-ifşa etməyə çalışıb. Rəsmi mənbələrdə də qeyd olunur ki, Səmədoğlu ədəbiyyat prosesində hekayə, roman və filmlərin ssenariləri ilə iz qoymuş, milli ədəbiyyat xəzinəsini zənginləşdirmişdir. Məhz buna görədir ki, ona 1998-ci ildə "Azərbaycanın Xalq Yazıçısı" fəxri adı verilib. Yaradıcılığını nəzərə alsaq, Yusif Səmədoğlu həm də bir ssenarist kimi tanınır. Məsələn, o, Azərbaycanın məşhur "Mənim yedi oğlum" filmi üçün ssenari müəllifi olub. Bu film ikinci dünya müharibəsi dönəmində Azərbaycanın cəsur oğullarından bəhs edir. Belə ssenarilərdə də Səmədoğlunun poetik tutumu açıq-aşkar hiss olunur, o yalnız fakta deyil, qəhrəmanların daxili aləminə, hisslərinə vurğu edir. Yusif Səmədoğlunun əsərləri Azərbaycan ədəbiyyatının parlaq nümunələrindəndir. Onun dilində və mövzularında xalqımızın övladlarına, tarixin acı sevinclərinə, azadlıq sevgisinə aid naxışlar aydın görünür. Yazıçının ədəbi yolu, xalqın həyatını zənginləşdirən hekayələri və romançılıq irsi zaman keçdikcə daha böyük əhəmiyyət kəsb edir. Onu xatırladan bu yaradıcılıq, günün şəfəqindən ilhamlanan poetik dil, Azərbaycan ədəbiyyatına verdiyi töhfə ilə əbədiləşir.

*Fərasət Babazadə*
*Filologiya ixtisası üzrə*
*II kurs tələbəsi*

---



# Naxçıvan innovasiya mühiti yenilənir: NDU-dakı İnnovasiya Mərkəzinin imkanları

Müasir dövrdə innovasiya təkcə texnoloji yenilik deyil, həm də təhsilin mahiyyətini dəyişdirən əsas təkanverici qüvvədir. Qlobal universitetlər yaradıcı mühit formalaşdırmaqla tələbələrə bilik və dərin praktiki bacarıqlar qazandırır. Naxçıvan Dövlət Universiteti (NDU) də bu çağırışlara uyğun şəkildə öz innovasiya ekosistemini genişləndirir.

Bu çərçivədə Naxçıvan Dövlət Universitetində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə birgə hazırlanan Naxçıvan İnnovasiya Mərkəzinin açılışı həyata keçirilib. Mərkəz region gənclərinə, tələbələrə və texnologiyaya maraq göstərən hər kəsə real layihələr üzərində işləmək, müasir imkanlardan istifadə etmək və yaradıcı ideyalarını prototip mərhələsinə qədər inkişaf etdirmək imkanı yaradır.

NDU-da yerləşən İnnovasiya Mərkəzi tələbələrin ideyalarını inkişaf etdirmək, onları praktik nəticələrə yönəltmək və universitetdə müasir öyrənmə mühiti formalaşdırmaq üçün qurulmuş çoxfunksiyalı bir platformadır. Mərkəzin əsas məqsədi tələbələrdə yaradıcı düşüncə tərzini gücləndirmək, tədqiqat aparma, analiz, problem həll etmə və layihə idarəetmə bacarıqlarını inkişaf etdirməkdir. Buradakı laborator mühiti, rəqəmsal işləmə zonaları, təlim sahələri və layihə yönümlü komanda fəaliyyəti üçün qurulmuş çevik sistem yeni ideyaların hazırlanmasını daha səmərəli edir.

**Mərkəzin infrastrukturu və texnoloji imkanları**

Mərkəz nəzəri və praktiki işləri dəstəkləyən müasir infrastruktura malikdir. Burada akt zalı, kompüter sinifləri, görüş otaqları və beş laboratoriyadan ibarət innovativ mühit fəaliyyət göstərir. Kompüter siniflərindən biri iMac cihazları ilə təchiz olunaraq mobil tətbiq proqramlaşdırma və qrafik dizayn üçün geniş imkan yaradır. Digər sinifdə isə HP kompüterlər vasitəsilə web və mobil tətbiqlər, süni intellekt modelləri, IoT həlləri və prototiplərin hazırlanması mümkündür.

Laboratoriyalar elektronika, mikroelektronika, 3D modelləmə, PCB istehsalı, robototexnika və proqramlaşdırma üzrə real təcrübələr üçün formalaşdırılıb. Burada 3D printerlər, lazer-kəsim cihazları, termal kamera, osiloskoplar, müxtəlif mikrokontrollerlər (Arduino, Raspberry Pi, ESP), robot dəstləri, həmçinin komponentlərin səliqəli saxlanılması üçün xüsusi sistemlər mövcuddur. Bu da tələbələrə ideyanı sınamaq, modelləşdirmək, düzəliş etmək və real məhsula qədər işləmək imkanı yaradır.

**Mərkəzin əsas istiqamətləri və fəaliyyətləri – startap və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi**

Tələbələrin yeni biznes ideyaları üzərində işləməsi üçün mentorluq, layihə planlaması, prototipləşdirmə və təqdimat hazırlığı kimi mərhələləri əhatə edən sistem qurulub.

**Rəqəmsal inkişaf və texnoloji bacarıqların artırılması**

Mərkəzdə proqramlaşdırma, dizayn, analitika və digər texnoloji sahələrdə praktiki öyrənmə şəraiti təmin edilir. Bu, tədris prosesində rəqəmsallaşmanı gücləndirir.

**Layihə yönümlü öyrənmə mühiti**

Tələbələr real problemlər əsasında layihələr hazırlayır, komanda işini öyrənir və qarşıya çıxan çətinliklərə texnoloji həllər tətbiq edirlər.

**Təlim və inkişaf proqramları**

Burada müxtəlif təlimlər, praktiki seminarlar və yeni metodikalar üzrə sessiyalar keçirilir. Bu proses həm tələbələrin, həm də müəllimlərin innovativ yanaşmasını artırır.

**Universitet-sənaye əməkdaşlığı üçün platforma**

Mərkəz real sektorla əməkdaşlığa geniş imkan yaradır, tələbələri sənayedə tətbiq olunan texnologiyalarla tanış edir.

**Tədqiqat və analitik düşüncə dəstəyi**

Analitik iş, modelləşdirmə, məlumat emalı və tədqiqat aparmaq üçün tələbələrin istifadəsinə xüsusi resurslar təqdim olunur.

Mərkəzin ən mühüm üstünlüyü tələbələrin ideyadan prototipə, prototipdən məhsula qədər bütün mərhələləri eyni sistem daxilində həyata keçirə bilməsidir.

Nəticə olaraq, NDU-da yerləşən İnnovasiya Mərkəzi universitet üçün sadəcə yeni infrastruktur deyil. Bu mərkəz tədrisin keyfiyyətini artıran, tələbələrin gələcək karyerasını formalaşdıran, müasir təhsil tendensiyalarını real tətbiqlərlə birləşdirən strateji inkubator rolunu oynayır. Burada formalaşan dinamika universitetdə elmi, tədris və praktiki fəaliyyətlərin yeni mərhələyə yüksəlməsinə şərait yaradır.

*Fəxriyyə Səyyadova*
*Naxçıvan Dövlət Universitetinin*
*əməkdaşı*

# 31 DEKABR – DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ

Tarix bəzən xalqların yaddaşına yalnız bir gün kimi yox, bir ideya, bir amal, bir çağırış kimi həkk olunur. Azərbaycan xalqı üçün 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü məhz belə tarixi və mənəvi əhəmiyyət daşıyan günlərdəndir. Bu gün sadəcə təqvimdə qeyd olunan bayram deyil, dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlının qəlbində eyni duyğunu – vətən sevgisini, milli kimliyə bağlılığı və birlik arzusunu yaşadan rəmzi gündür. Həmrəylik Günü Azərbaycan xalqının tarixində parçalanmış talelərin, ayrılmış coğrafiyaların və bölünmüş ailələrin mənəvi birləşməsinin simvoluna çevrilmişdir.

Azərbaycan tarixən mürəkkəb siyasi proseslərin, imperiya maraqlarının və geosiyasi oyunların təsiri altında qalmış bir ölkə olmuşdur. Bu proseslər nəticəsində xalqımız təkcə öz torpaqları daxilində deyil, həm də ölkə hüdudlarından kənarda geniş şəkildə yayılmışdır. Müxtəlif dövrlərdə baş verən müharibələr, repressiyalar, iqtisadi və siyasi təzyiqlər minlərlə azərbaycanlını ata-baba yurdunu tərk etməyə məcbur etmiş, nəticədə dünya miqyasında böyük Azərbaycan diasporu formalaşmışdır. Lakin coğrafi uzaqlıq, fərqli cəmiyyətlərdə yaşamaq və müxtəlif mədəni mühitlərə inteqrasiya etmək milli kimliyin itməsi demək olmamışdır. Əksinə, bu uzaqlıq azərbaycanlılar arasında mənəvi birliyin, ortaq dəyərlərə bağlılığın daha da güclənməsinə səbəb olmuşdur.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü məhz bu birliyin, milli şüurun və ortaq yaddaşın ifadəsidir. Bu gün azərbaycanlıların harada yaşamasından asılı olmayaraq, eyni tarixə, eyni mədəniyyətə, eyni dilə və eyni mənəvi dəyərlərə sahib olduqlarını bir daha xatırladır. Həmrəylik anlayışı burada təkcə emosional yaxınlıq deyil, həm də məsuliyyət, qarşılıqlı dəstək və milli maraqlar ətrafında birləşmək deməkdir. Çünki müasir dünyada xalqların gücü yalnız iqtisadi və ya hərbi potensialla deyil, eyni zamanda, milli birlik, diasporun təşkilatlanması və informasiya məkanında fəallıqla ölçülür. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün məhz Yeni il ərəfəsində – 31 dekabr tarixində qeyd olunması dərin rəmzi və mənəvi məna daşıyır. Bu iki anlayışın – yeni ilin başlanğıcı və milli həmrəyliyin – eyni vaxta təsadüf etməsi təsadüfi deyil, əksinə, ideoloji və fəlsəfi baxımdan bir-birini tamamlayan anlayışlardır. Yeni il insanlarda ümid, yenilənmə, gələcəyə inam hissi oyatdığı kimi, Həmrəylik Günü də xalqın birliyinə, ortaq sabaha inamını gücləndirir. Bu baxımdan 31 dekabr həm təqvim dəyişikliyi, həm də milli şüurun yenilənməsi günüdür.

Yeni il dünyanın bir çox xalqları üçün köhnə ilin yekunu, yeni başlanğıcların rəmzi hesab olunur. Azərbaycan xalqı üçün isə bu gün ikiqat məna daşıyır. Bir tərəfdən insanlar yeni ilə ümid və arzularla qədəm qoyur, digər tərəfdən isə milli birlik və həmrəylik duyğusu ilə yeni ilə başlayırlar. Bu, Azərbaycan cəmiyyətində yeni ilin yalnız şəxsi arzularla deyil, ümummilli məqsədlərlə qarşılanmasına səbəb olur. Beləliklə, fərdi sevinc ümumi məsuliyyət hissi ilə tamamlanır.

Yeni ilin Həmrəylik Günü ilə üst-üstə düşməsi dünya azərbaycanlılarının eyni anda həm milli, həm də ümumbəşəri duyğuları yaşamasına imkan yaradır. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar həmin gecə həm yeni ili qarşılayır, həm də vətənə, milli kimliyə və ortaq dəyərlərə bağlılıqlarını bir daha ifadə edirlər. Bu, coğrafi uzaqlıqları mənəvi yaxınlığa çevirən mühüm amildir. Məhz bu gecə milyonlarla azərbaycanlı eyni duyğu – birlik və ümid hissi ilə yeni ilə qədəm qoyur.

Simvolik baxımdan Yeni il gələcəyə açılan qapıdır, Həmrəylik Günü isə bu qapıdan birlikdə keçmək çağırışıdır. Əgər yeni il insanlara zamanın dəyişdiyini xatırladırsa, Həmrəylik Günü bu dəyişikliklərə birgə və möhkəm addımlarla hazır olmağın vacibliyini vurğulayır. Bu iki anlayışın vəhdəti Azərbaycan xalqının gələcəyə parçalanmış deyil, vahid mövqedən baxmaq istəyinin ifadəsidir.

Eyni zamanda, bu tarix gənc nəsil üçün də xüsusi tərbiyəvi əhəmiyyət daşıyır. Gənclər Yeni ili qeyd edərkən, eyni zamanda milli birlik anlayışını dərk edir, Həmrəylik Gününün mahiyyətini anlayaraq böyüyürlər. Bu isə milli dəyərlərin sadəcə tarixi fakt kimi deyil, canlı ideya kimi nəsildən-nəslə ötürülməsinə şərait yaradır. Yeni ilin sevinc atmosferi Həmrəylik Gününün ideyasını daha təsirli və yadda qalan edir.

Beləliklə, Yeni ilin və Dünya Azərbaycanlılarının Həmrəylik Gününün eyni gündə qeyd olunması Azərbaycan xalqının gələcəyə həm ümidlə, həm də birlik ruhu ilə baxmasının rəmzidir. Bu tarix xalqımıza mesaj verir ki, yeni ilə qədəm qoyarkən təkcə fərdi arzular deyil, milli maraqlar da ön planda olmalıdır. Məhz bu vəhdət – yenilənmə və həmrəylik – Azərbaycan xalqının sabaha inamla addımlamasının əsasını təşkil edir.



31 dekabrın Həmrəylik Günü kimi qeyd olunması Azərbaycan xalqının müasir tarixində mühüm dönüş nöqtəsi olmuşdur. Bu günün əsasında duran ideya xalqın öz milli varlığını dərk etməsi, tarixi ədalətsizliklərə qarşı mənəvi etirazı və gələcəyə ümidlə baxmasıdır. Həmrəylik Günü Azərbaycan xalqının azadlıq, müstəqillik və suverenlik yolunda apardığı mübarizənin ideoloji dayaqlarından biri kimi çıxış edir. Bu gün xalqın keçmişi ilə gələcəyi arasında mənəvi körpü rolunu oynayır, milli yaddaşı diri saxlayır və yeni nəsillərə kim olduqlarını xatırladır.

Qloballaşan dünyada milli kimliyin qorunması getdikcə daha çətin və eyni zamanda daha vacib məsələdir. İnformasiya axınının sürətləndiyi, mədəni sərhədlərin nisbətən zəiflədiyi bir dövrdə xalqlar öz mənəvi dəyərlərini itirməmək üçün daha çox səylə çalışmalıdırlar. Bu baxımdan Dünya Azərbaycanlılarının Həmrəylik Günü yalnız keçmişə bağlılıq deyil, həm də gələcəyə yönəlmiş strateji çağırışdır. Bu gün diaspor təşkilatlarının fəallaşması, azərbaycanlı gənclərin milli şüurla yetişməsi, dilin, mədəniyyətin və tariximizin qorunub təbliğ edilməsi baxımından mühüm rol oynayır.

Həmrəylik Günü həm də Azərbaycan dövlətçiliyinin ideoloji sütunlarından biri kimi dəyərləndirilə bilər. Güclü dövlət güclü xalqdan, güclü xalq isə birlikdən yaranır. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların eyni amal ətrafında birləşməsi Azərbaycanın beynəlxalq aləmdə tanıdılması, haqq səsinin çatdırılması və milli maraqların müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu gün milli maraqların qorunmasında diasporun rolu danılmazdır və Həmrəylik Günü bu rolu daha da gücləndirən ideoloji platforma kimi çıxış edir. Dünya Azərbaycanlılarının Həmrəylik Günü təkcə bayram deyil, milli özünüdərkin, tarixi yaddaşın və gələcək məsuliyyətinin ifadəsidir. Bu gün hər bir azərbaycanlı üçün harada yaşamasından asılı olmayaraq, vətənlə mənəvi bağlarını yenidən dərk etmək, milli kimliyinə sahib çıxmaq və birlik ruhunu yaşatmaq fürsətidir. Məhz bu birlik və həmrəylik Azərbaycan xalqını tarix boyu yaşadan, bu günə gətirən və gələcəyə aparan ən güclü mənəvi dəyərdir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü ideyasının formalaşması Azərbaycan xalqının XX əsrin sonlarında yaşadığı mürəkkəb ictimai-siyasi proseslərlə birbaşa bağlıdır. Sovet imperiyasının süqutuna yaxın dövrdə xalqın milli özünüdərki güclənmiş, uzun illər boğulmuş milli düşüncə və azadlıq arzuları açıq şəkildə ifadə olunmağa başlamışdır. Məhz bu dövrdə Azərbaycan cəmiyyətində milli birlik, həmrəylik və tarixi ədalətin bərpası ideyaları ön plana çıxmışdır. 1989-cu ilin sonlarında Araz çayı boyunca çəkilmiş süni sərhədlərin sökülməsi, xalqın iki yerə bölünməsinə etiraz olaraq keçirilən aksiyalar Həmrəylik Gününün ideoloji əsasını təşkil etmişdir. Bu hadisələr göstərdi ki, azərbaycanlılar harada yaşamasından asılı olmayaraq, eyni milli ağrını bölüşür və eyni amal uğrunda birləşə bilirlər.

1991-ci ildə Dünya Azərbaycanlılarının Həmrəylik Gününün rəsmi şəkildə qeyd olunması bu ideyanın dövlət səviyyəsində qəbul edildiyini göstərdi. Bu addım müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının milli ideologiyasının formalaşmasında mühüm rol oynadı. Həmrəylik anlayışı artıq yalnız emosional birlik deyil, həm də siyasi, mədəni və informasiya sahəsində koordinasiyalı fəaliyyət kimi dərk olunmağa başladı. Azərbaycan dövləti xaricdə yaşayan soydaşlarımızla əlaqələrin möhkəmləndirilməsini prioritet məsələ kimi qarşıya qoydu, diaspor quruculuğu istiqamətində mühüm addımlar atıldı.

Dünya üzrə milyonlarla azərbaycanlının yaşaması ölkəmiz üçün həm böyük imkan, həm də ciddi məsuliyyət yaradır. Bu insanlar yaşadıqları ölkələrdə Azərbaycan mədəniyyətinin daşıyıcısı, milli maraqların müdafiəçisi və vətənlə dünya arasında körpü rolunu oynayırlar. Həmrəylik Günü diaspor təşkilatlarının fəaliyyətini stimullaşdıran, onların bir mərkəzdən yönləndirilməsini və ortaq məqsədlər ətrafında birləşməsini təşviq edən mənəvi platformadır. Bu gün müxtəlif ölkələrdə fəaliyyət göstərən azərbaycanlı icmaları mədəni tədbirlər, konfranslar, yürüşlər və informasiya kampaniyaları vasitəsilə həm milli kimliklərini qoruyur, həm də Azərbaycanın haqq səsini beynəlxalq ictimaiyyətə çatdırırlar.

Xüsusilə informasiya müharibələrinin genişləndiyi müasir dövrdə həmrəylik anlayışı daha strateji xarakter almışdır. Ermənistan-Azərbaycan münaqişəsi, Qarabağ məsələsi və regional geosiyasi proseslər fonunda diasporun vahid mövqedən çıxış etməsi həyati əhəmiyyət kəsb edir. Həmrəylik Günü bu baxımdan azərbaycanlıların informasiya məkanında parçalanmasının qarşısını alan, milli maraqlar ətrafında birləşdirən ideoloji dayaqdır. Xaricdə yaşayan azərbaycanlı jurnalistlər, alimlər, ictimai xadimlər və fəallar bu günün verdiyi ruh yüksəkliyi ilə daha fəal mövqe nümayiş etdirirlər.

Həmrəylik anlayışı yalnız siyasi və milli məsələlərlə məhdudlaşmır, eyni zamanda, mədəni və mənəvi dəyərlərin qorunmasını da əhatə edir. Dil, ədəbiyyat, musiqi, adət-ənənələr xalqın varlığını yaşadan əsas amillərdir. Xarici ölkələrdə böyüyən gənc nəsillərin ana dilini unutmaması, tarixini bilməsi və milli kimliyini dərk etməsi həmrəylik ruhunun davamlılığını təmin edir. Bu baxımdan Həmrəylik Günü gənclər üçün tərbiyəvi əhəmiyyət daşıyır, onlarda milli qürur hissini gücləndirir və vətənə bağlılığı möhkəmləndirir.

Azərbaycan dövlətinin diaspor siyasəti də məhz bu günün ideoloji xəttinə uyğun olaraq inkişaf edir. Dövlət tərəfindən yaradılan qurumlar, keçirilən forumlar və beynəlxalq tədbirlər dünya azərbaycanlılarının bir araya gəlməsinə, təcrübə mübadiləsinə və koordinasiyalı fəaliyyətinə şərait yaradır. Həmrəylik Günü bu proseslərin simvolik zirvəsi kimi çıxış edir və bütün il ərzində aparılan fəaliyyətlərin mənəvi yekunu rolunu oynayır. Bu gün dövlətlə diaspor arasında qarşılıqlı etimadın və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir.

Eyni zamanda, Həmrəylik Günü Azərbaycan cəmiyyətində sosial birliyin güclənməsinə də təsir göstərir. Bu gün insanları fərdi maraqlardan daha çox ümummilli dəyərlər haqqında düşünməyə sövq edir. Cəmiyyətdə qarşılıqlı anlayış, birlik və məsuliyyət hissi formalaşdırır. Həmrəylik yalnız xaricdə yaşayan soydaşlarla deyil, ölkə daxilində də sosial təbəqələr arasında həmrəyliyin gücləndirilməsi baxımından mühüm mesaj daşıyır.

Beləliklə, Dünya Azərbaycanlılarının Həmrəylik Günü tarixi köklərə, siyasi məzmuna və dərin mənəvi anlamlara malikdir. Bu gün Azərbaycan xalqının parçalanmış tarixinin mənəvi birləşməsi, milli iradəsinin təzahürü və gələcəyə yönəlmiş strateji baxışının ifadəsidir. Həmrəylik ruhu yaşadıqca Azərbaycan xalqı daha güclü, daha möhkəm və daha nüfuzlu olacaqdır.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü təkcə bir tarixi hadisənin xatırlanması deyil, eyni zamanda, Azərbaycan xalqının milli varlığının, mənəvi bütövlüyünün və gələcəyə yönəlmiş iradəsinin ifadəsidir. Bu günün mahiyyəti yalnız keçmişdə baş vermiş hadisələrə bağlı deyil; o bu günü yaşayan və sabahı qurmağa çalışan milyonlarla azərbaycanlının ümumi taleyini, ümumi məsuliyyətini özündə birləşdirir. Həmrəylik Günü xalqımızın tarixi yaddaşında parçalanmış coğrafiyaların mənəvi birliyə çevrildiyi, fərqli ölkələrdə yaşayan insanların eyni ad altında – azərbaycanlı adı altında birləşdiyi simvolik gündür.

Bu gün Azərbaycan xalqı üçün bir hesabat və düşüncə anıdır. Hər bir fərd özünə sual verir: milli kimliyimiz üçün nə etmişik, bu kimliyi gələcək nəsillərə necə ötürürük, həmrəyliyimizi gündəlik həyatımızda necə yaşadırıq? Həmrəylik anlayışı yalnız bayram günlərində xatırlanan şüar olmamalıdır. O, gündəlik davranışlarda, ictimai münasibətlərdə, informasiya məkanında və milli maraqların müdafiəsində öz əksini tapmalıdır. Əsl həmrəylik ortaq məsuliyyət hissindən doğur və davamlı fəaliyyət tələb edir.

Müasir dövrdə dünya sürətlə dəyişir, beynəlxalq münasibətlər mürəkkəbləşir, informasiya müharibələri daha sərt xarakter alır. Belə bir şəraitdə milli birliyin qorunması və gücləndirilməsi həyati əhəmiyyət daşıyır. Dünya Azərbaycanlılarının Həmrəylik Günü bu baxımdan strateji əhəmiyyətə malik ideoloji platformadır. Bu gün azərbaycanlıların informasiya məkanında vahid mövqedən çıxış etməsinin, milli maraqlar ətrafında koordinasiyalı fəaliyyət göstərməsinin vacibliyini bir daha xatırladır. Birlik olmadıqda ən haqlı mövqe belə lazımi təsiri göstərmir, lakin həmrəylik milli səsi gücləndirir və onu beynəlxalq aləmdə eşidilən edir.

Həmrəylik Günü həm də gənc nəsil üçün ciddi mənəvi mesaj daşıyır. Xarici ölkələrdə böyüyən azərbaycanlı gənclər üçün bu gün milli köklərə qayıdış, öz kimliyini dərk etmə və vətənlə mənəvi bağları möhkəmləndirmə fürsətidir. Eyni zamanda, ölkə daxilində yaşayan gənclər üçün də bu gün milli qürur hissini gücləndirən, onları ümummilli dəyərlər ətrafında birləşdirən ideoloji vasitədir. Gənclərin həmrəylik ruhunda yetişməsi Azərbaycan xalqının gələcəkdə daha güclü və daha təşkilatlanmış olmasının əsas təminatıdır.

Azərbaycan dövlətinin həyata keçirdiyi diaspor siyasəti və milli birlik strategiyası Həmrəylik Gününün real nəticələrə çevrilməsinə şərait yaradır. Dövlət və diaspor arasında qurulan qarşılıqlı əlaqələr, təşkil olunan beynəlxalq forumlar, mədəni layihələr və informasiya kampaniyaları bu günün ideyalarının praktik müstəvidə reallaşmasının göstəricisidir. Lakin bu proses yalnız dövlətin deyil, hər bir azərbaycanlının fəal mövqeyini tələb edir. Hər bir fərd yaşadığı cəmiyyətdə öz davranışı, fəaliyyəti və mövqeyi ilə həmrəylik ideyasına töhfə verə bilər.

Həmrəylik anlayışı eyni zamanda sosial ədalət, qarşılıqlı hörmət və milli dəyərlərə sadiqlik kimi prinsipləri də özündə ehtiva edir. Cəmiyyət daxilində birlik möhkəm olduqda dövlət daha güclü, xalq daha dözümlü olur. Bu baxımdan Həmrəylik Günü yalnız xaricdə yaşayan soydaşlarla bağlı deyil, ölkə daxilində sosial təbəqələr arasında da həmrəyliyin gücləndirilməsi baxımından da mühüm mesaj verir. Birlik ruhu cəmiyyətin bütün sahələrində – elm, mədəniyyət, media, iqtisadiyyat və ictimai həyatda özünü göstərməlidir.

Tarix göstərir ki, birliyini qoruyan xalqlar çətinlikləri dəf edə bilir, parçalanan cəmiyyətlər isə zəifləyir. Azərbaycan xalqı tarix boyu müxtəlif sınaqlardan keçmiş, lakin milli ruhunu və həmrəylik duyğusunu itirməmişdir. Dünya Azərbaycanlılarının Həmrəylik Günü bu tarixi davamlılığın müasir ifadəsidir. Bu gün keçmişdən gələn milli iradənin bu günlə qovuşduğu, gələcəyə isə ümidlə yönəldiyi mənəvi körpüdür.

Nəticə etibarilə, Dünya Azərbaycanlılarının Həmrəylik Günü Azərbaycan xalqının milli kimliyinin qorunması, dövlətçiliyinin möhkəmləndirilməsi və beynəlxalq aləmdə nüfuzunun artırılması baxımından əvəzsiz əhəmiyyətə malikdir. Bu gün bizə xatırladır ki, harada yaşamağımızdan asılı olmayaraq, bizi birləşdirən ortaq tariximiz, dilimiz, mədəniyyətimiz və vətən anlayışımız var. Məhz bu ortaq dəyərlər ətrafında birləşmək Azərbaycan xalqının ən böyük gücü və gələcəyinin əsas təminatıdır.

***Gülay Quliyeva***
***Jurnalistika ixtisası üzrə***
***I kurs tələbəsi***

# SƏN KİMSƏN?

*(Tarixi hekayə)*




Mən Səfəvi sarayında xidmət edən döyüşçülərdən biri idim. Hamı mənim döyüş taktikalarımı, fiziki gücümü, ağlımı bəyənirdi. Elə Şah Təhmasib də. Bu bacarıqlarıma görə Təhmasib məni ən yaxın adamlarının siyahısına qatdı. Mənə güvənirdi. Hər dəfə saraylarda intriqalar olduqda məni yanına çağırırdı. Mən də məmnuniyyətlə baş əyib razılıq bildirirdim. Getdikcə mənə olan güvənini qazana bilmişdim.

Bir döyüşçü üçün ən böyük uğur hökmdarın güvənini qazanmasıdır. Bəzən sarayın divarlarına baxırdım. Düşünürdüm, düşünürdüm ki, görəsən, nə vaxtsa mən də hökmdar ola biləcəyəmmi? Hər dəfə bu xəyallarımı sona çatdırmamış, hökmdar məni səsləyərək, öz çirkin səsi ilə xəyallarımdan ayırırdı.

Əslində mən bu adamı ilk başlardan sevirdim. Çünki mənə güvənirdi, mənə hörmət edirdi, sevirdi. Hətta artıq məni sarayın bütün sirlərindən agah edirdi. Döyüşlərdə əsgərlərin başında məni göndərirdi.

Bir dəfə qərar verdim ki, Səfəvi torpaqlarını qaytarmaq lazımdır. Təhmasibdən xəbərsiz döyüşçüləri bir araya yığdım. Torpaqlarımızı geri qaytarmaq üçün tədbirlər görməyə başladım. Bir neçə ay döyüşə hazırlıq gördük. Sonra mən bunu Təhmasibdən xəbərsiz etdim. Həlledici gün gəldi və torpaqlarımızı çoxunu geri qaytardım.

Şah mənim bu işimdən razı qaldı. Sevindi, məni vəzir təyin etdi. Bir müddət Səfəvi torpaqlarında sakitlik hökm sürdü.

Bir gün sarayın bağçasında gəzişirdim. Bir çapar yanıma gəlib dedi:

– Vəzirim, Xorasanda qiyam qalxıb.

Həmin an heç tərəddüd etmədən birbaşa qüvvələri yığıb Xorasana getdik. Arxamca o qədər atlılar gəlirdi ki, hər yer toz-dumana bürünmüşdü. Mən isə düşünürdüm… Düşünürdüm ki, sən bu yerlərə necə gəlib çıxdın axı? Bu qədər insanlar sənin əmrinə baxır. Sən kimsən?

Artıq döyüş başlamışdı. Təsəvvür edin, çığıraraq vuruşan kim, qorxaraq qaçan kim, yalvarıb diz çökən kim… Başlar kəsildi, qarınlar yarıldı, qanlar göylərdə fəvvarə vurdu. Çığıraraq vuruşanları qılınclar susdurdu, qorxaraq qaçanları oxlar dayandırdı, yalvarıb diz çökənlər isə bizə tərəf keçdi.

Hər şeyin bahasına biz qalib gəldik. Bir günü Xorasanda keçirdik. Sonra qayıtdıq. Ohoo, gör nə gördük! Şahımız uğurumuzdan narahat olub. Nüfuzunu gücləndirmək üçün Osmanlılarda qalan bəzi torpaqlarımızı qaytarmaq istəyib. Təəssüflər olsun ki, azad etdiyim Səfəvi torpaqlarını yenidən itirib.

Çox qəzəblənmişdim. Çünki artıq yorulmuşdum. Xorasandakı qiyam məni əldən salmışdı. Təhmasibə səbr edirdim. Fikirləşdim, izlədim, Təhmasib uğurlarımdan çox narahat olurdu. İnsanlar məni çox sevirdi. Artıq şahımın vaxtı gəlmişdi, taxtdan salınmalı idi.

Bir az səs-küydən sonra Təhmasibi taxtdan saldıq. Onun yerinə mən də keçə bilərdim. Amma tələsmirdim. Güzgü qarşısına keçib özümə deyirdim: “Sən hələ şah deyilsən, bunun üçün tələsmə. Sənin olan taxt bir gün onsuz da sənin olacaq”.

Körpə III Abbas taxta çıxdı, amma onun adından dövləti mən idarə edirdim. Az qalmışdı… Çox az qalmışdı. Səfəvi dövləti böhran keçirirdi. Hələ qabaqda Osmanlı və Ruslarla məni böyük qarşılaşma gözləyirdi. Mən buna hazır idim.

Dörd il bəs etdi ki, mən Səfəvi torpaqlarını geri qaytarım. Qaytardım. Səfəviləri bərpa etmişdim. İndi isə xanın daşını atmaq vaxtı idi. Mən Səfəvi dövlətini əslində yaşada bilərdim, amma etmədim.

Bilirdim… Mən bilirdim ki, Azərbaycanı yox edə bilməyəcəklər. Mən bilirdim ki, Azərbaycanı bundan sonra elə fatehlər idarə edəcək ki, bizim də mətbuatımız olacaq, tariximiz yazılacaq. Mən də adımı tarixə yazmalıyam, amma Səfəvi adından yox. Əfşar imperiyası adından!

Bəli! Mən Nadir xan Əfşar yox… Nadir Şah Əfşaram!

Əfşarlar imperiyasının, Azərbaycanın, Şərqin fatehi!

Ha-ha-ha-ha-ha!

***Yusif Əhməd***
***Jurnalistika ixtisası üzrə***
***I kurs tələbəsi***

# Ənənəmi, yoxsa gələcəkmi? – erkən nikah və cəmiyyətin dilemması

Bəzən bir qızın arzuları sükut içində itir. Bir azyaşlı nə baş verənləri tam anlayır, nə də “yox” demək gücünə sahib olur. Sükutla qəbul edilən bu qərarlar isə onun uşaqlığını əlindən alır. O, hələ oyuncaqları ilə vidalaşmamış böyüməyə məcbur qalır. Gələcək planları, qurduğu xəyallar bir anda “vaxtı çatdı” cümləsi ilə yarımçıq qalır. Bu, bir hekayə deyil, minlərlə azyaşlının yaşadığı reallıqdır. Məhz bu reallığın adı erkən nikahdır.

Erkən nikah dünyada milyonlarla yeniyetmənin həyatına təsir edən ciddi sosial problemlərdən biridir. Uşaqlıq çağını tam yaşamadan ailə qurmağa məcbur edilən qızlar həm psixoloji, həm də sosial baxımdan ağır çətinliklərlə üzləşirlər. Erkən nikahın ən ağır tərəfi azyaşlının yarımçıq qalan arzularıdır. Onlar hələ özlərini tanımadan böyük məsuliyyətlər daşımağa məcbur qalırlar. Məktəb partasında oturmalı olan bir qız ev qayğıları ilə üz-üzə qalır. Onun dəftərlərində yazılmalı olan xəyallar yerini susqunluğa verir. “Böyüyəndə nə olmaq istəyirsən?” sualı cavabsız qalır. Çünki o, artıq uşaq deyilmiş kimi davranmağa məcbur qalır. Həkim, müəllim, jurnalist olmaq istəyən bir yeniyetmə öz xəyallarından imtina etməli olur. Halbuki bu arzular onun azad gələcəyinin təməli idi. Bu arzuların məhv edilməsi təkcə bir fərdin deyil, cəmiyyətin gələcəyinin də itirilməsi deməkdir.

Mütəxəssislər bildirirlər ki, erkən nikah təhsilin yarımçıq qalmasına, gələcək karyera imkanlarının məhdudlaşmasına və sağlamlıq problemlərinə səbəb olur. Erkən yaşda ailə məsuliyyəti daşıyan yeniyetmələr emosional baxımdan bu yükə hazır olmur. Bir uşağın




çiyninə qoyulan bu məsuliyyət onun həyatında dərin izlər buraxır.

Problemin əsas səbəblərindən biri maarifləndirmənin zəifliyi və köhnə düşüncə tərzidir. Bəzi ailələr ənənələri əsas gətirərək erkən nikahı “qorumaq” kimi təqdim edirlər. Lakin ənənə insanın həyatını yarımçıq qoyursa, artıq dəyər deyil, problemdir. Əsl qorumaq övladın təhsil almasına, öz yolunu seçməsinə və azad qərar verməsinə şərait yaratmaqdır. Çünki uşağın gələcəyini qorumaq onu erkən böyütmək yox, ona uşaq kimi yaşamaq haqqı verməkdir. Müasir cəmiyyətdə uşaq hüquqları və bərabərlik prinsipləri bu cür yanaşmaları qəbul etmir. Təhsilsiz və hazırlıqsız gənclər cəmiyyətə tam şəkildə inteqrasiya ola bilmir.

Erkən nikahı azaltmaq hər kəsin üzərinə düşən məsuliyyətdir. Bu problemin qarşısını almağın ən təsirli yolu maarifləndirmə və açıq müzakirədir. Məktəblərdə, ailələrdə və media müstəvisində gənclərin hüquqları, sağlam münasibətlər və erkən nikahın fəsadları barədə davamlı şəkildə danışılmalıdır. Ailələr isə övladlarının səslərinə biganə qalmamalı, onların gələcək planlarını dəstəkləməlidirlər.

Erkən nikah təkcə qanun pozuntusu deyil, həm də vicdan sınağıdır. Bir uşağın əlindən alınan arzular geri qaytarılmır. Ona görə də bu səssiz faciəyə səssiz qalmaq olmaz. Hər bir uşaq uşaqlığını yaşamaq, oxumaq və öz həyatını seçmək haqqına malikdir.

***Öznur Nurlanqızı***
***Jurnalistika ixtisası üzrə***
***I kurs tələbəsi***

# Dördüncü divarsız ev

Bu gün yolum Ordubad şəhər tam orta internat məktəbinə düşdü. Məkana çatanda artıq qəribə bir həyəcan yaranmışdı içimdə. Hiss edirdim, adicə bir yerə gəlmədiyimi bilirdim, sadəcə, bir məkana yox, saysız-hesabsız talelərə daxil olacağımı...

Bir neçə dəqiqə sonra olduğumuz otağın sükutunu uşaqların sevinc səsləri pozdu. Addım-addım, bir az çəkinə-çəkinə, amma baxışlarında gizli sevinc işığı ilə bizə doğru gəlirdilər. Bizi görən kimi üzlərində təbəssüm yarandı... O an başa düşdüm ki, bu divarların daxilindəki sevinclər səssiz olur, baxmayaraq ki, çox dərindən yaşanır.

Biz ora əliboş getməmişdik. Özümüzlə gətirdiyimiz hədiyyələri təqdim etməyə başladıq. Hər uşaq payını alanda üzündə yaranan sevinc, gözlərində parlayan işıq heç bir sözə sığmırdı. Hədiyyələr o qədər də böyük deyildi, amma onların verdiyi hiss, mənə görə, ölçüyəgəlməz idi. Bir neçə oyuncaq və şirniyyatlar… Sadə şeylər, amma böyük xoşbəxtliklər. Uşaqlar hədiyyələri bir-birlərinə göstərir, paylaşır, birgə sevinirdilər. Burada sevinc tək yaşanmırdı, bölüşülürdü. Bu paylaşım heç onlara öyrədilməmişdidə, həyatın özü tərəfindən məcbur edilmişdi.

Sonra oyunlar başladı. Uşaq səsləri divarlara dəyib geri qayıdırdı. Gülüşlər, qaçışlar, uşaq sevinci… Bir anlıq elə gəldi ki, bu yer internat məktəbi yox, böyük bir ailənin doğma yeridir. Kimisi oyunda uduzsa belə gülür, kimisi dostunun əlindən tutub onu da oyuna qatmağa çalışırdı. Burada heç kim tək qalmaq istəmirdi və heç kim tək buraxılmırdı.

Elə həmin an diqqətimi bir bağlılıq çəkdi – bacı-qardaş olan Dəniz və Yusif. Yusif hələ birinci sinifdə oxuyur, balaca addımlarla böyüyən, dəcəl, lakin çox düşüncəli bir uşaqdır. Dəniz isə üçüncü sinif şagirdi olsa da, qardaşına qarşı ana kimi qayğıkeş idi. Baxışlarında “Hər zaman yanındayam” deyən bir sözsüz vəd vardı. Oyun zamanı da, hədiyyə alanda da bir-birlərindən ayrılmırdılar. Nə alsalar bölüşür, nə etsələr birlikdə edirdilər. Onların bağlılığı həyatın sərt üzünə qarşı qurulmuş səssiz bir sipər kimi gəldi mənə.

Uşaqların səmimiyyəti insanı istər-istəməz düşündürürdü. Burada sevgi sadə idi, təmiz idi. Kimsə özünü göstərməyə çalışmırdı, kimsə digəri ilə yarışmırdı. Hamı eyni sevinci, eyni diqqəti paylaşmaq istəyirdi. Bəlkə də, bu səbəbdən onların gülüşü daha gerçək, baxışları daha dərindən idi.

Amma bütün bu gülüşlərin arxasında ürək ağrıdan bir həqiqət də vardı. Bu uşaqların bir çoxunun valideynləri həyatda idi. Amma onların həyatında deyildilər. Uşaqlar bunu dillə demirdi, amma bunu iliyimizə kimi hiss edirdik. Bəzi baxışlarda bir az kədər, bir az da gözlənti vardı…

Zaman necə keçdi hiss etmədik. Ayrılıq anı yaxınlaşdıqca uşaqların səsi bir az yavaşladı, gülüşlərinə qəribə bir kölgə düşdü. Sağollaşmaq çətin idi, həm bizə, həm də onlara. Uşaqlar bir az da qalmağımızı istəyirdi.

Sonda balaca Yusif mənə yaxınlaşdı. Heç nə demədən üzümə baxdı. O baxışda sual da vardı, ümid də. Mən ona söz verdim, yenə gələcəyəm. Bu sadə söz onun üzündə elə bir sevinc yaratdı ki, elə bil ən böyük hədiyyəni artıq almışdı.

Uşaq evindən çıxarkən addımlarım ağırlaşdı. Elə bil bilərəkdən ən dəyərli əşyamı orada qoyub çıxmışdım, əslində, həqiqətən, elə idi. Artıq ürəyimin bir parçası da orda qalmışdı. Bəzən bir uşağın həyatına toxunmaq üçün böyük sözlərə, böyük addımlara ehtiyac yoxdur. Bəzən sadəcə orada olmaq kifayətdir. Hansı ki həmin uşaqların evlərinin dördüncü divarının olmaması kimi. Valideynləri kimi.

***Elnurə Cəfərova***
***Jurnalistika ixtisası üzrə***
***IV kurs tələbəsi***

# Ekran arxasından mediaya: vətəndaş jurnalistikasının cəmiyyətə təsiri



Vətəndaş jurnalistikası müasir informasiya dövrünün ən diqqətçəkən anlayışlarından biridir. Bu anlayış insanların yalnız oxucu və ya tamaşaçı kimi deyil, eyni zamanda xəbərin yaradıcı tərəfi kimi prosesə qoşulduğunu göstərir. Əvvəllər xəbəri ancaq peşəkar jurnalistlər toplayır, redaktə edir və təqdim edirdisə, bu gün sosial şəbəkələr, mobil telefonlar və rəqəmsal platformaların inkişafı hər bir vətəndaşa informasiyanı birbaşa ictimaiyyətə çatdırmaq imkanı verib. Xüsusilə hadisələrin baş verdiyi anda çəkilən görüntülər, paylaşılan məlumatlar və şahid ifadələri klassik media orqanlarının belə çatmadığı nöqtələrə çata bilir.

Vətəndaş jurnalistikası cəmiyyətdə informasiya axınının sürətini artırmaqla yanaşı, media müstəvisində rəngarənglik yaradır. İnsanlar hadisələrin yalnız rəsmi versiyasını deyil, birbaşa hadisə yerindən gələn fərqli baxış bucaqlarını da görürlər. Bu baxımdan vətəndaş jurnalistikası həm demokratikləşməni, həm də informasiya əlçatanlığını gücləndirir.

İlk olaraq vətəndaş jurnalistikasının cəmiyyətdə yaratdığı müsbət təsirlərdən danışmaq istərdim.

Birinci böyük üstünlük informasiyanın sürətlə yayılmasıdır. Hadisə harda baş verirsə, həmin ərazidə olan adi vətəndaş hadisəni anında çəkib paylaşa bilir və bu da media orqanlarının məlumat alma prosesini sürətləndirir. İkinci üstünlük ondan ibarətdir ki, media mənsublarının hər zaman gedə bilmədiyi məkanlara vətəndaşlar rahat şəkildə daxil olur və real vəziyyəti nümayiş etdirirlər. Bu, ictimai problemlərin gizlədilməsinin qarşısını alır. Üçüncü müsbət tərəf şəffaflıqdır. Vətəndaşlar daha çox fakt və görüntü təqdim etdiklərindən manipulyasiya imkanları azalır və hadisələrin müxtəlif tərəflərini görmək asanlaşır. Əlbəttə, hər müsbətin bir mənfi tərəfi də olur.

Vətəndaş jurnalistikasının da mənfi tərəfləri və ciddi çatışmazlıqları mövcuddur. Ən önəmlisi informasiyanın dəqiqlik problemi və yanlış məlumat yayılması təhlükəsidir. Peşəkar jurnalist hadisəni yoxlamadan paylaşmır, lakin vətəndaş jurnalistikasında bu mərhələ çox zaman keçmir. Nəticədə səhv, şişirdilmiş və emosional məlumatlar cəmiyyəti çaşdıra bilir. Digər mənfi cəhət etik qaydalara riayət edilməməsidir. Şəxsi həyatın toxunulmazlığı, insanların üzünün izinsiz çəkilməsi, emosional nitqin üstünlüyü və subyektivlik bu sahədə tez-tez rast gəlinən hallardandır. Üçüncü mənfi tərəf informasiya təhlükəsizliyidir. Bəzən yayılan görüntülər dövlət sirrinə, hərbi məlumatlara və ya ictimai təhlükəsizliyə xələl gətirə bilər.

Bununla yanaşı biz data əsaslı xəbəri də bura əlavə edə bilərik ki, rəqəmsal dövrdə data əsaslı xəbər anlayışı getdikcə daha böyük əhəmiyyət qazanır. Bu anlayış xəbərin sadəcə müşahidə və şifahi məlumat əsasında deyil, konkret rəqəmlər, statistik göstəricilər, araşdırma nəticələri və böyük məlumat bazaları əsasında hazırlanmasını nəzərdə tutur. Data əsaslı xəbərin dəyəri ondadır ki, məlumatlar faktlara söykəndiyi üçün yanlışlıq ehtimalı azalır və xəbərin inandırıcılığı daha da artır. Bu tip materiallar cəmiyyətə problem və prosesləri daha aydın göstərir: məsələn, iqtisadi göstəricilərin artım və azalma tendensiyaları, əhali statistikası, sosial problemlərin miqyası və ya mətbuat azadlığı indeksləri kimi məlumatlar həm jurnalist, həm də oxucu üçün obyektiv mənzərə yaradır.

Data əsaslı xəbər müasir jurnalistikanın ən etibarlı istiqamətlərindən hesab edilir. Burada təkcə faktlar deyil, o faktların vizuallaşdırılması – qrafiklər, cədvəllər, xəritələr də mühüm rol oynayır. Bu isə xəbərin həm anlaşılmasını, həm də təsir gücünü artırır.

Mən jurnalistika ixtisasında təhsil alan bir tələbə kimi hesab edirəm ki, vətəndaş jurnalistikası müasir medianın ayrılmaz bir hissəsinə çevrilib. Xüsusən də Azərbaycanda sosial şəbəkələrin geniş yayılması insanların söz demək imkanlarını artırıb və bu, cəmiyyətdə çoxlu problemlərin görünməsini təmin edib. Lakin mən düşünürəm ki, vətəndaş jurnalistikasının faydalı olması üçün insanların elementar media savadına malik olması vacibdir. Yoxlanmamış məlumatların paylaşılması bəzən cəmiyyətdə panika yaradır və bu, peşəkar jurnalistikanın əhəmiyyətini daha da azaldır. Data əsaslı xəbərlərin gələcəyin əsas istiqaməti olduğuna inanıram, çünki rəqəmlər heç vaxt yalan danışmır və məlumatın dəqiqliyini təmin edir. Mənim üçün ən doğru jurnalistika həm insanın şərhini, həm də faktın sübutunu özündə birləşdirən jurnalistikadır. Bu məqaləni yazmaqda məqsədim, insanların vətəndaş jurnalistikasından düzgün istifadə etməsinə kömək etməkdir.

*Səkinə Əhmədova*
*Jurnalistikada ixtisası üzrə III kurs tələbəsi*

# Ana dilim – ruhumun şah damarı




Tarixin tozlu, qanlı və fırtınalı səhifələrini vərəqlədikcə bir böyük həqiqət hər addımda boylanır bizə. Millətlər torpaqlarını itirəndə məğlub sayılırlar, amma dillərini itirəndə yox olurlar. Torpaq geri alına bilər, qala yenidən tikilə bilər, amma bir xalqın dilinin məhvi onun mənəvi intiharıdır. Bizim dilimiz sözlərin mexaniki düzümündən, quru qrammatik qaydalardan çox-çox ötədədir. O, əsrlərin sınağından keçən bir gəminin sarsılmaz lövbəri, müstəmləkəçilik zəncirlərini qıran mənəvi qılıncımız, qəlbimizin ən dərin guşəsində döyünən şah damarımızdır.

Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi o kəskin, həm də bir o qədər haqlı sual bu gün hər birimizin vicdanına bir ox kimi toxunmalıdır: "Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün dilimizi qorumayaq?" Bu sual həm keçmişə baxış, həm də gələcəyə bir xəbərdarlıqdır.

Təsəvvür edin, ətraf tikanlı məftillərlə örtülüb, üzərində yad dillərin, özgə mədəniyyətlərin ağır hökmranlığı var. Hətta uşaq yaşlarından məktəblərdə başqa dildə susdurulursan. Lakin sən öz evində, ananın laylasında, nənənin nağıllarında o dili qoruyursan. Bizim babalarımız dilimizi işğalçıların "linqvistik hücumlarından" qorumaq üçün sanki bir istehkam qurdular. Onlar bu dili bizə bir "əmanət" kimi, yəni toxunulmaz, saf və müqəddəs bir xəzinə kimi verdilər.

Onlar dar ağacına gedəndə də son sözlərini bu dildə dedilər. Onlar sürgünlərdə, soyuq hücrələrdə bu dilin istisinə sığındılar. Bəs biz nə edirik? Bu gün azad, müstəqil, ərazi bütövlüyünü bərpa etmiş qalib bir ölkənin vətəndaşı olaraq öz xoşumuzla dilimizə xarici kəlmələrin "zəhərini" qatırıq. Guya daha müasir, daha "elitar", daha "qlobal" görünmək naminə ana dilimizin sümüyünə yad sözlərin bıçağını sancırıq. Əslində, bu bizim üçün mənəvi bir aşınmadır.

Bəzən elə bilirik ki, cümlənin ortasına ingilis, rus və ya başqa bir dildən parıltılı bir söz, bir termin qatsaq, intellektimiz bir pillə yuxarı qalxacaq, ətrafdakılar bizi daha çox bəyənəcək. Amma bu mənəvi boşluğun, milli kimlik kompleksinin və özünə inamsızlığın acınacaqlı əlamətidir. Dövlət başçısının da vurğuladığı kimi o kəlmələr dilimizi zənginləşdirmir, əksinə, onun təbii rəngini bulandırır, saflığını itirir.

Dil canlı bir orqanizmdir. Əgər sən sağlam, diri bir bədənə süni maddələr vursan, o bədən bir müddət sonra xəstələnər, öz təbiətindən uzaqlaşar. Bizim dilimiz Füzulinin ilahi qəzəli, Şəhriyarın yanğılı həsrəti, Üzeyir bəyin ruh oxşayan musiqisidir. Bu dildə sevgi var, bu dildə mərhəmət var. Hansı xarici kəlmə, hansı soyuq termin "Vətən" kəlməsinin bizdə yaratdığı o titrəyişi, o ilahi qoxunu əvəz edə bilər? Biz öz cəvahirimizdən imtina edib, başqasının şüşə qırıntılarına heyranlıqla baxırıq.

Bir jurnalist kimi vurğulayıram ki, dil həm də bizim mənəvi sərhədimizdir. Necə ki torpaq sərhədlərini ordumuz qoruyur, ruhumuzun sərhədlərini də ana dilimiz qoruyur. Sərhədi qorumaq üçün əlində silah postda duran əsgər nə qədər müqəddəsdirsə bizim üçün ana dilinin bir nöqtəsini, bir vergülünü yad təsirlərdən qoruyan müəllim, yazıçı, valideyn və vətəndaş da o qədər ucadır.

Bu gün Şuşada, Xankəndidə, Laçında Azərbaycan Bayrağını qürurla dalğalandırırıqsa, o torpaqlarda ilk olaraq Azərbaycan dilində "Salam!" deyiriksə, deməli, bu dil bizim zəfərimizin səsidir. Zəfər qazanmış bir xalqın dili zəif, qarışıq və yarımçıq ola bilməz.

Biz dilimizdə nəfəs alırıq. Biz bu dildə ilk kəlməmizi demişik, bu dildə sevdiyimizə sığınmışıq. Dilimizi "modernləşdirmək" bəhanəsi ilə şikəst etməyək. Dünyada "smart" görünməyi yox, öz torpağında "doğma" olmağı, öz dilində düşünməyi bacaraq. Dilimizi qoruyaq ki, o da bizi bir millət kimi gələcəyin işıqlı üfüqlərinə daşısın.

*Elnurə Cəfərova*
*Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi*

# 20 Yanvar – tariximizin qanlı və şanlı səhifəsi

1990-cı il yanvar faciəsinə aparan yol azərbaycanlıların tarixi Vətənimiz Qərbi Azərbaycandan tarixi torpaqlarımızdan növbəti kütləvi deportasiyasının, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinin geniş vüsət aldığı 1987-ci ildən başlayıb. Yüksələn xətt üzrə davam edən gərginliyin qarşısını almaq əvəzinə, o zamankı Sovet rəhbərliyi Azərbaycan xalqına qarşı misli görünməmiş dəhşətli cinayət törədib.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaralayıb. Fövqəladə vəziyyət elan edildikdən sonra isə bir neçə gün ərzində Bakı şəhərində 21 nəfər öldürülüb. Fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə – yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilib.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarında 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub.

Qoşunların qanunsuz yeridilməsi həm də dinc əhali arasında kütləvi həbslərlə müşayiət olunub. Əməliyyatların gedişi boyunca paytaxt Bakı və respublikanın digər şəhər və rayonlarından 841 nəfər qanunsuz həbs edilib, onlardan 112-si SSRİ-nin müxtəlif şəhərlərindəki həbsxanalara göndərilib. Hərbi qulluqçular tərəfindən 200 evə, 80 avtomobilə, o cümlədən təcili yardım maşınlarına atəş açılıb, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət və şəxsi əmlak məhv edilib.



Sovet qoşunlarının hərəkətlərində 1945-1946-cı illərdə keçirilmiş və tarixə Nürnberq prosesi kimi düşmüş beynəlxalq tribunalda pislənilən bütün əlamətlər müşahidə edilib.

1990-cı il yanvar qurbanları simvolik olaraq “20 Yanvar şəhidi” adlanır. Ümumilikdə, Azərbaycanın 150 nəfər “20 Yanvar şəhidi” vardır.

Faciədən dərhal sonra – 1990-cı il yanvarın 21-də Ümummilli Lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirib və həmin əməliyyata rəhbərlik edənləri ifşa edib: “...Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya zidd, humanizmə və ... hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin də yaranmazdı ...Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır!”. 1990-cı il noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Ümummilli lider Heydər Əliyev Yanvar faciəsini Azərbaycan xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirib: “Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovet İttifaqında, ölkənin daxilində – heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da edib Sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından əvvəl gəlib. Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olub ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edib. Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir”.

Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Xalqımız birləşdi, bütövləşdi və mübarizəsini davam etdirdi. Müstəqillik qazandı, həmçinin 44 günlük Vətən müharibəsində zəfər çaldı. Dövlət vətəndaşını heç vaxt unutmadı. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da şəhid ailələrinə həmişə yüksək qiymət verir və xüsusi qayğı ilə yanaşır. Cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev də çıxışlarında dəfələrlə qeyd etmişdir ki, zəfər, qələbə igid oğullarımız hesabına qazanılıb. Dövlətin nə qədər gücü, silahı-sursatı olsa da, düşmən üzərinə gedən, vuruşan bizim qəhrəman oğullarımızdır!

Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən “Mənim Oğlum Qəhrəmandır” layihəsi də şəhid ailələrinə, onların qəhrəman övladlarının xatirəsinə ehtiram göstərmək məqsədi daşıyan silsilə tədbirlərdir. Bu çərçivədə şəhid anaları və övladları üçün görüşlər, Ramazan ayında dini mərasimlər və onların diqqət mərkəzində saxlanılması üçün müxtəlif tədbirlər təşkil olunur. Layihə artıq bir neçə ildir davam edir, yüzlərlə şəhidin ailəsini bir araya gətirir, onlara dövlətin diqqətini və qayğısını hiss etdirir.

Şəhidlər bizim üçün ən qiymətli, qürur, fəxarət mənbəyidir. Naxçıvan Dövlət Universitetində də şəhidlərin qəhrəmanlıq yolu gənc nəslə geniş təbliğ olunur. Biz qəhrəmanların və şəhidlərin həyat yolundan vətənpərvərliyi, fədakarlığı öyrənirik, gənclər qəhrəmanlara bənzəmək, onların şərəfli həyat yolunu davam etdirmək arzusu ilə yaşayır. Əziz qəhrəman və şəhid ailələri, həmişə başınızı dik tutun, əmin olun ki, kədəriniz kədərimiz, sevinciniz sevincimizdir. Bir daha şəhidlərimizin unudulmaz xatirəsi önündə baş əyir, şəhid ailələrinə, şəhid doğmalarına dərin hörmət və ehtiramımızı bildiririk. Yaşasın müstəqil Azərbaycan! Yaşasın həmişə xalqı ilə bir olan Müzəffər Ali Baş Komandan İlham Əliyev! Uca Allah Azərbaycan xalqını bundan sonra faciələrdən hifz etsin!

**Süsənbər Ağamalıyeva**
**filologiya üzrə fəlsəfə doktoru,**
**NDU-nun Tərcümə Mərkəzinin tərcüməçisi**

# CƏSARƏTİN SƏSSİZ İZİ

Tarix bəzən xalqlarla sərt danışır. Elə günlər olur ki, zaman həm qürur, həm də ağrı ilə yaddaşlara həkk olunur. 20 Yanvar da Azərbaycan xalqının taleyində məhz belə bir gündür. O gün azadlıq istəyinin səsi yüksəldi, eyni zamanda günahsız insanların qanı töküldü. Bu hadisə təkcə siyasi tariximizin deyil, minlərlə ailənin və insan taleyinin dönüş nöqtəsinə çevrildi. Aradan illər keçsə də, 20 Yanvarın izləri yaddaşlardan silinmir və hər nəsil onu öz duyğusu ilə yenidən yaşayır.

20 Yanvar hadisələrindən sonra Azərbaycanın üzərindən təkcə qara buludlar deyil, ağır bir sükut da keçdi. Bu sükut yalnız küçələrdə deyil, insanların içində də yaşadı. Həmin dövr vətən üçün ayağa qalxan insanların həyatında dərin izlər buraxdı. Onlardan biri də mənim atam — leytenant rütbəli Eldar Məhərrəmov idi.

Leytenant Eldar Məhərrəmov həmin dövrdə ön cəbhədə, ağır zirehli silahlarla xidmət edirdi. O, həyatını mübarizəyə həsr etmişdi. Bu mübarizə bir anlıq deyil, davamlı idi. Atam çox danışanlardan deyildi. Çünki cəsarət hər zaman ucadan səslənmir; bəzən qorxuya baxmayaraq yerində dayanmaq, məsuliyyəti susaraq daşımaqdır. Onun cəsarəti də məhz bu idi — səssiz, amma sarsılmaz.

Həmin dövrdə o təkcə silahla deyil, böyük məsuliyyətlə döyüşürdü. Ətrafında əmrlərini gözləyən əsgərlər, çiyin-çiyinə döyüşdüyü silahdaşları vardı. Hər birinin həyatına cavabdeh olmaq ağır bir yük idi. Bu yük yalnız çiyinlərə deyil, insanın vicdanına da düşürdü. Döyüşlərdə həlak olan hər bir əsgər, hər bir silahdaşı insan yaddaşında silinməz iz buraxır.

Atam bu itkiləri görərək yaşadı. Birlikdə çörək kəsdiyi, eyni səngəri paylaşdığı insanları itirdi. O anlarda güclü qalmaq məcburiyyəti vardı. Amma güclü olmaq ağrısız olmaq demək deyil. Əsl dözümlülük ağrını içində yaşayıb yoluna davam etməkdir.

Bu itkilər atamın həyatında dərin izlər buraxdı. O susdu, içinə çəkildi, amma susqunluğu özü danışdı. Bəzən bir baxışı, bəzən uzun bir sükutu o illərin ağırlığını xatırladırdı. Onun dözümlülüyü illər keçdikcə daha aydın hiss olunurdu — ailəsinə, ətənə və həyata münasibətində. Artıq “Cənab leytenant” bizim üçün sadəcə bir mahnı deyil, atamın yaddaşını danışdıran bir xatirəyə çevrilib. Hər dəfə atamla birlikdə həmin musiqini dinləyəndə, onun gözləri sanki xatirə dənizinin dərinliklərinə qərq olur, yaşarır.

Şükürlər olsun ki, atam müharibədən sağ-salamat qayıtdı. Bu gün o, müharibə veteranı kimi təqaüddədir. Lakin onun yaddaşı hələ də döyüş meydanındadır. Təqaüdə çıxan yalnız rütbə və vəzifədir, yaşanmış itkilər deyil. Atamın həyatında 20 Yanvardan sonrakı dövr bir sınma nöqtəsi deyil, möhkəmlik və özünəqayıdış mərhələsi oldu.

20 Yanvardan sonra azadlıq Azərbaycan üçün artıq sadəcə arzu yox, qan və itkilərlə yoğrulmuş bir həqiqət oldu. Bu azadlıqda atam kimi insanların səssiz cəsarəti, dözümlülüyü və fədakarlığı var. Bu gün müharibələri xatırlayarkən yalnız şəhidlərimizi deyil, bu ağır yükü ömür boyu daşıyanları da xatırlamalıyıq. Çünki bəzən ən böyük qəhrəmanlıq sağ qalmaq və susaraq yoluna davam etməkdir.

Atam və onun kimi bu yükü daşıyan insanların cəsarəti səsli deyil, amma buraxdığı izlər dərin və unudulmazdır…

Bütün şəhidlərimizə Allahdan rəhmət, qazi və veteranlarımıza möhkəm cansağlığı arzulayıram.

***Nərmin Məmmədova***
***(Məhərrəmova)***
***“İngilis dili və tərcümə” kafedrasının müəllimi***

Baş redaktor:
**Şəhla Şirəliyeva**
shehlashiraliyeva@ndu.edu.az

**Ünvan:** AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
**Telefon:** 544-08-61 (1360)
yenifikir.ndu@gmail.com

Qeydiyyat № 330
Sifariş № 374
**Tiraj 350**

Dizayner:
**SAHİLƏ ABBASOVA**
“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.